

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti
31 oktyabr 2023-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR



# 18 Oktyabr – Müstəqilliyin Bərpası Günüdür

***1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmaq imkanı qazandı, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə özünün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dünyaya bəyan etdi.***

Azərbaycan müstəqilliyinin ilk illərində çoxsaylı təhlükələrlə üzləşib, ağır sınaqlardan keçib. Daxili çəkişmələr, ağır siyasi və iqtisadi böhran ölkəni vətəndaş müharibəsi astanasına gətirib, onun gələcək taleyini sual altına qoyub. Məhz bu şəraitdə Azərbaycan torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalıb, yüz minlərlə soydaşımız öz dədə-baba yurdlarından didərgin düşüb. Baş verənlər bir daha göstərib ki, həqiqi müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir.

Azərbaycan tarixinin bu ağır dönəmində Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdı. Yalnız bundan sonra müstəqilliyin yenidən itirilməsi təhlükəsinin qarşısı alındı. Qısa müddətdə ölkəmizin müstəqil daxili və xarici siyasət strategiyasının təməl prinsipləri müəyyən olundu, ictimai-siyasi sabitlik, dövlət intizamı təmin edildi, demokratik islahatların həyata keçirilməsinə və ordu quruculuğu prosesinə başlanıldı. Azərbaycan gələcək taleyi baxımından həlledici rola malik "Əsrin müqaviləsi"ndə iştirakı ilə dünyanın enerji xəritəsində xüsusi mövqe qazandı, qlobal iqtisadi mühitə inteqrasiya proseslərinə qoşularaq gələcək müvəffəqiyyətlərinə yol açan cəsarətli addımlar atdı.

Ölkəmiz bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə nəhəng regional və qlobal layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan özünün milli maraqları əsasında müstəqil xarici siyasət yürüdür və dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır.

Azərbaycan dövlətinin qüdrəti, qəhrəman xalqımızın sarsılmaz birliyi, qazilərimizin qanı, şəhidlərimizin canı bahasına əldə edilən tarixi Qələbəmiz sonrakı zəfərlərə yol açdı. Üç il bundan əvvəl Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuz 30 illik işğala son qoymuşdusa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etdi. Bu il sentyabrın 19-da isə cəmi 24 saat davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim oldu, suverenliyimiz tam təmin olundu. Şanlı qələbəmizin möhtəşəm və məntiqi sonluğu oktyabrın 15-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Ağdərə, Xocalı, Əsgəran və ən əsası isə Xankəndidə üçrəngli bayrağımızı qaldırması oldu.

*(ardı 11-ci səhifədə)*

## BDU Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş kitab sərgisində təmsil olunur

→Səh.15



**Çin Milli Kosmik Administrasiyasının Uzaq kosmik tədqiqatlar laboratoriyasının nümayəndələri BDU-da**

→Səh.2



**BDU-da "QS QUACQUARELLI SYMONDS" Reytinq Agentliyi ilə Azərbaycanın ali təhsil müəssisələrinin rəhbərləri arasında görüş**

→Səh.2



**BDU və Ankara Sosial Elmlər Universiteti arasında anlaşma memorandumu və "Erasmus+ K171" mübadilə müqaviləsi**

→Səh.4



**BDU rektoru qəbul imtahanlarında ən yüksək nəticə göstərən tələbələrlə görüşüb**

→Səh.16

**Koreya Qabaqcıl Elm və Texnologiya İnstitutunun alimi BDU tələbələri ilə görüşüb**

→Səh.20

**BDU-da "Ulu Öndər Heydər Əliyev: həyatın unikal səhifələri" adlı tədbir**

→Səh.3

**BDU Azərbaycanda "Times Higher Education Subject" reytinq siyahısında yer alan yeganə ali təhsil müəssisəsidir**

→Səh.4

**BDU Avrasiya Universitetlər Birliyinin görüşündə təmsil olunub**

→Səh7

**BDU-da "XXI əsrdə Azərbaycanın ali təhsil sistemi və innovasiyalar" mövzusunda görüş**

→Səh.8

**BDU-da Milli Müdafiə Universitetinin nümayəndələrinin tələbələrlə görüşü**

→Səh.13

**BDU-da "Beynəlxalq Müəllimlər Günü" adlı kitab sərgisi**

→Səh.19

**BDU-da III Beynəlxalq Türk Dünyası Kommunikasiya (Media) və İncəsənət Simpoziumunun açılış mərasimi**

→Səh.24

# BDU-da "QS QUACQUARELLI SYMONDS" Reytinq Agentliyi ilə Azərbaycanın ali təhsil müəssisələrinin rəhbərləri arasında görüş

***Oktyabrın 3-də Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı və BDU-nun ev sahibliyi ilə nüfuzlu "QS QUACQUARELLI SYMONDS" Reytinq Agentliyi və Azərbaycanın ali təhsil müəssisələrinin rəhbərləri arasında görüş keçirilib.***

Görüşdə BDU-nun rektoru Elçin Babayev, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova, 10 ali təhsil müəssisəsinin rəhbəri, bir sıra ali məktəblərin prorektorları və "QS QUACQUARELLI SYMONDS" Reytinq Agentliyinin nümayəndələri iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən BDU rektoru Elçin Babayev və Agentliyin direktoru Ülkər Səttarova tədbir iştirakçılarını salamlayaraq QS reytinq nəticələrinin Azərbaycanın ali təhsil müəssisələri üçün əhəmiyyətini vurğulayıblar.

Görüşdə "QS QUACQUARELLI SYMONDS" Reytinq Agentliyinin nümayəndələri tərəfindən QS reytinq nəticələri əsasında müxtəlif kateqoriyalar üzrə Azərbaycan ATM-lərinin mövcud vəziyyətinə dair müqayisəli təhlil aparılıb. Daha sonra isə Agentliyin nümayəndələri ali təhsil müəssisələrinin rəhbərlərini maraqlandıran sualları cavablandırıblar.



# BDU-da 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində tanınmış astronavtlarla görüş

***74-cü Beynəlxalq Astronavtika Konqresinin Beynəlxalq Astronavtlar Proqramı çərçivəsində BDU-nun tələbələri ilə tanınmış astronavtlar Tuva Atasever, Alper Gezeravci, Anna Kikina, Hazzaa AlMansoorinın görüşü keçirilib.***

Tədbirin açılışında Azərbaycan Respublikasının Kosmik Agentliyinin təhsil meneceri İmran Muxtarov tərəfindən tələbələrə qurumun fəaliyyət istiqamətləri, ölkəmizdə keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi və Beynəlxalq Astronavtlar Proqramı haqqında ətraflı məlumat verilib.



BDU rektorunun rəqəmsallaşma və informasiya texnologiyaları üzrə müşaviri Şəbnəm Səfərova isə qeyd edib ki, Azərbaycanda kosmos elminin Nəsirəddin Tusidən başlamış 800 illik tarixi var. BDU bu zəngin ənənəni davam etdirən əsas ali təhsil müəssisəsidir. Təsadüfi deyil ki, ölkədə astrofizika sahəsində yeganə kafedra BDU-da yerləşir. Həmçinin BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin nəzdində Astrokosmik və atmosfer tədqiqatları elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir.

Gənclərlə interaktiv sual-cavab formatında keçirilən görüşdə tanınmış astronavtlar Tuva Atasever, Alper Gezeravci, Anna Kikina, Hazzaa AlMansoori kosmosa səyahət və kosmik missiyaları ilə bağlı təəssüratlarını bölüşüb, sualları cavablandırıb, tələbələrə avtoqraflı şəkillərini hədiyyə ediblər.

Qeyd edək ki, Beynəlxalq Astronavtlar Proqramı çərçivəsində müxtəlif ali təhsil müəssisələri, elmi-tədqiqat institutları və gənclər mərkəzlərində "Kosmos və sağlamlıq", "Kosmos və inklüzivlik", "Kosmos və STEAM", "Astronavtların həyat və fəaliyyətinə həsr olunmuş brifinqlər" mövzularında görüşlər keçirilməsi nəzərdə tutulub. Bu görüşlərdə məktəblilər, tələbələr, şəhid və qazi övladları, xüsusi qayğıya ehtiyacı olan uşaqlar və gənc alimlər də daxil olmaqla 3000-dən çox şəxs iştirak edir. Proqramın məqsədi gənclər arasında kosmos elminin tərənnümü, yüksək texnologiyalara marağın artırılması, milli kosmik ekosistemin təşviqidir.

# Çin Milli Kosmik Administrasiyasının Uzaq kosmik tədqiqatlar laboratoriyasının nümayəndələri BDU-da

***Oktyabrın 6-da BDU-nun rektoru Elçin Babayev Çin Milli Kosmik Administrasiyasının Uzaq kosmos tədqiqatları laboratoriyasının Beynəlxalq əməkdaşlıq və mübadilə Mərkəzinin direktoru Vanq Jonqminin (Wang Zhongmin) rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Rektor Elçin Babayev qonaqlara BDU-nun tarixi, strukturu, beynəlxalq əlaqələri, tədris və elmi fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd edib ki, BDU Azərbaycanın ən qədim və böyük universitetidir. Ölkədə astrofizika sahəsində yeganə kafedra məhz BDU-da fəaliyyət göstərir. Həmçinin BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin nəzdində Astrokosmik və atmosfer tədqiqatları elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir.



Çin Milli Kosmik Administrasiyasının Uzaq kosmos tədqiqatları laboratoriyasının Beynəlxalq əməkdaşlıq və mübadilə Mərkəzinin direktoru Vanq Jonqmin kosmik tədqiqatlar sahəsində Azərbaycan-Çin əlaqələrinin perspektivlərindən, Çində bu sahədə yerinə yetirilən tədqiqatlardan danışıb, rəhbərlik etdiyi qurumun BDU ilə əməkdaşlıqda maraqlı olduğunu bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər və əməkdaşlıq perspektivləri müzakirə olunub.

# BDU rektoru Beynəlxalq Astronavtika Akademiyasının fundamental elmlər üzrə müxbir üzvü seçilib

***Bakı Dövlət Universiteti Beynəlxalq Astronavtika Akademiyasında da təmsil olunacaq. Belə ki, BDU rektoru Elçin Babayev Beynəlxalq Astronavtika Akademiyasının (IAA) fundamental elmlər üzrə müxbir üzvü seçilib və 74-cü Beynəlxalq Astronavtika Konqresi (IAC) çərçivəsində Bakıda keçirilən Akademiya Günü tədbirində ona Akademiyanın diplomu təqdim olunub.***

IAC dünyanın hər yerindən kosmos həvəskarlarını və mütəxəssisləri bir araya gətirən möhtəşəm tədbirdir. Aerokosmik ictimaiyyətin bu əlamətdar toplantısı çərçivəsində baş tutan bir çox əlamətdar hadisələr arasında IAA-nın Akademiya Günü xüsusi ilə seçilir. Zəngin tarixi və nüfuzlu iştirakçıları ilə Akademiya Gününün əsas məqsədi uyğun istiqamətdə ümumbəşəri nailiyyətlərə və kosmosun sonsuz imkanlarına nəzər salmaqdan ibarətdir.

1960-cı ildə yaradılmış Beynəlxalq Astronavtika Akademiyası astronavtika və astrofizika sahəsində seçilən elm adamlarının və mütəxəssislərin üzvü olduğu nüfuzlu təşkilatdır. Onun missiyası astronavtikanın dinc məqsədlər üçün inkişafını, beynəlxalq əməkdaşlığı və bilik mübadiləsini təşviq etməkdir. IAC-da Akademiya Günü IAA üçün bu nəcib məqsədlərə sadiqliyini nümayiş etdirmək üçün unikal platforma hesab oluna bilər.

Akademiya Günü eyni zamanda kosmik tədqiqatların və texnologiyanın müxtəlif aspektlərini özündə əks etdirən dinamik bir hadisədir. Günün proqramı kosmos siyasəti, Ayın davamlı tədqiqi, Marsın kolonizasiyası, qabaqcıl hərəkət sistemləri, kosmos və süni intellektin kəsişməsi kimi mövzuları əhatə edib.

# BDU-nun Hirş indeksi 59-a çatıb

***Elmi yenilikləri və innovasiyaları tədris prosesinə tətbiq etməklə "təhsil - elm - istehsalat" formatında fəaliyyətin qurulması, insan kapitalının inkişafında aparıcı mövqenin qorunması, tələbələrdə tədqiqatçılıq vərdişlərinin formalaşdırılması üçün ölkədaxili və beynəlxalq əməkdaşlığın yeni müstəviyə yüksəldilməsi, habelə, dünyanın tanınmış ali təhsil müəssisələri ilə mübadilə əsasında professor-müəllim heyətinin təcrübəsinin artırılması, ölkənin və cəmiyyətin sosial-iqtisadi problemlərinin həllində iştirak edən "Tədqiqat Universiteti"nə çevrilməsi BDU-nun gələcəyə baxışının əsas tərkib hissəsini təşkil edir.***

Təcrübə mübadiləsinin, birgə elmi-tədqiqatların aparılması məqsədilə əməkdaşların, doktorant və tələbələrin vaxtaşırı dünya miqyasında tanınmış universitetlərə, tədqiqat institutlarına və sənayə yönümlü elmi-tədqiqat mərkəzlərinə ezam olunması, dünyanın müxtəlif ölkələrindən alim və mütəxəssislərin ustad dərslərinin (master class), mühazirələrin və elmi seminarların təşkil olunması artıq öz bəhrəsini verməkdədir.

Belə ki, "Clarivate Analytics" Beynəlxalq İnformasiya Agentliyinin rəsmi məlumatına əsasən, BDU-nun Hirş indeksi son bir ay ərzində yenidən artaraq 59 olub. Hər bir əsərə istinadların orta sayı isə 7.19-a qədər yüksəlib. Agentliyin rəsmi məlumatına əsasən, BDU-nun əməkdaşları, doktorantları və tələbələri tərəfindən "Web of Science" bazasına daxil olan dərgilərdə artıq 4144 elmi əsər nəşr edilib. Bu əsərlərə 29000-dən çox istinad edilib.

Qeyd edək ki, BDU-da Fizika, Riyaziyyat, Kimya, Biologiya, Pedaqogika, Psixologiya, Tarix, Fəlsəfə, Filologiya, Yer elmləri, Texnika elmləri, Hüquq elmləri, İqtisad elmləri, Siyasi elmlər kimi sahələr üzrə 200-ə yaxın mövzuda tədqiqatlar aparılır. Son illər BDU-da interdissiplinar və multidissiplinar tədqiqatlara üstünlük verilir. Bunun nəticəsidir ki, artıq humanitar-ictimai elm sahələri üzrə indekslənmiş jurnallarda dərc olunan elmi əsərlərin sayı və keyfiyyəti artır.

Bütün BDU ailəsini təbrik edir və daha böyük uğurlar arzulayırıq!

# “Heydər Əliyevin əsərləri Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi" mövzusunda elmi seminar

***Oktyabrın 3-də tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasında "Heydər Əliyevin əsərləri Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi" mövzusunda elmi seminar keçirilib.***

Tarix fakültəsinin Elmi işlər üzrə dekan müavini, dosent Kəmalə Nəcəfova Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixində oynadığı önəmli roldan, elmi seminarın mövzusunun aktuallığından bəhs edib. Bildirib ki, Ümummilli Liderin həyatı və fəaliyyəti Azərbaycan tarixinin xüsusi bir mərhələsini təşkil edir. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının qurucusu, memarı olub. Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu, azərbaycançılıq ideologiyasının formalaşdırılması Ulu Öndərin adı ilə bağlıdır. “Heydər Əliyev İli” çərçivəsində Ulu Öndərin irsinin daha dərindən araşdırılması üçün Tarix fakültəsində də beynəlxalq və respublika səviyyəli konfranslar, elmi seminarlar, ustad dərsləri təşkil olunur.



Daha sonra Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, Milli Məclisin deputatı, professor Anar İsgəndərov mövzu ilə bağlı geniş çıxış edib.

O diqqətə çatdırıb ki, Ulu öndər tarixi prosesə təsir göstərməyə qadir şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və əvəzedilməz işlər görüb. Ümummilli Lider Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir.

Çıxışda qeyd olunub ki, Azərbaycanın 1960-cı illərin sonundan başlanan və XXI əsrə adlayan tarixinin otuz beş illik bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

O, bütün bu illərdə Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyıb, onu bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarıb, müasir Azərbaycan adlandırdığımız müstəqil məmləkəti, onun bugünkü həqiqətlərini, işıqlı sabahının etibarlı bünövrəsini yaradıb. Bu illər ərzində Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş onun adı ilə bağlıdır. Ulu Öndərin müəllifi olduğu azərbaycançılıq ideologiyası Azərbaycanın müasir dünyada yerini müəyyən edib, milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaradıb.

# Ulu Öndər Heydər Əliyevin azərbaycanlılara qarşı törədilmiş soyqırımı və deportasiyalarla bağlı fərmanlarına dair elmi seminar

***Oktyabrın 13-də Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının "Heydər Əliyevin azərbaycanlılara qarşı törədilmiş soyqırımlar və deportasiyalar haqqında fərmanları və onların tarixi əhəmiyyəti " mövzusunda elmi seminarı keçirilib.***

Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova elmi seminarın mövzusunun aktuallığından bəhs edib. Qeyd edib ki, ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktları və deportasiya siyasətinə ilk siyasi-hüquqi qiymət Ümummilli Lider Heydər Əliyev tərəfindən verilib. Ulu Öndərin “1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” 1997-ci il 18 dekabr tarixli 656 nömrəli və “Azərbaycanlıların soyqırımı haqqında” 1998-ci il 26 mart tarixli 690 nömrəli fərmanları bu baxımdan mühüm əhəmiyyət daşıyır. “Azərbaycanlıların soyqırımı haqqında” Fərmanda ilk dəfə olaraq azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınların – soyqırımların rəsmən adı çəkilib, xalqımıza qarşı aparılmış etnik düşmənçilik siyasətinin kökləri açılıb, erməni millətçilərinin mənfur fəaliyyətinə siyasi qiymət verilib. Bu Fərmanla 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, professor Anar İsgəndərov çıxışında qeyd edib ki, noyabr ayında Tarix fakültəsi tərəfindən “Heydər Əliyev və Azərbaycan tarix elmi” mövzusunda Respublika elmi konfransı keçiriləcək.

Elmi seminarda Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti Səidə Əli qızı mövzu ilə bağlı çıxış edib. O vurğulayıb ki, Azərbaycan xalqı yeni əsrə, yeni minilliyə məhz Heydər Əliyev dühasının işığında qədəm qoyub. Ulu Öndər Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə xalqımızın tarixinin yenidən, daha dərindən, obyektiv şəkildə öyrənilməsini zəruri bilib. Məruzəçi Ulu Öndərin bu fikirlərinin hər zaman aktual olduğunu deyib: “Xalqımıza qarşı törədilmiş soyqırımı haqqında həqiqətləri real faktlar, dəlillər əsasında dünya dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırmaq, saxta erməni təbliğatı nəticəsində formalaşmış yalan təsəvvürləri dəyişdirmək, ona hüquqi-siyasi qiymət verdirmək nə qədər çətin olsa da, şərəfli və müqəddəs bir iş kimi bu gün də, gələcəkdə də davam etdirilməlidir. Bu, soyqırımı qurbanlarının xatirəsi qarşısında indiki nəslin müqəddəs borcudur”.

# “Ulu Öndər Heydər Əliyev: həyatın unikal səhifələri” adlı tədbir

***Oktyabrın 13-də BDU-da Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatı və “Z. Xəlilov küç.33” ünvanı üzrə ərazi partiya təşkilatının birgə təşkilatçılığı ilə “Heydər Əliyev İli” çərçivəsində “Ulu Öndər Heydər Əliyev: həyatın unikal səhifələri” adlı tədbir keçirilib.***

*“Müstəqil, azad Azərbaycan böyük Heydər Əliyevin şah əsəridir. Bu gün Azərbaycanın iqtisadi, mədəni, siyasi, sosial həyatının elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyevin imzası olmasın. Azərbaycanın ən yeni tarixinin böyük bir erası məhz onun adı ilə bağlıdır. Heydər Əliyev erası Azərbaycanda quruculuq, inkişaf, sabitlik, tərəqqi, müstəqillik dövrüdür. Müasir mərhələdə Azərbaycanın inkişafı da məhz Ulu Öndər tərəfindən təməli qoyulmuş iqtisadi, siyasi, mədəni, intellektual əsaslarda baş tutur”*

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra Ulu Öndər Heydər Əliyev və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan “Z. Xəlilov küç.33” ünvanı üzrə ərazi partiya təşkilatının sədri Zahid Cəfərov Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərinin Azərbaycan tarixinin şanlı səhifələrini təşkil etdiyini, müstəqil Azərbaycanın memarı olduğunu qeyd edib. Bildirib ki, Ulu Öndər Heydər Əliyev çoxşaxəli fəaliyyəti ilə şərəfli dövlətçilik fəaliyyəti müddətində yalnız Azərbaycanı düşünüb, onun inkişafına çalışıb. Bu gün müstəqil Azərbaycan dahi liderin əbədiyaşar ideyaları əsasında qüdrətlənir, həmin ideyalar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev isə bildirib ki, Ulu Öndər milli həmrəylik və bütövlüyü təmin edən azərbaycançılıq ideologiyasının banisi, xalqımızın xilaskarıdır. Ölkəmizin əldə etdiyi uğurlu nailiyyətlərin şah əsəri heç şübhəsiz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun doğma Qarabağımızı düşmən tapdağından azad etməsi və regionda yaranan reallıqlardır. Prezident İlham Əliyev Vətən müharibəsindən sonra Zəfərimizi doğuran siyasi-diplomatik və hərbi kursu uğurla davam etdirib, bu ilin sentyabrın 19-da start verilmiş antiterror tədbirləri üçün baza formalaşdırıb. Azərbaycan xarici təzyiqlərə baxmayaraq lokal xarakterli antiterror əməliyyatı ilə Qarabağ iqtisadi rayonunda seperatizmi məhv edib. Sentyabrın 20-də isə qondarma rejim lokal antiterror əməliyyatına qarşı müqavimət göstərə bilməyərək təslim olub. Bu təslimiyyət regionun gələcək inkişafının əsas istiqamətlərindən birini təşkil edəcək.

YAP-ın İdarə Heyətinin üzvü, Milli Məclisinin deputatı Hikmət Babaoğlu vurğulayıb ki, müstəqil, azad Azərbaycan böyük Heydər Əliyevin şah əsəridir. Bu gün Azərbaycanın iqtisadi, mədəni, siyasi, sosial həyatının elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyevin imzası olmasın. Azərbaycanın ən yeni tarixinin böyük bir erası məhz onun adı ilə bağlıdır. Heydər Əliyev erası Azərbaycanda quruculuq, inkişaf, sabitlik, tərəqqi, müstəqillik dövrüdür. Müasir mərhələdə Azərbaycanın inkişafı da məhz Ulu Öndər tərəfindən təməli qoyulmuş iqtisadi, siyasi, mədəni, intellektual əsaslarda baş tutur.

YAP-ın Veteranlar Şurasının üzvü Şahlar Əsgərov, BDU-nun Beynəlxalq münasibətlər kafedrasının müdiri Ağalar Abbasbəyli çıxışlarında qeyd ediblər ki, bu gün dünyada yeni reallıqları ilə tanınan Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında uğurla inkişaf edir.

Sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirin sonunda YAP-ın ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə fərqlənmiş üzvlərə fəxri fərman, yeni üzvlərinə isə partiya vəsiqələri təqdim edilib.

# BDU 74-cü Bakı Beynəlxalq Astronavtika Konqresində iştirak edir

***Oktyabrın 2-də Bakıda Azərbaycanın Kosmik Agentliyinin ("Azərkosmos") və Beynəlxalq Astronavtika Federasiyasının tətəfdaşlığı ilə 74-cü Bakı Beynəlxalq Astronavtika Konqresi başlayıb.***

Tədbirə kosmik agentliklərin, dövlət sektorunun, investorlar və özəl kosmik şirkətlərin nümayəndələri, yerli və beynəlxalq media qurumlarının təmsilçiləri, ümumilikdə 101 ölkədən 5 mindən çox nümayəndə qatılıb.

Beynəlxalq Astronavtika Konqresində150 şirkət sərgi pavilyonunda təmsil olunur.

Sərgidə iştirak edən agentlik və şirkətlər arasında ABŞ-ın “Milli Aeronavtika və Kosmos Administrasiyası” (NASA), Yaponiyanın “JAXA” kosmik agentliyi, İtaliyanın “Agenzia Speziale Italiana” kosmik agentliyi, “AIRBUS” şirkəti, Kanadanın innovasiya mərkəzi “INO”, Fransanın Milli Kosmik Tədqiqatlar Mərkəzi “CNES”, Hindistanın kosmik agentliyi “ISRO”, Türkiyənin “Türkiye Uzay Ajansı” kosmik agentliyi və digər beynəlxalq şirkətlər yer alıb.



Bakı Konqresi çərçivəsində konfranslar, texniki sessiya və sərgilər təşkil olunacaq. Texniki sessiyalar Heydər Əliyev Mərkəzində keçirilir.

Azərbaycanda Astrofizika ixtisası üzrə kadr hazırlığı ilə məşğul olan yeganə kafedranın fəaliyyət göstərdiyi və ali təhsil müəssisəsi olaraq 2023-cü ildən Beynəlxalq Astronavtika Federasiyasının yeganə üzvü olan Bakı Dövlət Universiteti (BDU) də bu mötəbər tədbirdə iştirak edir. Bu, BDU-nun əməkdaşlıq əlaqələrinin daha da inkişaf etməsinə, beynəlxalq nüfuzunun yüksəlməsinə mühüm töhfə verəcək.

Heydər Əliyev Mərkəzi və Bakı Konqres Mərkəzinin ərazisində inşa edilən sərgi pavilyonunda beynəlxalq kosmik şirkətlər və digər müvafiq təşkilatlarla yanaşı, BDU-nun da stendi nümayiş olunur. Stenddə BDU-nun son illər təhsil, elm, texnologiya sahələrində əldə etdiyi nailiyyətləri özündə əks etdirən xidmət və layihələr sərgilənir. Mütərəqqi innovativ texnologiya və süni zəka əsaslı yüksək texnologiyalar sahəsində bir-birindən maraqlı layihələrin interaktiv təqdim edilməsi, fərqli müsabiqələrin, ustad dərslərinin keçirilməsi nəzərdə tutulduğundan BDU-nun stendi müxtəlif ölkələrdən olan ziyarətçilər üçün maraqlı məkandır. Sərgi günlərində işgüzar görüşlərin keçirilməsi, səmərəli əməkdaşlıq imkanlarının müzakirə olunması da planlaşdırılır. Sərgidə iştirak astrofizika, kosmos elmləri və texnologiyası sahələrində fəaliyyətin təşviqi, beynəlxalq əlaqələrin yaradılması, Beynəlxalq Astronavtika Federasiyası ilə əməkdaşlığın genişləndirilməsi, 75-dən çox ölkədən 6000 yüksək ixtisaslı mütəxəssisin, o cümlədən 2500-dən artıq gəncin BDU ilə bağlı məlumatlılıq səviyyəsinin artırılması baxımından əhəmiyyətlidir.

BDU Kosmos Hüququ üzrə Beynəlxalq İnstitutun İnstitusional üzvüdür və Beynəlxalq Astronavtika Akademiyasında təmsil olunur.

Bakıda Beynəlxalq Astronavtika Konqresi oktyabrın 6-dək davam edib.

# BDU və Ankara Sosial Elmlər Universiteti arasında anlaşma memorandumu və “Erasmus+ K171” mübadilə müqaviləsi

***Oktyabrın 11-də Türkiyənin Ankara Sosial Elmlər Universitetinin rektoru Musa Kazım Arıcanın rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***

Nümayəndə heyəti ilə görüş zamanı BDU-nun rektoru Elçin Babayev qonaqlara Universitetin tədris, elmi fəaliyyəti, beynəlxalq əlaqələri ilə bağlı məlumat verib. Qeyd edib ki, BDU-nun Sosial elmlər və psixologiya fakültəsi ölkədə bu sahədə kadr hazırlayan əsas baza hesab olunur. Həmçinin BDU-nun Türkiyədən olan tələbələrinin də əksəriyyəti məhz psixologiya ixtisasına meyl göstərirlər. Rektor sosial elmlər sahəsində əməkdaşlığın hər iki universitetin inkişafına fayda verəcəyinə əminliyini bildirib.

Ankara Sosial Elmlər Universitetinin rektoru Musa Kazım Arıcan rəhbərlik etdiyi ali təhsil müəssisəsinin Türkiyənin sosial elmlər üzrə ilk dövlət universiteti olduğunu deyib. Ankara Sosial Elmlər Universitetinin türkdilli ölkələrin, o cümlədən Azərbaycanın ali məktəbləri ilə əməkdaşlığa maraq göstərdiyini diqqətə çatdırıb.

Daha sonra BDU və Türkiyənin Ankara Sosial Elmlər Universiteti arasında anlaşma memorandumu və “Erasmus+ K171” mübadilə müqaviləsi imzalanıb.



Memorandumu BDU-nun rektoru Elçin Babayev və Ankara Sosial Elmlər Universitetinin rektoru Musa Kazım Arıcan imzalayıb.

Memorandum təhsil və tədqiqat sahəsində hər iki universitet arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi məqsədini daşıyır. Memoranduma əsasən, tərəflər qarşılıqlı maraq doğuran tədqiqat, təhsil və tədris proqramları sahəsində əməkdaşlıq edəcəklər. Memorandumda tələbələrin, akademik və inzibati heyətin qarşılıqlı mübadiləsi, birgə seminar, tədris proqramlarının təşkili, ortaq elmi-tədqiqat və inkişaf layihələrinin həyata keçirilməsi, nəşrlərin və digər müvafiq materialların mübadiləsi öz əksini tapıb.

# BDU “Erasmus+ DIRNA” layihəsinin ilk görüşündə iştirak edib

***Oktyabrın 11-də BDU-nun Elmi Kitabxanası Avropa İttifaqının “Erasmus+KA2” proqramının “Azərbaycanda institusional repozitoriyalar şəbəkəsi vasitəsilə tədqiqat potensialının inkişafı” (DIRNA) adlı layihəsinin Xəzər Universitetində keçirilən ilk idarəedici görüşündə iştirak edib.***

Üç il davam edəcək layihənin məqsədi tərəfdaş ölkələrin – Türkiyə, İtaliya və Finlandiyanın təcrübəsi əsasında Azərbaycanın layihədə iştirak edən ali təhsil müəssisələrində hamıya əlçatan institusional repozitoriyalar (elektron arxivlər) şəbəkəsinin yaradılması və tədqiqat nəticələrinin idarə edilməsində universitetlərin tədqiqat potensialının artırılmasıdır.

Tədbirin rəsmi açılış hissəsində Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlı, universitetin rektoru İradə Xəlilova və Azərbaycan Milli ERASMUS+ ofisinin direktoru Pərviz Bağırov çıxış ediblər. Avropa Komissiyasının layihə koordinatoru Rosalba Nardelli görüşə onlayn qoşulub və tərəfdaş universitetlərə uğurlar diləyib.

Görüşdə layihənin qalibi olan tərəfdaş universitetlərin - Bakı Dövlət Universiteti, Jyvaskyla Universiteti (Finlandiya), İzmir Yüksək Texnologiya İnstitutu (Türkiyə), Universita degli Studi dell’Aquila (İtaliya), Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Gömrük Akademiyası, Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti, Lənkəran Dövlət Universitetinin nümayəndələri təqdimatla çıxış ediblər.

İki günlük görüş müddətində layihə çərçivəsində nəzərdə tutulmuş işlərin planı, maliyyə məsələləri, hər bir tərəfdaş universitetin layihədəki rolu və cavabdeh olduğu işlər, potensial risk və onların həll olunması yolları müzakirə olunub.

# BDU Azərbaycanda “Times Higher Education Subject” reytinq siyahısında yer alan yeganə ali təhsil müəssisəsidir

*Məlumat üçün bildirək ki, nüfuzlu “Times Higher Education” təşkilatının əsas fəaliyyət istiqamətlərindən biri dünyanın ali təhsil müəssisələrinin və ixtisaslarının reytinqini tərtib etmək, universitetlərin reytinqinin yüksəlməsi üçün tövsiyələr verməkdir.*

***“Times Higher Education” (THE) 2024-cü il üçün ixtisaslar üzrə ali təhsil müəssisələrinin reytinq siyahısını açıqlayıb. BDU Fiziki elmlər (Fizika, Kimya, Geologiya, Astronomiya, Riyaziyyat və s.) və Mühəndislik elmləri (Kimya mühəndisliyi, Geologiya mühəndisliyi, Hidrogeologiya mühəndisliyi, Geofizika mühəndisliyi və s.) üzrə 1001+ mövqelərini tutub.***

Qeyd edək ki, 2023-cü ildə də BDU öncəki illərdə olduğu kimi, Azərbaycanda “Times Higher Education” dünya universitetləri reytinq siyahısında, eləcə də ixtisaslar üzrə reytinq siyahısında yer alan yeganə ali təhsil müəssisəsi idi.

Məlumat üçün bildirək ki, nüfuzlu “Times Higher Education” təşkilatının əsas fəaliyyət istiqamətlərindən biri dünyanın ali təhsil müəssisələrinin və ixtisaslarının reytinqini tərtib etmək, universitetlərin reytinqinin yüksəlməsi üçün tövsiyələr verməkdir. “Times Higher Education” dünya universitetlərinin və ixtisaslarının reytinqi universitetlərin tədris, elmi-tədqiqat, istinad indeksi, beynəlxalq reputasiyası, sənaye gəlirləri və digər meyarları nəzərə alınmaqla həyata keçirilir.

# Azərbaycan şərqşünaslığının görkəmli siması Aida İmanquliyevanın doğum günüdür

***Bu gün görkəmli şərqşünas alim, Azərbaycan şərqşünaslığında ilk qadın elmlər doktoru, professor Aida İmanquliyevanın doğum günüdür.***

Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakıda ziyalı ailəsində anadan olub. 1957-ci ildə Bakı şəhərindəki 132 nömrəli orta məktəbi qızıl medalla bitirib və Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsinə qəbul olunub. 1962-ci ildə universiteti bitirəndən sonra bu təhsil müəssisəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspirantı olub, həmçinin keçmiş SSRİ EA Asiya Xalqları İnstitutunun aspiranturasında təhsil alıb. 1966-cı ildə namizədlik dissertasiyasını müdafiə edən Aida İmanquliyeva Azərbaycan EA Şərqşünaslıq İnstitutunda əmək fəaliyyətinə başlayıb. O, istedadı, zəhmətsevərliyi sayəsində kiçik elmi işçidən şöbə müdiri, elmi işlər üzrə direktor müavini və İnstitutun direktoru vəzifəsinədək yüksəlib.

Ömrünü Şərq mədəniyyətini və məhcər ədəbiyyatını öyrənməyə sərf edən Aida xanım



İmanquliyeva müasir ərəb ədəbiyyatının tədqiqində yeni səhifə açıb, öz fundamental araşdırmaları ilə təkcə Azərbaycan şərqşünaslığını deyil, dünya şərqşünaslığını da zənginləşdirib və inkişaf etdirib. 1989-cu ildə Aida İmanquliyeva Tbilisi şəhərində doktorluq dissertasiyası müdafiə edib və çox keçmədən bu ixtisas üzrə professor adı alıb.

Üç fundamental monoqrafiyanın - "Mixail Nüaymə və "Qələmlər birliyi", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatı korifeyləri" və 70-dən çox elmi məqalənin müəllifi Aida İmanquliyeva, həmçinin Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru idi. Azərbaycan EA Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən "Asiya və Afrika ölkələri xalqları ədəbiyyatları" ixtisası üzrə müdafiə şurasının sədri olub. Azərbaycan şərqşünaslıq elmini keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda layiqincə təmsil edib.

Aida İmanquliyeva elmi-təşkilati fəaliyyətində yüksəkixtisaslı ərəbşünas kadrların hazırlanmasına da böyük diqqət yetirirdi.

Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü olan Aida İmanquliyeva uzun illər səmərəli pedaqoji fəaliyyət göstərib, Bakı Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirələr oxuyub.

Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Onun çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, bütövlükdə müasir Şərq ədəbiyyatlarının həmin aspektdə tədqiqi üçün mühüm zəmin yaradır.

Bir alim kimi Aida İmanquliyevanın maraq dairəsi geniş və çoxşaxəli idi. Amma onun elmi araşdırmalarının əsas tədqiqat obyekti ərəb məhcər ədəbiyyatı olub. Aida xanımın ərəb məhcər ədəbiyyatının beynəlxalq miqyasda ən sanballı tədqiqatçısı olduğunu keçmiş sovet ərəbşünasları, hətta Avropa şərqşünasları etiraf edirlər.

Aida İmanquliyeva Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının və Yazıçılar Birliyinin üzvü olub.

Bütün elmi fəaliyyətini Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapmasının tədqiqinə həsr edən Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə və yeni bir yol açıb. Onun bu gün də aktuallığını qoruyub saxlayan əsərləri, monoqrafiyaları ərəb ədəbiyyatını araşdıran gənc alimlər üçün əsas istinad qaynağıdır. Aida İmanquliyevanın işıqlı xatirəsi ürəklərdə daim yaşayacaq!

# Akademik Vasim Məmmədəliyevin anım günüdür

***13 oktyabr Azərbaycanın görkəmli şərqşünas və islamşünas alimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Vasim Məmmədəli oğlu Məmmədəliyevin anım günüdür.***

Akademik Vasim Məmmədəliyev 1942-ci il avqustun 27-də Bakı şəhərində anadan olub. 1949-1959-cu illərdə Bakıda 113 saylı orta məktəbdə təhsil alıb. Orta məktəbi bitirdikdən sonrakı həyat və fəaliyyətinin əsas hissəsi Bakı Dövlət Universiteti (BDU) ilə bağlı olub. Orta məktəbi bitirdikdən sonra o, 1959–1964-cü illərdə BDU-nun Şərqşünaslıq fakültəsində ali təhsil alıb, 1964-cü ildə universitetin əyani aspiranturasına daxil olub və Tbilisiyə ezam edilərək 1967-ci ildə orada aspiranturanı bitirib. Əmək fəaliyyətinə 1968-ci ildən etibarən BDU-da başlayan Vasim Məmmədəliyev 1981–1991-ci illərdə burada Şərqşünaslıq fakültəsinin dekanı, 1991–1992-ci illərdə Universitetin humanitar fakültələr üzrə prorektoru, 1993–2018-ci illərdə İlahiyyat fakültəsinin dekanı vəzifələrində çalışıb, 1991-ci ildən ömrünün sonunadək ərəb filologiyası kafedrasına rəhbərlik edib.

Vasim Məmmədəliyev 1968-ci ildə namizədlik, 1974-cü ildə doktorluq dissertasiyalarını müdafiə edib və 1979-cu ildə professor elmi adını alıb. O, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2007-ci ildə isə həqiqi üzvü seçilib.

Vasim Məmmədəliyev zəngin elmi və pedaqoji fəaliyyəti ilə uzun illər ərzində Azərbaycan elmi və təh-



silinə dəyərli töhfələr verib. Respublikada şərqşünaslıq elminin müasir tələblər səviyyəsinə yüksəldilməsində onun müstəsna xidmətləri var. Alimin ərəb dilçiliyinin aktual problemlərinin sistemli öyrənilməsinə həsr olunan və qədim mənbələrə istinadla ərəb dilçilik elminin əsas inkişaf yollarını dolğun işıqlandıran fundamental tədqiqatları dünya şərqşünaslığına töhfə kimi qəbul edilib. Yeni mülahizələrlə zəngin həmin araşdırmalarında alim, eyni zamanda, Azərbaycanda dilçilik ənənəsinin çoxəsrlik tarixə malik olduğunu xüsusi vurğulayıb.

Geniş erudisiyalı alim Vasim Məmmədəliyev, həmçinin Şərq filologiyası və poeziyasının, İslam tarixi və fəlsəfəsinin ayrı-ayrı sahələrinə dair əsərlərin müəllifi kimi tanınıb. "Qurani-Kərim"in Azərbaycan dilinə tərcüməçilərindən biri olaraq onun ölkəmizdə ilahiyyatın və islamşünaslığın yenidən dirçəlməsində özünəməxsus xidmətləri var.

Vasim Məmmədəliyev elmi yaradıcılığını pedaqoji fəaliyyəti ilə ahəngdar surətdə uzlaşdırıb, yarım əsrlik bir dövr ərzində BDU-da yüksəkixtisaslı kadrların hazırlanması üçün bilik və bacarığını əsirgəmədən böyük qüvvə sərf edib. Keçmiş Sovetlər Birliyində Azərbaycanın ərəbşünaslığın ən qabaqcıl mərkəzlərindən birinə çevrilməsində mühüm əməyi olan alimin çoxsaylı yetirmələri Azərbaycanda və onun hüdudlarından kənarda ölkəmizi daim uğurla təmsil ediblər.

Vasim Məmmədəliyevin elmi axtarışlarının nəticələri 30-dan artıq kitabda və 600-ə yaxın elmi, publisistik məqalədə əksini tapıb. Onun rəhbərliyi ilə 50-dən çox fəlsəfə və elmlər doktorları hazırlanıb. Alimin dünyanın müxtəlif ölkələrində beynəlxalq simpozium, konfrans və forumlardakı çıxışları elmi dairələr tərəfindən rəğbətlə qarşılanıb. Ərəb dilçiliyi və ilahiyyatla bağlı çoxsaylı sanballı tədqiqatları layiqincə dəyərləndirilən şərqşünas bir sıra ölkələrin mötəbər akademik elmi qurumlarına üzv seçilib.

Akademik Vasim Məmmədəliyevin uzunmüddətli səmərəli fəaliyyəti lazımınca qiymətləndirilib. O, elmin və təhsilin inkişafında xidmətlərinə görə müstəqil Azərbaycan Respublikasının ali dövlət təltiflərindən olan "Şöhrət" və "Şərəf" ordenlərinə layiq görülüb.

Vasim Məmmədəliyev 2019-cu il oktyabrın 13-də ömrünün 78-ci ilində vəfat edib.

Görkəmli alim və pedaqoq, əsl ziyalı və səmimi insan Vasim Məmmədəli oğlu Məmmədəliyevin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaq.

# TGT üzvləri Akademik Yusif Məmmədəliyevin Memorial Muzeyində

***Oktyabrın 13-də BDU-nun Tələbə Gənclər Təşkilatının Kimya fakültəsi üzrə üzvləri Akademik Yusif Məmmədəliyevin Memorial Muzeyinə ziyarət ediblər.***

Muzeyin direktoru Reyhan Əliyeva görkəmli alimin şərəfli həyat yolu, gənc nəslin yetişməsində rolu, qiymətli elmi kəşfləri haqqında tələbələrə ətraflı məlumat verib. Bildirib ki, Yusif Məmmədəliyev irsini öyrənmək hər bir kimyaçının mənəvi borcudur.

Muzey Y. H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun nəzdində fəaliyyət göstərir. Muzeydə görkəmli kimyaçı alimin həyatını, elmi fəaliyyətini əks etdirən fotosənədlər, diplomlar, müxtəlif rəsmi sənədlər, elmi kəşflərinə dair sxemlər nümayiş etdirilir.

Tələbələr muzeydəki eksponatlarla tanış olublar. Sonda Yusif Məmmədəliyevin 100 illik yubileyinə həsr olunmuş, onun həyat və yaradıcılığını əks etdirən qısametrajlı filmin diski tələbələrə hədiyyə edilib.

# BDU-da "Müstəqilliyimiz əbədidir" adlı kitab sərgisi təşkil olunub

***Oktyabrın 18-də BDU-nun Elmi Kitabxanasında dövlət müstəqilliyimizin bərpasının 32-ci ildönümü münasibətilə "Müstəqilliyimiz əbədidir" adlı kitab sərgisi təşkil olunub.***

Sərgidə müstəqilliyimizin tarixini özündə əks etdirən nəşrlər, Azərbaycanı dünyaya tanıdan Ümummilli Lider Heydər Əliyevin müstəqilliyimiz uğrunda əvəzsiz xidmətlərindən, Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdəki fəaliyyətindən bəhs edən 50-yə yaxın kitab nümayiş olunur. Sərgilənən kitablar arasında Bakı Dövlət Universitetinin 2021-ci il nəşri olan "Azərbaycan Respublikasının tarixi" adlı 2 cildli kitab oxucuların böyük marağına səbəb olub.

Sərgi həftənin sonuna qədər ziyarətçilərin üzünə açıq olacaq.

# BDU-da Cəbrayıl Şəhəri Günü



***Oktyabrın 4-də Filologiya və Kimya fakültələrinin Tələbə Gənclər təşkilatlarının birgə təşəbbüsü ilə 4 oktyabr - Cəbrayıl Şəhəri Gününə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Kimya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Taleh Qəhrəmanov bildirib ki, bu əlamətdar günün təsis olunması Cəbrayıl şəhərinin Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsi tarixi ilə bağlıdır. 44 günlük Vətən müharibəsində xalqımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək birlik və fədakarlıq göstərdi, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı, canı bahasına azad edildi. 2020-ci ilin oktyabrın 4-də Cəbrayıl şəhəri ilə yanaşı, rayonun daha 9 kəndi - Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan və Dəjəl düşmən işğalından azad olundu.

Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov qədim mədəniyyət mərkəzlərindən biri kimi Cəbrayılın tarixindən, ermənilər tərəfindən vəhşicəsinə dağıdılmasından söz açıb, bu qədim yurddan çıxmış görkəmli alimlərin elm və təhsilimizin inkişafına verdiyi töhfələrdən danışıb.

Kimya fakültəsinin dosenti Elgün Abdullayeva Prezident İlham Əliyevin rəhbərliyi altında Qarabağda aparılan quruculuq işləri, "Böyük qayıdış"ın xalqımızın tarixindəki əvəzsiz yeri barədə məlumat verib.

Kimya və Filologiya fakültələrinin tələbələri Aidə Kərimova və Validə Bayramlı vətənpərvərlik şeirləri səsləndirib, daha sonra Cəbrayıl rayonu haqqında videoçarx nümayiş olunub.

# İnformasiya və sənəd menecmenti fakültəsində Cəbrayıl Şəhəri Günü qeyd edilib

***Oktyabrın 5-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə 4 oktyabr - Cəbrayıl Şəhəri Günü münasibətilə tədbir keçirilib. Professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb.***

Tədbirin moderatoru – İnformasiya və sənəd menecmenti fakültəsinin Tələbə Gənclər Təşkilatının sədri Fidan Əliyeva Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" 31 iyul 2023-cü il tarixli Sərəncamının əhəmiyyətindən bəhs edib, şəhər günlərinin təsis olunmasının qalib xalqımızda yüksək əhvalruhiyyə, gələcəyə daha böyük inam yaratdığını bildirib: "44 günlük Vətən müharibəsində ilk şəhərin - Cəbrayıl şəhərinin azad edilməsi hərbi əməliyyatlarda dönüş nöqtəsi və yeni mərhələnin başlanğıcı oldu".

Sonra Redaksiya-nəşriyyat işi kafedrasının müdiri, Birinci Qarabağ müharibəsinin veteranı Knyaz Aslan, Sənəd menecmenti kafedrasının müdiri Nadir İsmayılov, fakültənin əslən Cəbrayıldan olan tələbəsi Amil Səmədov çıxış ediblər. Qeyd olunub ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazandığımız Zəfər xalqımızın tarixinin ən parlaq səhifəsidir. Çıxış edənlər Qarabağda aparılan son antiterror əməliyyatları nəticəsində dövlətimizin suverenliyinin tam bərpa olunmasının qürurunu yaşadığımız günlərdə Cəbrayıl Şəhəri Gününün qeyd edilməsinin xüsusilə böyük əhəmiyyətə malik olduğunu vurğulayıblar.

Tədbir fakültə tələbələrinin hazırladığı bədii hissə ilə yekunlaşıb.

# BDU-da "44 günlük Vətən müharibəsi: Dəmir yumruq və tarixi zəfər" adlı tədbir

***Oktyabrın 9-da Tarix və Geologiya fakültələrinin birgə təşkilatçılığı ilə "44 günlük Vətən müharibəsi: Dəmir yumruq və tarixi zəfər" adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov 44 günlük Vətən müharibəsinin tariximizin ən şanlı səhifəsi olduğunu və yaddaşlardan heç vaxt silinməyəcəyini qeyd edib. Bildirib ki, şanlı Zəfər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun şücaəti, xalqımızın birliyi nəticəsində qazanılıb. Bu qələbəni özündə ehtiva edən şanlı Zəfər Günü hər bir azərbaycanlı üçün qürur və iftixar günüdür.

Geologiya fakültəsinin dekanı, dosent Mamoy Mansurov Vətən müharibəsinin tarixi əhəmiyyəti, regionda yaranan reallıqlar barədə tələbələri məlumatlandırıb. O, yeniyetmələrin və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin Vətən müharibəsində qələbəmizi şərtləndirən əsas amillərdən biri olduğunu diqqətə çatdırıb.

Daha sonra Geologiya fakültəsinin Faydalı qazıntılar kafedrasının müəllimi Ruslan Şəmiyev, qazi Musa Abbasov, Tarix fakültəsinin tələbələri Səbinə Abdullayeva, Nəbi Hüseynov və Geologiya fakültəsinin IV kurs tələbəsi Nigar Niftullayeva çıxışlarında ölkəmizin ərazi bütövlüyünün təmin edilməsinin əhəmiyyətindən, azad edilən torpaqlarımızda aparılan quruculuq işlərindən danışıblar.

Sonda Vətən müharibəsində tarixi Zəfərə həsr olunmuş videoçarx nümayiş etdirilib.

# Şəhid məzun Manaf Bəhmənlinin məzarı ziyarət olunub



***Oktyabrın 4-də Mexanika-riyaziyyat fakültəsinin tələbə təşkilatlarının üzvləri fakültənin şəhid məzunu Manaf Bəhmənlinin məzarını ziyarət ediblər. Tələbələr şəhid məzunun məzarı önünə gül dəstələri düzüb, ruhuna dualar ediblər.***

Şəhid Manaf Bəhmənlinin xatirəsi ehtiramla yad edilib, Universitetdə oxuduğu illərdə hər zaman ictimai fəallığı, yardımsevərliyi ilə seçildiyi, 44 günlük Vətən müharibəsində qəhrəmancasına döyüşərək sentyabrın 27-də şəhidlik zirvəsinə yüksəldiyi qeyd olunub. Bildirilib ki, diqqətcil, gülərüz, vətənpərvər bir igid kimi tanınan Manaf Bəhmənlinin əziz xatirəsi yaddaşlardan silinməyəcək.

Allah şəhidlərimizə rəhmət eləsin!

# BDU-nun şəhid məzunu Ceyhun Şalıyevin xatirəsinə həsr olunmuş Hüquq olimpiadası keçirilib



***Oktyabrın 9-da Hüquq fakültəsinin Tələbə Gənclər Təşkilatı tərəfindən "Heydər Əliyev İli" çərçivəsində fakültənin şəhid məzunu Ceyhun Şalıyevin xatirəsinə həsr olunmuş Hüquq olimpiadası keçirilib.***

Olimpiadanın I mərhələsində iştirakçılara hər fəndən 5 sual olmaqla (Hüquq nəzəriyyəsi, Konstitusiya hüququ, İnzibati hüquq, Mülki hüquq, Cinayət hüququ) ümumilikdə 25 sual təqdim edilib. I mərhələni yüksək bal ilə başa vuran tələbələr II mərhələyə vəsiqə qazanıb.

# Vüqar Məmmədovun məzarı ziyarət olunub

***Oktyabrın 11-də Şərqşünaslıq fakültəsinin əməkdaşları Aprel döyüşlərinin iştirakçısı və Vətən müharibəsi şəhidi Vüqar Məmmədovun məzarını ziyarət ediblər.*** Ziyarətdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Şərşünaslıq fakültəsinin dekan müavinləri Nigar İsmayılzadə və Şahin Yusifli, tələbələr Aysu Əmrahova, Qasım Qasımov, Güləmməd Məmmədov iştirak ediblər. Fakültə əməkdaşları şəhidin məzarının önünə gül dəstələri qoyublar. Daha sonra şəhidin ailəsi ziyarət olunub.

Qeyd edək ki, Vüqar Məmmədov 2011–2015-ci illərdə BDU-nun İlahiyyat fakültəsində təhsil alıb. Sonra Azərbaycan Silahlı Qüvvələrində həqiqi hərbi xidmətdə olub.

Vüqar Məmmədov 2020-ci il sentyabrın 27-də başlanmış Vətən müharibəsində iştirak edib, torpaqlarımızın azad olunması uğrunda düşmənə qarşı gedən döyüşlərdə fədakarlıq və igidlik nümunəsi göstərib. O, Füzulinin azad olunması uğrunda gedən şiddətli döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.



# Qərbi Azərbaycanın tarixinin öyrənilməsi, tədrisi və təbliğinə dair elmi seminar

***Oktyabrın 12-də Tarix fakültəsinin və Qərbi Azərbaycan İcmasının "Qərbi Azərbaycan: Yurd yerimizə sahib çıxaq" adlı birgə layihəsi çərçivəsində "Qərbi Azərbaycanın tarixinin öyrənilməsi, tədrisi və təbliğinin müasir tələblər səviyyəsinə qaldırılması sahəsində qarşıda duran əsas vəzifələr" mövzusunda elmi seminar keçirilib.***



Elmi seminarın moderatoru, Tarix fakültəsinin dekanı İbrahim Zeynalov tədbirin əhəmiyyətinə toxunub, Qərbi Azərbaycana qayıdışın milli hədəflərimizdən olduğunu, bu sahədə alimlərin üzərinə böyük missiya düşdüyünü bildirib.

Tədbiri giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı qələbədən sonra regionda yeni reallıqlar yarandı: "Qarabağın düşmən tapdağından azad edilməsi xalqımızı tarixi torpaqlarına daha da yaxınlaşdırır. Hazırda Azərbaycan dövləti öz gücünü, qüdrətini bütün dünyaya göstərir, müzəffər xalq kimi qayıtdığımız ata-baba torpaqlarımızda əbədi yaşayacağımız Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qətiyyətlə bəyan olunur. Böyük Qayıdış layihəsi mərhələlərlə icra olunur, tarixi torpaqlarımız olan İrəvana, Göyçəyə, Zəngəzura qayıdacağımız inamla ifadə edilir. Bu mənada Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Qərbi Azərbaycan İcmasının bir qrup üzvü ilə ötən ilin dekabrında keçirdiyi görüşdə səsləndirdiyi fikirlər strateji məqsədlərimizə çatmaq üçün konseptual və proqram xarakterli olmaqla, əslində Qərbi Azərbaycana qayıdışımızın yol xəritəsidir. Həmin görüşdə Prezidentimizin səsləndirdiyi fikirlər tarixi faktların üzərinə bir daha işıq saldı, mövcud reallıqları əks etdirdi, həm də gələcək hədəflərimizdən xəbər verdi. Azərbaycan Prezidentinin tapşırığı ilə Qərbi Azərbaycana Qayıdış Konsepsiyası hazırlandı".

Rektor bildirib ki, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi dönəmində Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının hazırlanması və müzakirələri, İcmanın dünyada tanıdılması istiqamətində görülən işlər həm də rəmzi məna daşıyır. Müstəqillik tariximizin yaradıcısı Ulu Öndər hələ 1997-ci ildə "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi ata-baba torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərman imzalayıb, hadisələrə deportasiya və soyqırım cinayəti kimi qiymət verib, müvafiq dövlət komissiyası yaradıb və özü şəxsən ona rəhbərlik edib. Sonrakı mərhələlərdə isə Ulu Öndərin siyasətini davam etdirən Prezident İlham Əliyev də İrəvanın və digər ərazilərimizin ermənilərə verilməsi ilə heç zaman barışmayıb, bu məsələni həmişə diqqətdə saxlayıb. Heç də təsadüfi deyil ki, Vətən müharibəsində qələbədən bir müddət sonra qarşıya qoyulan növbəti məqsəd Qərbi Azərbaycana Qayıdış Konsepsiyası oldu. Yaşadığımız bu tarixi günlərdə Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan silahlı qüvvələri cəmi bir gün ərzində lokal antiterror tədbirləri həyata keçirərək Azərbaycanın suverenliyini Qarabağ iqtisadi zonasında da tam təmin etmiş oldu. Artıq Azərbaycan dövləti orada yaşayan ermənilərin Azərbaycana reinteqrasiyası ilə bağlı öz planlarını təqdim edib. Məhz belə bir tarixi şəraitdə Qərbi azərbaycanlıların da tarixi vətənimizə qayıdışı və reinteqrasiyası xüsusi aktuallıq kəsb edir.

BDU-nun Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, akademik Yaqub Mahmudov vurğulayıb ki, Azərbaycanın indiki hüquqi və siyasi sərhədlərindən kənarda qalan İrəvanda, Göyçədə, Zəngəzurda, Dərələyəzdə min illər boyu yaşayan ata-babalarımız zəngin maddi və mənəvi mədəniyyət nümunələri yaradıblar. Alim Qərbi Azərbaycanla bağlı sistemli araşdırmalar aparmağın zəruriliyini vurğulayıb.

Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili Əziz Ələkbərov bildirib ki, Qərbi Azərbaycan ərazisində tarixi-mədəni abidələrimizin, toponimlərimizin, xalqımızın folklor nümunələrinin öyrənilməsi və təbliği hər bir azərbaycanlının borcudur. Suveren tarixi ərazilərimizin işğaldan azad edilməsi ilə Azərbaycanın həmin ərazilərdəki hüquqları bərpa olunub. Bu gün qarşıda duran əsas məqsədlərdən biri öz doğma yurdlarından qovulmuş Qərbi azərbaycanlıların taleyinə aydınlıq gətirilməsidir. Əziz Ələkbərov qeyd edib ki, Qərbi Azərbaycan ərazilərində xeyli sayda mədəni, tarixi abidələrimiz zərər çəkib. BDU-nun tarixçi alimləri Qərbi Azərbaycan İcmasının üzvlərindən tarixi məlumatları toplayıb çoxcildli araşdırmalar nəşr edə bilərlər.

Daha sonra AMEA-nın Tarix İnstitutunun Qərbi Azərbaycan şöbəsinin müdiri, dosent Cəbi Bəhramov Qərbi Azərbaycanla bağlı arxiv sənədlərinin və xəritələrin üzə çıxarılmasından bəhs edib.

# "Qərbi Azərbaycanın tarixi arxiv sənədlərində"

***Oktyabrın 11-də İnformasiya və sənəd menecmenti fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə "Qərbi Azərbaycanın tarixi arxiv sənədlərində" mövzusunda elmi seminar keçirilib.***

Elmi seminarda BDU-nun Sənəd menecmenti kafedrasının müdiri, dosent Nadir İsmayılov mövzu ilə bağlı məruzə edib. Nadir İsmayılov bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərlə bitən 44 günlük Vətən müharibəsindən sonra Qarabağa və Şərqi Zəngəzura böyük qayıdış başlayıb. O vurğulayıb ki, bütün bunlar tarixi torpaqlarımız olan Qərbi Azərbaycana qayıdışı da şərtləndirir. Ona görə də bu mövzuda daha geniş araşdırmalar aparılmalı, elmi-tədqiqat işləri yazılmalıdır.

Məruzəçi bildirib ki, mövzunun öyrənilməsində müxtəlif qaynaqlardan, o cümlədən, yerli, türk, rus, gürcü qaynaqlarından istifadə olunub. Tədqiqatda tarixən Azərbaycan türklərinin yaşadığı Qərbi Azərbaycanın mahalları, həmçinin İrəvan xanlığı haqqında mövcud mənbələr diqqətə çatdırılıb, bölgənin tarixi, ərazisi, əhalisi, etnoqrafiyası, mədəniyyət abidələri ilə bağlı arxiv sənədləri, kitablar, qəzet və jurnal materialları, məcmuələr, həmçinin internet resursları təqdim olunub.

Məruzəçi çıxışını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə səsləndirdiyi fikirlərlə yekunlaşdırıb: "Bir daha onu da bildirməliyəm ki, bu yer icma üçün təsadüfən seçilmədi, rəmzi mənası var. Bu binada yerləşmiş qarabağlılar artıq Qarabağa ya qayıdıblar, ya da qayıtmağa hazırlaşırlar. Burada yerləşən Qərbi azərbaycanlılar da qayıdacaqlar, İnşallah".

Elmi seminar iştirakçıların böyük marağına səbəb olub, məruzə ətrafında geniş müzakirələr aparılıb.

# BDU və Qərbi Azərbaycan İcması birgə fəaliyyət planı hazırlayacaq

***BDU və Qərbi Azərbaycan İcması Qərbi Azərbaycanla bağlı tədqiqatların aparılması məqsədilə birgə fəaliyyət planı hazırlayacaq.***

Fəaliyyət planı çərçivəsində BDU-nun bütün fakültələri Qərbi Azərbaycanla bağlı araşdırma və tədqiqatlara cəlb olunacaq, birgə beynəlxalq konfrans, elmi seminar və konfranslar keçiriləcək.

Həmçinin BDU-nun Tarix fakültəsinin nəzdində Qərbi Azərbaycan tarixinə dair Elmi-Tədqiqat Mərkəzinin yaradılması, bu istiqamətdə sistemli elmi işlərin və tədqiqatların aparılması nəzərdə tutulur.

BDU-nun bakalavriat, magistratura səviyyələri üzrə təhsil proqramlarına da Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, folkloru, dialekt və şivələri, toponimləri, İrəvan Müəllimlər Seminariyası ilə bağlı dərslərin, seçmə fənlərin daxil edilməsi planlaşdırılır.

# "Qərbi Azərbaycanın numizmatikası"

***Oktyabrın 18-də Tarix fakültəsinin Arxeologiya və etnoqrafiya kafedrasında "Qərbi Azərbaycanın numizmatikası" mövzusunda elmi seminar keçirilib.***

Tarix fakültəsinin dekan müavini Kəmalə Nəcəfova ölkəmizin regionda yaratdığı yeni reallıqlar əsasında Qərbi Azərbaycanla bağlı atılan addımların oradan deportasiya edilmiş soydaşlarımızın hüquqlarının bərpa edilməsinə hesablandığını qeyd edib. Əlavə edib ki, dünya ictimaiyyətinə tarixi həqiqətlərin çatdırılması və Qərbi Azərbaycan torpaqlarının Azərbaycana mənsub olduğunu göstərən faktları üzə çıxarmaq Tarix fakültəsinin qarşısında duran önəmli məsələlərdəndir.

Elmi seminarda Arxeologiya və etnoqrafiya kafedrasının dosenti Qənirə Pirquliyeva numizmatik materiallar əsasında Qərbi Azərbaycan ərazisinin ən qədim zamanlardan məhz Azərbaycan türklərinə aid olmasını sübut edən tarixi faktlar barədə məlumat verib. Bildirib ki, Ermənistan adlı dövlət XX əsrdə süni şəkildə yaradılıb və tarixin heç bir dönəmində burada ermənilərə aid sikkələr aşkar edilməyib. XIII-XIV əsrdən etibarən buranın siyasi inzibati paytaxtı statusunu daşıyan İrəvan şəhərində rəsmi zərbxana işləyib, buraxılan sikkələr bütövlükdə Hülakilər zamanında rəsmi tədavüldə istifadə edilib, sonrakı yüzilliklərdə də fasiləsiz olaraq davam etdirilib. 1825-1828-ci illərə qədər cürbəcür dəyərli metallardan hazırlanan nominallar buraxılıb, yerli hakim sinfin ən tanınmış nümayəndələrindən olan əfşarlar və qacarlar hər zaman bu diyara xüsusi önəm verib. 200 ildən artıq bir zamanda Qərbi Azərbaycanda tapılan numizmatik materiallarda ermənilərə aid dini əlamət - xaç işarəsi, yaxud yazının olmaması bir daha bu etnosun Cənubi Qafqaza gəlmə olduğunu, burada heç bir dövlətçilik atributunun olmadığını sübut edən önəmli faktlardır.

Elmi seminarda Qərbi Azərbaycanla bağlı elmi tədqiqatlar içərisində tarix elminin digər sahələri ilə yanaşı, numizmatika elminin son araşdırmalarının əhəmiyyəti geniş müzakirə olunub.

# BDU Avrasiya Universitetlər Birliyinin görüşündə təmsil olunub

***BDU Avrasiya Universitetlər Birliyinin (Eurasian Universities Union - EURAS) onlayn görüşündə təmsil olunub.***

Görüşdə rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov iştirak edib. Onlayn görüşdə EURAS, Avrasiya Ali Təhsil Sammiti (Eurasia Higher Education Summit -EURIE) və Beynəlxalq Universitetlər Assosiasiyasının (International Association of Universities - IAU) prezidenti, professor Mustafa Aydın açılış nitqi ilə çıxış edib. Daha sonra isə İndoneziya, Estoniya və Türkiyədən olan mütəxəssislər çalışdıqları ali təhsil müəssisələrində tətbiq olunan qısamüddətli təhsil proqramlarına dair ən yaxşı təcrübələr haqqında geniş məlumat veriblər. Qeyd edək ki, 2008-ci ildə fəaliyyətə başlayan EURAS Avrasiyada yerləşən universitetləri əhatə edən qeyri-kommersiya təşkilatıdır. Bakı Dövlət Universiteti EURAS-ın üzvüdür.

# “Heydər Əliyev və gənclər siyasəti” mövzusunda konfrans

***Oktyabrın 16-da BDU-nun Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə “Heydər Əliyev İli” çərçivəsində “Heydər Əliyev və gənclər siyasəti” adlı konfrans keçirilib.***

Konfransda açılış nitqi ilə çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Ulu Öndər Heydər Əliyev tərəfindən ölkəmizdə əsası qoyulan gənclər siyasətinin uğurla davam etdirilməsi, gənclərə daim xüsusi diqqət və qayğı göstərilməsi, bu sahədə dövlət qurumlarının yaradılması, qanunvericilik bazasının formalaşdırılması barədə tarixi faktları iştirakçıların diqqətinə çatdırıb.



BDU-nun TGT sədri Ələkbər Həsənov isə qeyd edib ki, Ulu Öndər hər zaman müasir dünyagörüşünə malik gənc nəslin yetişməsinə olduqca böyük əhəmiyyət verib. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan gəncliyinə böyük qayğısı təkcə müstəqillik illərində deyil, hələ Sovet dönəmində də aşkar müşahidə olunurdu. Ötən əsrin 70-ci illərində məhz Ümummilli Liderin təşəbbüsü və gərgin səyləri nəticəsində on beş mindən artıq azərbaycanlı gənc keçmiş SSRİ-nin 170-dən çox təhsil müəssisəsində ali təhsil alıb. Bu addım Azərbaycanda ən müxtəlif sahələr üzrə peşəkar kadr bazasının formalaşmasına xidmət edib. Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində də digər sahələrin inkişafı ilə yanaşı, gənclərin üzləşdikləri problemlərin həlli Ulu Öndər üçün prioritet təşkil edib.

Konfransda müxtəlif universitetlərdən olan tələbələr “Heydər Əliyev və gənclər siyasəti” mövzusunda ingilis dilində məruzələrlə çıxış ediblər. Çıxışlarda müstəqil Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyevin gənclərə olan diqqət və qayğısı, əsasını qoyduğu dövlət gənclər siyasətinin mühüm aspektləri, ölkəmizdə aparılan kadr hazırlığı və təşkilatlanma haqqında məlumat verilib.

Sonda konfransın işində fərqlənən gənclərə sertifikatlar təqdim olunub.

# Məmməd Arazın 90 illik yubileyi qeyd olunub

***Oktyabrın 16-da Filologiya fakültəsində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, “İstiqlal” ordenli, Xalq şairi Məmməd Arazın 90 illiyinə həsr olunmuş ədəbi-bədii tədbir keçirilib.***

Tədbirin moderatoru – BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu milli istiqlal şairlərimizdən biri kimi müasir ədəbi fikrin və milli azadlıq ideyalarının formalaşmasında Məmməd Arazın müstəsna xidmətlərdən söz açıb. Natiq bildirib ki, Məmməd Araz Azərbaycan ədəbiyyatında çoxcəhətli və zəngin ədəbi irsinə, sənətkarlıq qüdrətinə görə özünəməxsus yeri və mövqeyi olan görkəmli söz ustadıdır. O, mənalı, keşməkeşli və şərəfli, bütövlükdə



Vətənə və sənətə həsr olunmuş əsl şair-vətəndaş ömrü yaşayıb. Dərin məzmunlu, oxunaqlı və milli məndərəcəli şeirlərilə Məmməd Araz vətəndaş qeyrətli ədəbiyyat nəhəngidir. Onun yaradıcılığının baş qəhrəmanı Azərbaycandır. Ona görə də bu görkəmli şair milli azadlıq ideyalı əsərləri ilə xalqımızın xatirəsində ədəbilik zirvəsinə yüksəlib.

Şimali Kipr Türk Cümhuriyyətinin Lefke Avropa Universitetinin dosenti Nazim Muradov Məmməd Araz yaradıcılığının nəinki Azərbaycan, ümumən türk xalqları ədəbiyyatının mühüm ədəbi-mədəni hadisəsi olduğunu diqqətə çatdırıb, ədibin “Dünya sənin, dünya mənim...” şeirinin dillər əzbərinə çevrilməsini şairin poeziyasının bənzərsiz özəlliklərə malik olması ilə əlaqələndirib. Həmçinin qeyd olunub ki, torpağa bağlılıq, vətəndaşlıq, vətənpərvərlik mövzularına müraciət edən şairin bir çox şeirləri bu gün də öz aktuallığını qoruyub saxlayır.

Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov çağdaş ədəbiyyatımızın görkəmli siması M.Araz yaradıcılığına və şəxsiyyətinə Ümumilli Liderimiz Heydər Əliyevin verdiyi yüksək qiymətdən söz açıb, şairin milli azadlıq ideyalarının bundan sonra da müasir gəncliyə aşılanmasının zəruriliyini vurğulayıb. Bildirib ki, uzun illər azadlıq həsrəti ilə yanan, suverenliyimizin, ərazi bütövlüyümüzün kobud şəkildə pozulduğu illərdə öz xalqı ilə göz yaşı tökən böyük sənətkarın ruhu şaddır. Çünki bu gün Azərbaycan Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi altında “Məmməd Arazın dünyasındakı Azərbaycan”a qovuşub, regionun güclü, lider dövlətinə çevrilib.

Tədbirdə şairin əsərlərindən ibarət kitab sərgisi təşkil edilib, Məmməd Arazın ömür yolu ilə bağlı film nümayiş olunub. Filologiya fakültəsinin tələbələri – Səbinə Sadıqzadə, Nəzrin Aslanlı və Aysu Türkel şairin şeirlərini səsləndiriblər.

# “XXI əsrdə Azərbaycanın ali təhsil sistemi və innovasiyalar” mövzusunda görüş

***Oktyabrın 17-də Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin (ETN) təşəbbüsü, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və BDU birgə təşkilatçılığı, ETN-ə tabe qurumların, ali təhsil müəssisələrinin və elmi-tədqiqat institutlarının rəhbərlərinin iştirakı ilə görüş keçirilib.***

Tədbiri açıq elan edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, qloballaşan dünya ali təhsil sistemində innovasiyaların tətbiqi ilə bağlı yeni yanaşmalar tələb edir. Hər bir ölkənin ictimai, siyasi, iqtisadi, hərbi təhlükəsizliyi üçün milli kadrlara böyük ehtiyac var. Bu baxımdan keçirilən tədbir ali təhsil müəssisələri və elmi-tədqiqat institutları üçün mühüm əhəmiyyət daşıyır.

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Ülkər Səttarova da tədbirin önəminə diqqət çəkərək, ali təhsilin elmsiz mümkün olmadığını vurğulayıb. O, rəhbərlik etdiyi qurumun ölkədə elm və təhsilin daha da inkişaf etdirilməsi və elmin maliyyələşməsinin mexanizmləri üzərində çalışdığını diqqətə çatdırıb.



Tədbirdə fizika-riyaziyyat elmləri doktoru, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, Türkiyənin Bilkənt Universitetinin professoru Əmirulla Məmmədov "XXI əsrdə Azərbaycanın ali təhsil sistemi ve innovasiyalar" mövzusunda məruzə ilə çıxış edib.

Azərbaycanda ali təhsilin bu günü və gələcəyindən bəhs edən natiq bildirib ki, dünyada təhsil həm fərdləri, həm də cəmiyyəti yenidən formalaşdırmaq üçün ən güclü alətlərdən biridir: “Dünyanın harasında yaşamağımızdan asılı olmayaraq, təhsil vacibdir, çünki yeni şeylər öyrənməyimizə, dünyanı daha yaxşı anlamağımıza və gələcəkdə inkişaf imkanımızın yüksəlməsinə kömək edən vasitədir”.

O, dünyada ən yaxşı ali təhsil sisteminə malik ABŞ, Böyük Britaniya, Avstraliya, Kanada, Yeni Zelandiya, İrlandiya və İsveç kimi ölkələrin təcrübələrini bölüşüb. Qeyd edib ki, universitetlərin elmi fəaliyyəti onun nüfuzunun göstəricilərindən biridir. Universitet nə qədər çox tədqiqat apararsa, onun şöhrəti də bir o qədər yüksək olur. Nüfuzlu universitet təkcə büdcə və elmi nəşrlərin sayı kimi obyektiv amillərə görə deyil, kampus həyatı ilə də liderlik əldə etməlidir.

Daha sonra alim dünya təhsil sistemlərindəki təhsil tipləri və müasir universitet modelləri (Almaniya, Böyük Britaniya universitetlərinin timsalında) haqqında fikirlərini dinləyicilərin nəzərinə çatdırıb və Azərbaycanın ali təhsil sisteminin inkişafı üçün təkliflərini səsləndirib. Azərbaycanda 4 fərqli universitet modeli yaratmağı təklif edən alim bildirib ki, ölkədə xüsusi statusu, fərqli büdcəsi və muxtariyyəti olan Dövlət Əhəmiyyətli Tədqiqat Universitetinin (DƏTU) yaradılması ali təhsilin inkişafına töhfə verə bilər. Bu cür universitetlər özlərinin unikal və təkrarolunmaz imicini formalaşdıra bilərlər. Bu da onlara elmi-təhsil və ideya potensiallarını ortaya qoyaraq, cəmiyyətin, ölkənin həyat keyfiyyətini ucaldan və milli iqtisadi sabitliyə töhfə verən yeni yüksək texnoloji proseslərin, məhsulların yaradılmasında liderlik etməyə imkan yaradar.

Daha sonra Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru İradə Hüseynova, Neft-Kimya Prosesləri İnstitutunun direktoru Vaqif Abbasov, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Aparat rəhbəri Gülarə Tağızadə, Sumqayıt Dövlət Universitetinin rektoru Rüfət Əzizov, Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru Neman Muradlı, Aşqarlar Kimyası İnstitutunun direktoru Vaqif Fərzəliyev, Dövlət Gömrük Komitəsinin Akademiyasının rektoru Qulu Novruzov mövzu ilə bağlı fikirlərini bildiriblər.

# BDU Türkiyənin Ordu Universiteti ilə əməkdaşlıq edəcək

***BDU və Türkiyənin Ordu Universiteti arasında əməkdaşlıq əlaqələrinin yaradılması barədə razılıq əldə edilib. Bu məqsədlə BDU rektorunun strateji inkişaf və əlaqələr üzrə müşaviri Xalid Bayramlı, gənclər siyasəti və sosial məsələlər üzrə müşaviri Xumar Məmmədbağırova, rəqəmsalllaşma və informasiya texnologiyaları üzrə müşaviri Şəbnəm Səfərova Ordu Universitetində olublar.***




Oktyabrın 6-da universitetdə keçirilən görüş zamanı tərəflər əməkdaşlıq potensialının yüksəldilməsi məqsədilə magistratura və doktoranturada ikili diplom proqramlarının yaradılması ilə bağlı məsələləri müzakirə ediblər. Yaxın zamanlarda iki universitet arasında birgə layihələrin həyata keçirilməsinə dair anlaşma memarandumunun imzalanması nəzərdə tutulur.

# BDU-da "Yaradıcı sənayelər qovşağı" Tədris və İnkubasiya Mərkəzinin infosessiyası

***Oktyabrın 13-də BDU-da Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) və Azərbaycan Animasiya Assosiasiyasının təşkilatçılığı ilə "Animatorların inkişaf proqramı" və "Komediya və performans məktəbi" adlı təlimlərin infosessiyaları təşkil olunub.***



Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən "Yaradıcı sənayelər qovşağı" Tədris və İnkubasiya Mərkəzi tərəfindən keçirilən infosessiyanın məqsədi universitet tələbələrinin digər istedadlarının üzə çıxarılmasına xidmət etməkdir. Mərkəz "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" çərçivəsində Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə yaradılıb.

Mərkəzin bədii rəhbəri Ələkbər Əliyev 2023-cü ilin sonunadək mərkəzdə mədəniyyət sahəsində startap ("CulTech") oyun texnologiyaları sənayesi ("GameTech") və musiqi sənayesi üzrə biznes inkubasiya proqramları, milli qrafik dizayn kursları, musiqi sənayesi məktəbi, komediya məktəbi, animatorlar və prodüserlərin akselerasiyası proqramlarının həyata keçirilməsinin nəzərdə tutulduğunu qeyd edib.

Daha sonra Mərkəz əməkdaşları infosessiya iştirakçılarını maraqlandıran sualları cavablandırıblar.

Tədbirin sonunda Mərkəz əməkdaşlarının hazırladıqları treylerlər nümayiş olunub.

Qeyd edək ki, ən uğurlu iştirakçıların işlə təmin olunması və beynəlxalq layihələrə cəlb edilməsi nəzərdə tutulub.

# BDU-da Təhsil Tələbə Krediti Fondunun nümayəndələri ilə görüş

***Oktyabrın 16-da Təhsil Tələbə Krediti Fondunun (TTKF) nümayəndələri BDU-nun I kurs tələbələri ilə görüşüblər.***




BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Fondun son illər BDU ilə səmərəli əməkdaşlıq etdiyini qeyd edib, vaxtaşırı keçirilən görüşlərin tələbələrin təhsilə əlçatanlılığı baxımından əhəmiyyətini vurğulayıb.

Daha sonra təqdimatla çıxış edən TTKF-in İdarə Heyəti sədrinin müavini Bəhruz Əzimov və Fondun əməkdaşı Ağca Məmmədova qurumun yaradılmasının məqsədi və fəaliyyət istiqamətləri barədə məlumat verib, layihənin sosial müdafiəsi zəif olan tələbələrə dəstək məqsədi daşıdığını deyiblər. Görüşdə tələbələr təhsil tələbə kreditinə müraciət qaydaları, kreditlərin növləri, qeydiyyat prosesi və digər yeniliklər barədə ətraflı məlumatlandırılıblar.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb və təkliflər dinlənilib.

# BDU ilə "Times Higher Education" reytinq təşkilatı arasında onlayn görüş

***Oktyabrın 17-də BDU-nun əməkdaşları ilə dünyanın ən nüfuzlu reytinq təşkilatı hesab olunan "Times Higher Education" arasında görüş baş tutub.*** Görüşün məqsədi BDU-da cari ildə müvafiq istiqamətdə görülmüş işlərə dair qarşılıqlı müzakirələrin aparılmasıdır. Görüşdə rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov, Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Rauf Həsənov, Monitorinq, təhlil və akkreditasiya şöbəsinin müdiri Pərvanə Mövsümova iştirak ediblər.

Görüşdə reytinq agentliyinin nümayəndəsi tərəfindən BDU-nun əməkdaşlarını maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, BDU Azərbaycanda "Times Higher Education" dünya universitetləri reytinqi (WUR), eləcə də "Times Higher Education Subject Ranking" siyahısında yer alan yeganə universitetdir. Belə ki, BDU fiziki elmlər (fizika, kimya, geologiya, astronomiya, riyaziyyat və s.) və mühəndislik elmləri (kimya mühəndisliyi, geologiya mühəndisliyi, hidrogeologiya mühəndisliyi, geofizika mühəndisliyi və s.) üzrə 1001+ mövqelərini tutub.

# RİİB-in "Akademik Azad Mirzəcanzadə adına inkişaf proqramı"na dair məlumatlandırma tədbiri

***Oktyabrın 18-də BDU-da "BDU könüllüləri"nin təşkilatçılığı ilə "Regional İnkişaf" İctimai Birliyinin "Akademik Azad Mirzəcanzadə adına inkişaf proqramı"na dair məlumatlandırma tədbiri keçirilib.***

Tədbirdə çıxış edən BDU-nun Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev ölkəmizdə elm və təhsil sahəsindəki inkişafdan, gənclər üçün yaradılan imkanlardan danışıb. Bildirib ki, Universitetdə qazanılan nəzəri bilikləri sosial həyatda əks etdirmək vacib şərtdir. Bu istiqamətdə BDU tələbələri də kifayət qədər aktivdir. Belə layihələrdə iştirak gələcək karyera planları ilə bağlı fikrin formalaşmasına da kömək edir.

Əliş Ağamirzəyev "Regional İnkişaf" İctimai Birliyinə daim ölkənin sosial-iqtisadi, ictimai, mədəni həyatında, vətəndaş cəmiyyəti quruculuğunda fəal iştirak etdiyinə görə təşəkkürünü bildirib.

"Akademik Azad Mirzəcanzadə adına inkişaf proqramı"nın rəhbəri Leyla Seyidzadə isə qeyd edib ki, proqram paytaxt və regionları əhatə etməklə yeni imkanları dəyərləndirməyi, aktual problemlərin yaradıcı həlli yollarını tapmağı bacaran, dayanıqlı gələcəyə töhfə verməyə çalışan, çevik, innovativ yanaşmalara sahib gənclərin üzə çıxarılması və onların inkişafına dəstək verilməsi məqsədi daşıyır. Proqrama müraciət edənlərin təqdim etdikləri layihə ideyaları İşçi Qrupu tərəfindən qiymətləndiriləcək, aktuallığı, realliğı, innovativliyi və yenilikçi olması ilə seçilən ideyaların müəllifləri ikinci mərhələdə iştirak imkanı qazanacaqlar. Bu mərhələdə iştirakçılara layihələrin hazırlanması və təqdimatı istiqamətində peşəkar dəstək veriləcək, həmçinin onların liderlik bacarıqlarının inkişafı üçün müxtəlif fəaliyyətlər təşkil olunacaq. Sonda qalib olan layihələrin icrası üçün maliyyə vəsaiti ayrılacaq.

Tədbir tələbələrin suallarının cavablandırılması ilə yekunlaşıb.

# BDU-da beynəlxalq konfrans: “Şəxsiyyət, cəmiyyət və dövlət XXI əsrdə: Qlobal çağırışlar və inkişaf perspektivləri”

***Oktyabrın 5-də Sosial elmlər və psixologiya fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Şəxsiyyət, cəmiyyət və dövlət XXI əsrdə: Qlobal çağırışlar və inkişaf perspektivləri” mövzusunda sosial elmlər üzrə beynəlxalq fənlərarası elmi konfrans keçirilir.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov tədbir iştirakçılarını salamlayıb və konfransın işinə uğurlar arzu edib. Fərda İmanov “Heydər Əliyev İli” ilə əlaqədar BDU-da keçirilən silsilə tədbirlər içərisində Sosial elmlər və psixologiya fakültəsinin təşkil etdiyi beynəlxalq konfransın xüsusi yeri olacağına əminliyini ifadə edib.



Sosial elmlər və psixologiya fakültəsinin dekanı Rövşən Cavadov bildirib ki, ölkəmizin siyasi, iqtisadi, sosial və mədəni cəhətdən maraq kəsb etməsi, Cənubi Qafqazda güc mərkəzinə çevrilməsi regionda və qlobal aləmdə baş verən proseslərin, mövcud problemlərin ciddi elmi təhlilini, izahını və perspektivlərinin müəyyənləşdirilməsini zəruri edir. Bütün bunlar Azərbaycan cəmiyyətinin inkişaf prosesləri fonunda daha da aktuallaşır. O diqqətə çatdırıb ki, konfransın keçirilməsində əsas məqsəd sosial elmlərin bütün istiqamətləri üzrə aktual problemlərin müzakirəsi, qarşılıqlı təcrübə mübadiləsi, müxtəlif ölkələrin alim və tədqiqatçılarının araşdırmalarının nəticələrinin məruzə edilməsi, fikir mübadiləsinin aparılması, onların geniş beynəlxalq elmi auditoriyaya çatdırılmasıdır.

Konfransın plenar iclasında BDU-nun Sosiologiya kafedrasının müdiri Rəfail Həsənov, Türkiyə Böyük Millət Məclisinin üzvü Şamil Ayrım, Milli Məclisin üzvləri – akademik Nizami Cəfərov, Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Oruc, Şimali Kipr Türk Respublikasının Ankaradakı səfirliyinin təhsil və mədəniyyət attaşesi Ahmet Arslan, Türkiyənin Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə Prezidentinin müşaviri Aygün Attar, TRT-nin baş müxbiri, sosioloq-alim Aysel Sadak İltaş, Sülh Mədəniyyəti İnstitutunun rektoru Engel Rizakoviç Tagirov, Sorbonna Universitetinin fəxri professoru Albert Fişler, Hacettepe Universitetinin Ədəbiyyat fakultəsinin sosiologiya bölümünün professoru Aylin Baran, Özbəkistan Milli Universitetinin İctimai elmlər fakültəsinin kafedra müdiri Niginahon Şermuhamedova, Gürcüstan Texniki Universitetinin Hüquq və beynəlxalq münasibətlər fakültəsinin professoru Valeri Modebadzenin çıxışları dinlənilib.

Beynəlxalq konfransın panel müzakirələrində müasir dövrdə şəxsiyyət və cəmiyyət münasibətlərinin tənzimlənməsi, XXI əsrdə dövlətin inkişaf meylləri və problemləri, qloballaşma şəraitində mədəniyyət, elm və təhsilin rolu məsələləri müzakirə olunub.

Beynəlxalq konfransda 19 xarici ölkədən 120 alim və tədqiqatçı iştirak edir. Hibrid qaydada keçirilən beynəlxalq fənlərarası elmi-praktik konfransda 40 xarici ölkə tədqiqatçısı müzakirələrə canlı, 60 nəfəri isə onlayn qaydada qatılır.

Konfrans oktyabrın 6-da da davam edəcək.

# Hüquq fakültəsinin müəllim-tələbə heyəti Strasburqda təlim səfərindədir

***Oktyabrın 9-da Hüquq fakültəsinin müəllim və tələbə heyətinin Avropa Şurasının (AŞ) təşkilatçılığı ilə Strasburq şəhərinə - AŞ-nin mənzil-qərargahına təlim səfəri başlayıb. Səfər Yaxşı İdarəetmə üçün Avropa İttifaqı və Avropa Şurası Tərəfdaşlığı: “Qadınlara qarşı zorakılıq, məişət zorakılığının qarşısının alınması və onunla mübarizə” layihəsi çərçivəsində təşkil olunub.***

Təlim səfəri çərçivəsində müəllim və tələbə heyətinin Avropa Şurasının departament və bölmə rəhbərləri, İnsan hüquqları üzrə komissarlığın nümayəndələri, Avropa İnsan Hüquqları Məhkəməsinin Azərbaycandan olan hakimi Lətif Hüseynov, Türkiyədən olan hakim Saadet Yüksellə görüşləri, AŞ-nin ekspertləri tərəfindən mühazirələrin keçirilməsi, həmçinin Avropa Şurası Parlament Assambleyasının sessiyasında iştirakları nəzərdə tutulub. Təlim səfəri zamanı



fakültənin müəllim və tələbələri Strasburq Universitetinin Hüquq məktəbinə səfər edəcək, tədris prosesi ilə tanış olacaq, nüfuzlu professorların mühazirələrini dinləyəcəklər. Zəngin proqrama malik təlim səfəri ilk dəfədir həyata keçirilir.

Təlim səfərində Hüquq fakültəsinin dekanı Zaur Əliyev, İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi, layihənin eksperti Gülnaz Rzayeva, tələbələr Nizami Mehralıyev, Həmidə Sadıqova, Nəzrin Sadıqova, Eltac Allahyarlı, Səyad Ələkbərov, Nigar Rəhimli, Nihad Rəhimli iştirak edirlər. Tələbələr esse müsabiqəsi əsasında Avropa Şurası tərəfindən seçiliblər.

Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov təlim səfərinin açılış mərasimində iştirak edib, Azərbaycanın AŞ ilə əməkdaşlıq istiqamətləri haqqında məlumat verib, səfərin əhəmiyyətini vurğulayıb.

AŞ-nin Qadınlara qarşı zorakılıq departamentinin rəhbəri Carolina Lasen-Diaz tərəfindən açılış nitqi ilə başlayan səfərin ilk günündə Gender bərabərliyi bölməsinin rəhbəri Marta Becerra, layihə meneceri Anna Lungu və gender bərabərliyi üzrə məsləhətçi Cecile Grebovalın çıxışları tələbələr tərəfindən maraqla qarşılanıb. Tələbələrin çoxsaylı sualları cavablandırılıb, eləcə də interaktiv formada müzakirələr aparılıb. Hüquq fakültəsinin tələbələrinin təşəbbüsü ilə keçirilən sosial layihələr ekspertlər tərəfindən rəğbətlə qarşılanıb.

Sonda dekan Zaur Əliyev Hüquq fakültəsinin AŞ ilə əməkdaşlığı haqqında ətraflı məlumat verərək, layihənin təşkili ilə əlaqədar öz təşəkkürünü bildirib.

Səfərin ilk günündə təlimdən sonra Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov tərəfindən nümayəndəlikdə müəllim və tələbə heyəti üçün qəbul təşkil edilib. Səmimi görüş zamanı tələbələr üçün Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığı kontekstində faydalı məlumatların mübadiləsinə imkan yaradılıb.

# BDU-da yeni geosiyasi şəraitdə sosial inkişafın planlaşdırılmasına dair Respublika elmi konfransı

***Oktyabrın 23-də Sosial elmlər və psixologiya fakültəsinin təşkilatçılığı ilə “Yeni geosiyasi şəraitdə sosial inkişafın planlaşdırılması və proqnozlaşdırılması yolları” mövzusunda Respublika elmi konfransı keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın açılış mərasimində BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin dekanı Rövşən Cavadov “Dünya siyasətində Qərbi Azərbaycan probleminə münasibətdə fərqli yanaşmaların mahiyyəti və təzahür xüsusiyyətləri” mövzusunda çıxış edib. O bildirib ki, Azərbaycan xalqı uzun illər ermənilərin etnik təmizləmə siyasətinin təsirinə məruz qalıb. Bir vaxtlar böyük əksəriyyətini azərbaycanlıların təşkil etdiyi Ermənistan ərazisində hazırda bir nəfər də olsun azərbaycanlı yaşamır. Əksinə, zorakılıqla öz yurd yerlərindən didərgin salınmış azərbaycanlıların qəbirləri məhv edilib, minilliklər ərzində yaradılmış maddi mədəniyyət abidələri dağıdılıb. Rövşən Cavadov Qərbi azərbaycanlılara qarşı törədilmiş ədalətsizliyi pisləyib, Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurd yerlərinə qayıtmalarına şərait yaradılmasını təmin etməyi beynəlxalq təşkilatlar qarşısında qoyulan mühüm tələb hesab edib.

Sosial elmlər və psixologiya fakültəsinin elmi işlər üzrə dekan müavini Qızılgül Abbasova “XX-XXI əsrlərdə Cənubi Qafqazda baş verən sosial-siyasi proseslərin humanitar və sosial tərəfləri elmi paradiqma kimi” mövzusunda çıxış edərək bildirib ki, hazırda Azərbaycan elmi ictimaiyyətinin qarşısında duran əsas vəzifələrdən biri informasiya müharibəsində qələbə çalmaqdan ibarət olmalıdır. Çünki ermənilər dünya ictimaiyyətinə türklərin Cənubi Qafqazda yaşamalarını təsadüfi hadisə, onları öz tarixi, dili, mədəniyyəti və ərazisi olmayan xalq kimi tanıdırlar.

Fakültənin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Nəzakət Kərimova “Heydər Hüseynov fenomeni: sosial-siyasi və tarixi məkanda” mövzusunda çıxışında görkəmli elm xadimi Heydər Hüseynovun həyat və fəaliyyəti haqqında məlumat verib.

Fəlsəfə kafedrasının müdiri Kəmalə Pənahova, Sosial iş kafedrasının müdiri Üzeyir Şəfiyev çıxışlarında Qərbi Azərbaycanın mədəni mühiti və mənəvi dəyərlərinin tədqiq olunmasının, xüsusilə də ölkəmizdə fəlsəfə elminin inkişafında və tədrisində rolu olan Qərbi Azərbaycan əsilli alimlərimizin yaradıcılıqlarının öyrənilməsinin əhəmiyyətindən danışıblar.

Konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

# 18 Oktyabr – Müstəqilliyin Bərpası Günüdür

## *Bu gün doğma Azərbaycanımızın dövlət müstəqilliyini bərpa etməsindən 32 il keçir*

(Əvvəli 1-si səhifədə)



Bununla da Müzəffər Ali Baş Komandan və onun əmrinə daim hazır olan Azərbaycanın qəhrəman oğulları tariximizin ən önəmli səhifələrinə yekun nidanı qoydular.

Uzun illər ərzində Prezident İlham Əliyevin Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutduğu strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün gördüyü fasiləsiz işlərin məntiqi nəticəsi isə tarixi ədalətin bərqərar olması – Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz 44 günlük Vətən müharibəsi ilə tarixi Zəfərə imza atdı, düşmən tapdağı altında olan torpaqlarımızda üçrəngli bayrağımızı ucaltdı.

Azərbaycan dövlətinin qüdrəti, qəhrəman xalqımızın sarsılmaz birliyi, qazilərimizin qanı, şəhidlərimizin canı bahasına əldə edilən tarixi Qələbəmiz sonrakı zəfərlərə yol açdı. Üç il bundan əvvəl Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuz 30 illik işğala son qoymuşdusa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etdi. Bu il sentyabrın 19-da isə cəmi 24 saat davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim oldu, suverenliyimiz tam təmin olundu. Şanlı qələbəmizin möhtəşəm və məntiqi sonluğu oktyabrın 15-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Ağdərə, Xocalı, Əsgəran və ən əsası isə Xankəndidə üçrəngli bayrağımızı qaldırması oldu. Bununla da Müzəffər Ali Baş Komandan və onun əmrinə daim hazır olan Azərbaycanın qəhrəman oğulları tariximizin ən önəmli səhifələrinə yekun nidanı qoydular.

Bəli, artıq Azərbaycan xalqı üç ildir ki, müstəqilliyimizin bərpasının ildönümünü ərazi bütövlüyünü təmin etmiş qalib xalq kimi qarşılayır.

Azadlıq, müstəqil dövlət halında yaşamaq xalqımız üçün ən böyük xoşbəxtlikdir, misilsiz nemətdir. Dövləti olmayan xalq məhvə məhkumdur. Şəhidlərimizin qanları bahasına qazandığımız və möhkəmləndirdiyimiz müstəqilliyimiz əbədi olsun! Üçrəngli bayrağımız bugünkü kimi həmişə Vətənimizin hər qarışında dalğalansın!

Bayramınız mübarək!

# Astrofizika kafedrası: 2024-cü ildə 2 Günəş və 2 Ay tutulması baş verəcək

***Fizika fakültəsinin Astrofizika kafedrasının məlumatına görə, 2024-cü ilin 1-ci Günəş tutulması aprelin 8-də qeydə alınacaq.*** Bu tutulma tam Günəş tutulması olacaq. Tutulma hadisəsi aprelin 8-də Bakı vaxtı ilə saat 19:42:07-də başlayacaq və 9 aprel saat 00:52:14-də sona çatacaq. Qismən tutulma isə Şimali Amerikanın demək olar ki, hər yerində, Atlantik və Sakit okeanda görünəcək.

2024-cü ilin 2-ci Günəş tutulması oktyabrın 2-də baş verəcək. Tutulma halqavari Günəş tutulmasıdır. Ay Yerdən uzaq məsafədə olduqda bucaq ölçüsü Günəşin bucaq ölçüsündən kiçik olduğuna görə tutulma zamanı Günəşin səthini tam bağlamır və Ayın ətrafında parlaq halqa yaranır. Tutulma hadisəsi oktyabrın 2-də Bakı vaxtı ilə saat 19:42:47-də başlayacaq və 3 oktyabr saat 01:46:47-də sona çatacaq.

2024-cü ilin 1-ci Ay tutulması martın 25-də olacaq. Bu, yarımkölgəli Ay tutulmasıdır. Tutulma hadisəsi Bakı vaxtı ilə saat 08:53:11-də başlayıb, saat 13:32:18-də sona çatacaq. Tutulmanın maksimumu saat 11:13:59-da olacaq.

2024-cü ilin 2-ci Ay tutulması sentyabrın 18-də baş verəcək. Bu, qismən Ay tutulmasıdır. Qismən Ay tutulması Bakı vaxtı ilə saat 04:41:02-də başlayıb, saat 08:47:18-də sona çatacaq. Tutulmanın maksimumu sentyabrın 18-i saat 06:44:10-da baş verəcək.

# BDU-da Müstəqilliyin Bərpası Gününə həsr edilmiş xüsusi dərs

***Oktyabrın 18-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə 18 oktyabr – Müstəqilliyin Bərpası Gününə həsr olunmuş xüsusi dərs keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, müstəqilliyimizin, torpaqlarımızın azadlığı uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***



Xüsusi dərs Tarix fakültəsinin dosenti Xumar Səfərovanın mühazirəsi ilə davam edib. Xumar Səfərova xalqımızın azadlıq və suverenlik uğrunda mübarizə tarixi haqqında geniş məlumat verib. 1920-ci ildə Xalq Cümhuriyyətinin devrilməsinə baxmayaraq xalqımızın müstəqillik arzularının sarsılmadığını bildirib. Dövlət müstəqilliyimizin bərpasına gedən yolun keşməkeşli olduğunu diqqətə çatdıran natiq vurğulayıb ki, ötən əsrin 70-ci illərindən başlayaraq Ulu Öndər Heydər Əliyev sovet dövlətinin təqib və təzyiqlərinə baxmayaraq bu yolun təməlinin qoyub, gələcək azad və müstəqil respublikanın qurulması üçün əsas və zəmin yaradıb: “Dövlət müstəqilliyimizin bərpasından əvvəl, 1990-cı ilin 17 noyabrında Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Xalq Cümhuriyyətinin rəmzlərinin Muxtar Respublikanın dövlət rəmzləri kimi təsdiq edilməsi müdrik, eyni zamanda cəsarətli addım idi”.

Xumar Səfərova müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Ulu Öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra dövlət müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində misilsiz fəaliyyətini tarixi faktlarla şərh edib: “Xoşbəxt xalqıq ki, Ulu Öndərin müəyyənləşdirdiyi strategiya, həyata keçirdiyi tarixi missiya Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu il dövlət müstəqilliyimizin bərpasının ildönümünü bütün ərazilərimizdə suverenliyimizin bərpa olunduğu bir şəraitdə qeyd etməyimiz xalqımızda xüsusilə böyük əhval-ruhiyyə yaradıb. Bu gün qalib Azərbaycan regionun aparıcı dövləti kimi günü-gündən qüdrətlənir, azad Qarabağımızda aparılan misilsiz quruculuq işləri müstəqil, suveren Azərbaycanın daha parlaq gələcəyini şərtləndirir”.

# “Smart kitabxanalar” mövzusunda elmi seminar

***Oktyabrın 19-da İnformasiya və sənəd menecmenti fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə “Smart kitabxanalar” mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti Azad Qurbanov mövzu ilə bağlı məruzə edib.***

Məruzədə əvvəlcə smart kitabxana anlayışı şərh edilib. Qeyd olunub ki, bu termin ilk növbədə müasir texnologiyaları və kitabxana xidmətlərini birləşdirən innovativ həll kimi izah oluna bilər. Smart kitabxanalar oxuculara müxtəlif elektron kitablara, jurnallara və digər informasiya resurslarına geniş çıxış imkanı verən, kitabxanalara isə rahat və səmərəli idarəetməni tətbiq etməyə şərait yaradan rəqəmsal platformadır. Məruzəçi smart kitabxanaların xarakterik cəhətlərindən bəhs edərkən istifadənin asanlığı, informasiyaya geniş çıxış imkanlarının təmin edilməsi, informasiyanın axtarışı və emalı prosesinin optimallaşdırılması, vaxta və əməyə qənaət, xidmət keyfiyyətinin yüksəldilməsi, resursların mühafizəsinin və təhlükəsizliyinin təşkili, funksionallığın genişləndirilməsi kimi mühüm istiqamətləri diqqətə çatdırıb. Süni intellekt və smart kitabxanalar mövzusu da araşdırmaya cəlb olunub. Vurğulanıb ki, süni intellektlə işləyən axtarış motorları və tövsiyə sistemləri müvafiq materialların səmərəli şəkildə əldə olunmasına kömək edir: “Süni intellekt skan edilmiş sənədlərdə və şəkillərdə mətni tanımaq üçün tətbiq edilir ki, bu da tarixi və nadir materialların mühafizəsi, eyni zamanda onların onlayn şəkildə əldə edilməsi üçün böyük imkanlar yaradır”.



Məruzədə həmçinin mobil texnologiyalar, kabelsiz sistemlər, RFİD texnologiyası, Bulud texnologiyası, verilənlərin intellektual analizi, standartlar və protokollar kimi mühüm istiqamətlər də şərh olunub.

Elmi seminar müzakirələrlə davam etdirilib.

# Kimya fakültəsinin tələbələri Fəxri xiyabanı ziyarət ediblər

*Oktyabrın 19-da Kimya fakültəsinin tələbələri müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibəti ilə keçirilən tədbirlər çərçivəsində Fəxri xiyabanı ziyarət ediblər.*

Onlar Ümummilli Lider Heydər Əliyevin məzarı önünə gül dəstələri qoyub, xatirəsini hörmət və ehtiramla yad ediblər.



# Tanınmış radiomenecer Azər Nəzərov Jurnalistika fakültəsinin tələbələrinə ustad dərsi keçib





***Oktyabrın 19-da Tanınmış radiomenecer və kommunikasiya mütəxəssisi Azər Nəzərov Jurnalistika fakültəsinin II kurs tələbələrinə ustad dərsi keçib.*** Ölkədə ilk internet radio - "Gənclərin səsi"nin təsisçisi olan Azər Nəzərov tələbələrlə interaktiv ünsiyyət qurub, beynəlxalq təcrübə ilə yerli təcrübənin sintezi, onlayn radionun yaradılması barədə məlumat verib. "Youtube" platformasında internet radionun yaradılması mərhələsini əyani olaraq göstərib.

Praktik məşğələlərlə davam edən görüşdə radio verilişi ssenarisi yazan 3 qrup fərqləndirilib. Radiomenecer Azər Nəzərovun tələbələrə həvəsləndirici təklifi də olub. Belə ki, onlayn radio yaradan və ilin sonuna qədər bu radioda redaksiya qanunlarına əməl etməklə efir verən 3 tələbəyə professional radio mikrafonu, diktafon və lisenziyalı radio proqramı veriləcək. Azər Nəzərov qeyd edib ki, hər bir jurnalistin sosial platformalarda müəyyən məsələ üzrə radio verilişi hazırlaması üçün həvəs, aktual mövzu və səlis nitq kifayətdir.

# III Beynəlxalq Türk Dünyası Kommunikasiya və İncəsənət Simpoziumunun panel müzakirələri olub

*Oktyabrın 26-da Jurnalistika fakültəsində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə və Türkiyə Cümhuriyyətinin 100-cü ildönümünə həsr olunmuş III Beynəlxalq Türk Dünyası Kommunikasiya (Media) və İncəsənət Simpoziumunun panel iclasları keçirilib.*

Türk Dünyası Jurnalistlər Federasiyasının rəhbəri Menderes Dəmir türkdilli dövlətlərdə media sahəsində ortaq maraqlara söykənən fəaliyyətə böyük ehtiyac olduğunu bildirib.

Fakültə dekanı Vüqar Əliyevin, Şimali Kipr Türk Cumhuriyyətinin Lefke Avropa Universitetinin Kommunikasiya fakültəsinin dekanı Elif Asude Tuncayın, Jurnalistika fakültəsinin kafedra müdirləri, professorları Cahangir Məmmədli və Qulu Məhərrəmlinin moderatorluğu ilə 4 panel iclası keçirilib.

İclaslarda simpozium iştirakçıları ümumtürk mədəniyyətinin təbliği, media sahəsində ortaq layihələr, türkdilli dövlətlərdə media birliyinin önəmi, Türk dünyası mədəni irsinin qorunmasında vahid media platformasının rolu kimi mövzulara dair müzakirələr aparılıb.

# BDU tələbəsi Avropanın ən böyük idman festivalında 2 qızıl medal qazanıb

***Tarix fakültəsinin IV kurs tələbəsi İlkin Namazov İspaniyanın paytaxtı Madriddə keçirilən, Avropanın ən böyük idman festivalı olan "Arnold Classic Europe" festivalında önəmli qələbə qazanıb.*** Belə ki, İlkin Namazov pauerliftinq üzrə "bench-press" (ştanqı sinədən sıxma) və "deadlift" (yerdən ştanqı dartma) hərəkətlərində qızıl medala sahib olub.

Tələbəmizi təbrik edir, uğurlarının davamlı olmasını arzulayırıq!



# "Paşa Bank" "Rəqəmsal məhsulun yaradılması və inkişafı" mövzusunda infosessiya keçirib

*Oktyabrın 31-də "Paşa Bank" BDU-nun Karyera və məzunlarla əlaqə sektoru, Tələbə Həmkarlar İttifaqı Komitəsi ilə birgə tələbələr üçün növbəti təlim keçirib.*

Təlimçi, "Paşa Bank"ın əməkdaşı Təhminə Misirli "Rəqəmsal məhsulun yaradılması və inkişafı" mövzusunda danışıb. Bildirilib ki, istifadəçilərin arzu və istəklərinə uyğun məhsullar müəyyən edilərkən öncə irəli sürülən fərziyyəyə diqqət edilməlidir. Bu zaman fərziyyələrin bir neçə növü (sadə, sıfır, kompleks) meydana çıxır. Onların doğru və ya yanlışlığı təhlil edilir, bu da öz növbəsində dəyərli məhsulun yaradılmasına təsir göstərir. Beləliklə, məhsulun kəmiyyət və keyfiyyət göstəricilərindən asılı olaraq irəli sürülən fərziyyələr də dəyişir.

Təlimçi mövzunu diskussiya şəklində aparıb və sonda tələbələrin mövzu ətrafında çoxsaylı sualları cavablandırılıb.

# Mexanika-riyaziyyat fakültəsinin tələbələri İstiqlal muzeyində

*Oktyabrın 24-də Mexanika-riyaziyyat fakültəsinin tələbələri İstiqlal muzeyini ziyarət ediblər.*

Onlar İstiqlal muzeyində 44 günlük Vətən müharibəsinə həsr olunmuş "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" layihəsi çərçivəsində açılan "Sabaha qalmayan qisas" sərgisi ilə tanış olublar. Sərgidə Vətən müharibəsi şəhidlərinin şəxsi əşyaları nümayiş etdirilir. BDU tələbələrinə Vətən müharibəsi şəhidləri haqqında geniş məlumat verilib.

# BDU-da Azərbaycan mühacirət mətbuatına dair elmi seminar keçirilib

*Oktyabrın 25-də BDU-nun Milli mətbuat tarixi kafedrasının professoru Nəsiman Yaqublunun "Azərbaycan mühacirət mətbuatı" adlı elmi seminarı keçirilib.*

Professor Nəsiman Yaqublu elmi seminarda Azərbaycan mühacirət mətbuatı və bu mətbuatın yaradıcı şəxsləri haqqında geniş məlumat verib. Həmçinin mətbuat tarixinin az öyrənilmiş sahələrindən olan gizli nəşrlərlə bağlı danışıb. Qeyd edib ki, XX əsrin əvvəllərində çar Rusiyası dövründə Məhəmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağaoğlu və digər ziyalılarımızın gizli nəşrləri olub. Seminarda sovet dövründə nəşr edilmiş "İstiqlal" qəzeti, "Vətən" və "Yaşıl yarpaqlar" məcmuəsi barədə tədbir iştirakçılarına geniş məlumat verilib, onlardan nümunələr nəzərə çatdırılıb.

Nəsiman Yaqublu Mirzə Bala Məmmədzadənin "Azərbaycan türk mətbuat tarixi" kitabından da ətraflı bəhs edib, bu kitabın 70 ilə yaxın müddətdə qadağan edilməsinə diqqət yönəldib.

Sonda seminar iştirakçılarının sualları cavablandırılıb.

# Milli Müdafiə Universitetinin nümayəndələrinin tələbələrlə görüşü



***Oktyabrın 19-da BDU-da Müdafiə Nazirliyinin (MN) Milli Müdafiə Universitetinin nümayəndələrinin tələbələrlə görüşü keçirilib.***

Tədbirdə çıxış edən BDU-nun Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev bildirib ki, son 3 ildə Azərbaycan xalqı və dövləti tarixi günlər yaşayır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz 44 günlük Vətən müharibəsi ilə tarixi Zəfərə imza atıb, düşmən tapdağı altında olan torpaqlarımız azad olunub, 30 illik həsrətə son qoyulub. Bu möhtəşəm qələbə sonrakı zəfərlərə yol açıb. Bu il sentyabrın 19-da cəmi 24 saat davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim olub, suverenliyimiz tam təmin olunub. Oktyabrın 15-də isə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Ağdərə, Xocalı, Əsgəran və Xankəndidə üçrəngli bayrağımızı qaldırmaqla tariximizin ən önəmli mərhələsinə nida qoyub. Əliş Ağamirzəyev qazandığımız qələbələr üçün başda Müzəffər Ali Baş Komandan olmaqla qəhrəman əsgər və zabitlərimizə borclu olduğumuzu və xalqımızın onlarla fəxr etdiyini qeyd edib.

Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutunun rektoru, general-mayor Arif Həsənov isə bildirib ki, görüşün əsas məqsədi tələbələri Azərbaycan Ordusunda həyata keçirilən yeniliklər, Müdafiə Nazirliyinin strukturuna daxil olan xüsusi təyinatlı ali məktəblərin fəaliyyəti ilə tanış etmək, gələcəkdə karyerasını zabit kimi davam etdirmək istəyən gənclərə dəstək olmaqdır. O, məzunlar üçün xidmət növləri, imtiyazlar, MN sisteminə daxil olan xüsusi təyinatlı ali məktəblərdəki ixtisaslar, müraciət qaydaları barədə ətraflı məlumat verib.

Vətən Müharibəsi Qəhrəmanı, Hadrutun alınmasına rəhbərlik edən hərbçilərimizdən biri, polkovnik Nizami Mövlanov tələbələri döyüş yolu ilə tanış edib. O, zabit olmaq istəyən gənclər üçün yaradılan şəraitdən danışıb, hərbçi olmağın şərəfli, qürurlu bir vəzifə olduğunu diqqətə çatdırıb.

Sonra Azərbaycan Ordusundakı qoşun növləri haqqında videoçarx nümayiş etdirilib.

Sonda qonaqlar tələbələrin suallarını cavablandırıblar.

# BDU "ERASMUS + IQAinAR" layihəsi çərçivəsində təşkil olunan onlayn görüşdə təmsil olunub

***Oktyabrın 19-da Bakı Dövlət Universiteti Avropa Birliyi tərəfindən maliyyələşdirilən "ERASMUS+ IQAinAR" layihəsi çərçivəsində təşkil olunan onlayn görüşdə təmsil olunub. Görüşdə rektorun keyfiyyət təminat üzrə müşaviri Asiman İlyasov, Monitorinq, təhlil və akkreditasiya şöbəsinin müdiri Pərvanə Mövsümova iştirak ediblər.*** Rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov layihənin konsorsium üzvlərinə BDU-nun keyfiyyət təminatı sisteminə və atılan addımlara dair geniş məlumat verib.

Məlumat üçün bildirək ki, "ERASMUS+ IQAinAR" layihəsi tərəfdaş ölkələrin ali təhsil müəssisələrinin daxili keyfiyyət təminatı sisteminin beynəlxalq keyfiyyət standartları ilə təkmilləşdirilməsi və inkişafını dəstəkləmək, habelə yerli, regional, milli siyasət və strategiyaların həyata keçirilməsi istiqamətində ali təhsil müəssisələrinin gücləndirilməsini dəstəkləmək məqsədi daşıyır.

Niderlandın Vittenborq Tətbiqi Elmlər Universitetinin baş koordinatorluğu ilə icra olunan, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və BDU-nun isə assosiativ üzv kimi qatıldığı layihədə Azərbaycan Dövlət Pedaqoji Universiteti, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti və Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfdaş qismində iştirak edir.

# Arxiv işinə dair elmi seminar keçirilib

***Oktyabrın 24-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə "Azərbaycan Respublikasının Dövlət Arxivinin strukturu" mövzusunda elmi seminar keçirilib.*** Elmi seminarda BDU-nun Sənəd menecmenti kafedrasının magistrantı Aynurə Səfərova mövzu ilə bağlı məruzə edib. Gənc tədqiqatçı əvvəlcə arxiv anlayışını şərh edib, arxivçilik tarixinə nəzər salıb. Ölkəmizdə arxiv işinin formalaşmasından bəhs edən məruzəçi bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti bu sahədə bir sıra əməli addımlar atıb, tarixin mirası olan sənədlərin toplanması və qorunması istiqamətində mühüm tədbirlər həyata keçirib. Bu məqsədlə Xarici İşlər Nazirliyi yanında Xüsusi Komissiya təşkil edilib, arxiv sənədlərinin toplanması və komplektləşdirilməsinə başlanılıb. Sonra sovet dövründə Azərbaycanda arxiv fəaliyyəti barədə məlumat verilib, bu sahədə qanunvericilik aktlarının, hüquqi-normativ sənədlərin meydana gəlməsi diqqətə çatdırılıb.

Müstəqillik illərində ölkəmizdə arxiv işinin inkişafından bəhs edən məruzəçi Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sahəyə xüsusu diqqət və qayğısını vurğulayıb. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 12 fevral 2020-ci il tarixli Sərəncamının sahənin inkşafına mühüm töhfə olduğunu bildirib. Qeyd edib ki, Azərbaycan xalqı özünün milli-mənəvi sərvəti hesab edilən arxiv sənədlərinə yalnız Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra sahib ola bilib. Gənc tədqiqatçı 2023/2024-cü tədris ilindən etibarən BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsində "Muzey, arxiv işi və abidələrin qorunması" ixtisasına tələbə qəbulunun həyata keçirilməsini xüsusi qeyd edib. Bu baxımdan fakültədə sahə ilə bağlı elmi araşdırmaların aparılmasının prioritet istqmətlərdən biri kimi daim diqqət mərkəzində olmasını vurğulayıb.

Elmi seminar müzakirələrlə davam etdirilib.

# BDU əməkdaşları Türkiyədə Azərbaycanda təhsilin iqtisadi artıma təsirinə dair məruzə ediblər

***Oktyabrın 19-da Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı, dosent Laçın Abışlı və Dünya iqtisadiyyatı kafedrasının baş müəllimi, iqtisad üzrə fəlsəfə doktoru Qalib Qafarlı Türkiyənin Qazi Universitetində keçirilən XXI Beynəlxalq türk dünyası sosial elmlər konfransında "Azərbaycanda təhsilin iqtisadi artıma təsirinin qiymətləndirilməsi" mövzusunda məruzə ilə çıxış ediblər.***

Laçın Abışlı, İkram Cəbrayılov və Qalib Qafarlının həmmüəllifi olduqları tədqiqat işində Azərbaycan Respublikasında təhsilin iqtisadi artım üzərində təsirləri haqqında araşdırma aparılıb. Tədqiqatın nəticəsinə əsasən, ali məktəb tələbələrinin sayında 1% artım iqtisadi böyüməni 4,7%, orta ixtisas təhsili müəssisələrində tələbələrin sayında 1% artım 1,7% artırmaqdadır.

Məruzə konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb. Məruzəçilər onlara ünvanlanan çoxsaylı sualları cavablandırıblar. Daha sonra müəlliflərə konfransda iştirak və çıxışla əlaqəli beynəlxalq sertifikatlar təqdim olunub.

Qeyd edək ki, Beynəlxalq türk dünyası sosial elmlər konfransı 2003-cü ildən keçirilir və türkdilli ölkələrdə akademik, sosial, iqtisadi və təhsil sahələrində əməkdaşlığı inkişaf etdirmək məqsədi daşıyır. XXI Beynəlxalq türk dünyası sosial elmlər konfransına 14 ölkədən 160 tədqiqatçı qatılıb.

# Fizika fakültəsində professor Mais Süleymanovla görüş



***Oktyabrın 19-da Fizika fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) "Fakültəmizi tanıyaq" layihəsi çərçivəsində BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiya Mərkəzinin müdiri, Maddə quruluşu kafedrasının professoru Mais Süleymanov ilə tələbələrin görüşü keçirilib.***

Fizika fakültəsinin THİK üzrə rəhbəri, IV kurs tələbəsi Lamiyə Həmidova professor Mais Süleymanovun həyat və fəaliyyətini əks etdirən təqdimatla çıxış edib.

Sonra fakültə dekanı Bəxtiyar Paşayev, Maddə quruluşu kafedrasının müdiri Eldar Məsimov, Nəzəri fizika kafedrasının müdiri Məmməd Rəcəbov professor Mais Süleymanovun nümunəvi müəllimlik fəaliyyətindən söz açıblar.

Qeyd olunub ki, Mais Süleymanov 1970-1975-ci illərdə BDU-nun Fizika fakültəsində təhsil alıb. 1975-ci ildən Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutunda əmək fəaliyyətinə başlayıb, həmin ildən Moskvada Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun (BNTİ) Yüksək Enerjilər Laboratoriyasında elmi tədqiqatlar aparıb. 1980-ci ildə fizika-riyaziyyat elmləri namizədi, 1999-cu ildə fizika-riyaziyyat elmləri doktoru dərəcələrini alıb. Çexiyada, Almaniyada, Avropa Nüvə Tədqiqatları Mərkəzində (CERN) elmi araşdırmalar həyata keçirib. 2006-2020-ci iilərdə Pakistanda xarici professor kimi fəaliyyət göstərib. Mais Süleymanov xarici ölkələrin elmi mətbuatında dərc olunmuş 535 elmi işin müəllifi və həmmüəllifidir. Onun elmi rəhbərliyi ilə 1 elmlər doktoru, 5-dən çox fəlsəfə doktoru yetişib.

Professor Mais Süleymanov Fizika fakültəsində təhsil illəri, nüvə fizikasına marağı, həyatında və elmi fəaliyyətində əhəmiyyətli rol oynamış şəxslər haqqında maraqlı məlumatları tələbələrlə bölüşüb. O, həyatda uğur qazanmaq üçün tələbələrə dəyərli tövsiyələr verib.

# BDU-nun şəhid məzunu Erkin Hüseynovun məzarı ziyarət olunub

***Oktyabrın 13-də Sosial elmlər və psixologiya fakültəsinin müəllim və tələbələri Gəncədə fakültənin şəhid məzunu Erkin Hüseynovun məzarını ziyarət ediblər.***



Sosial elmlər və psixologiya fakültəsinin dekan müavini Nəzakət Kərimova, dosent Ülviyyə Ağabəyova, fakültənin Tələbə Həmkarlar İttifaqının sədri Heydər Aslanov, tələbələr şəhidin Gəncə Şəhidlər xiyabanındakı məzarı, oxuduğu məktəbdə şərəfinə ucaldılmış bulağın önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər. Daha sonra onlar Erkin Hüseynovun ailə üzvləri ilə görüşüb, bütün Azərbaycan xalqının onunla fəxr etdiyini bildiriblər.

Qeyd edək ki, Erkin Hüseynov ötən il sentyabrın 12-də Ermənistanın genişmiqyaslı təxribatının qarşısını alarkən qəhrəmancasına həlak olub. O, 2016-2020-ci illərdə BDU-nun Sosial elmlər və psixologiya fakültəsində Fəlsəfə ixtisası üzrə təhsil alıb.

Azərbaycan Silahlı Qüvvələrinin leytenantı Erkin Hüseynovun əziz xatirəsi müəllimlərinin və tələbə yoldaşlarının yaddaşında əbədi yaşayacaq.

# BDU-da Füzuli Şəhəri Günü qeyd edilib

***Oktyabrın 17-də İnformasiya və sənəd menecmenti fakültəsində "BDU könüllüləri" və Tələbə Gənclər Təşkilatının (TGT) birgə təşəbbüsü ilə 17 oktyabr - Füzuli Şəhəri Günü münasibətilə tədbir keçirilib. Professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə şəhidlərimizin unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb.***



Tədbirin moderatoru – Qarabağ müharibəsi veteranı, Redaksiya-nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" 31 iyul 2023-cü il tarixli Sərəncamının əhəmiyyətindən bəhs edib: "17 oktyabr 2020-ci ildə xüsusi strateji əhəmiyyətə malik olan Füzuli şəhərinin işğaldan azad edilməsi 44 günlük Vətən müharibəsində qələbəmizə gedən yolumuzu aydınlatdı, xalqımızda yüksək əhval-ruhiyyə, gələcəyə böyük inam yaratdı, tarixi Zəfərimizi daha da yaxınlaşdırdı".

Sonra Kitabxanaşünaslıq kafedrasının müdiri Elçin Əhmədov, Sənəd menecmenti kafedrasının müdiri Nadir İsmayılov çıxış ediblər. Qeyd olunub ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazandığımız Zəfər tariximizin ən parlaq səhifəsidir. Çıxış edənlər Qarabağda aparılan son antiterror tədbirləri nəticəsində dövlətimizin suverenliyinin tam bərpa olunmasının, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Xankəndi, Xocalı, Ağdərə, Xocavənd şəhərlərində, Əsgəran qalasında, Sərsəng su anbarının ərazisində bayrağımızı ucaltmasının sonsuz qürurunu yaşadığımız günlərdə Füzuli Şəhəri Gününün qeyd edilməsinin xüsusilə böyük əhəmiyyətə malik olduğunu vurğulayıblar.

Tədbir fakültə tələbələrinin hazırladığı bədii hissə ilə davam edib.

# Zəngilan Şəhəri Günü qeyd edilib

*Vəzufə Xudiyeva vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin göstərişi əsasında işğaldan azad olunmuş ərazilərdə birinci pilot layihə Zəngilan rayonun Ağalı kəndində icra edilib, yüzlərlə sakin artıq öz doğma yudlarında məskunlaşıblar*

***Oktyabrın 20-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə 20 oktyabr – Zəngilan Şəhəri Günü münasibətilə tədbir keçirilib. Professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb.***

İnformasiya və sənəd menecmenti fakültəsinin müəllimi, qazi anası Vəzufə Xudiyeva Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" 31 iyul 2023-cü il tarixli Sərəncamını xatırladıb, sənədin tarixi əhəmiyyətini vurğulayıb: "Cəbrayıl və Füzuli şəhərlərindən sonra 20 oktyabr 2020-ci ildə xüsusi strateji əhəmiyyətə malik olan Zəngilan şəhərinin işğaldan azad edilməsi xalqımızda yüksək əhval-ruhiyyə, müharibədə tarixi qələbə əldə edəcəyimizə sarılmaz inam hissi yaratdı". Vəzufə Xudiyeva vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin göstərişi əsasında işğaldan azad olunmuş ərazilərdə birinci pilot layihə Zəngilan rayonun Ağalı kəndində icra edilib, yüzlərlə sakin artıq öz doğma yudlarında məskunlaşıblar. Sonra kafedra müdirləri Elçin Əhmədov, Nadir İsmayılov çıxış ediblər. Çıxışlarda Qarabağda aparılan son antiterror tədbirləri nəticəsində dövlətimizin suverenliyinin tam bərpa olunmasından, Xankəndi, Xocalı, Ağdərə, Xocavənd şəhərlərində, Əsgəran qəsəbəsində, Sərsəng su anbarının ərazisində Dövlət Bayrağımızı ucaldılmasından, xalqımıza qarşı soyqırımı törətmiş cinayətkarların həbs olunaraq ədalət məhkəməsinin mühakiməsinə verilməsindən qürurla bəhs edilib.

Tədbir fakültə tələbələrinin hazırladığı bədii hissə ilə yekunlaşıb.

# "44 günlük tarix yazan media qəhrəmanları" adlı tədbir keçirilib

***Oktyabrın 20-də Jurnalistika fakültəsində "44 günlük tarix yazan media qəhrəmanları" adlı tədbir keçirilib.***

Tədbirdə çıxış edən BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev Vətən müharibəsi və post müharibə dövründə ölkəmizin apardığı uğurlu informasiya siyasətindən, ekstremal jurnalistikanın inkişafından söz açıb. Bildirib ki, 44 günlük müharibə yalnız hərbi və diplomatik deyil, həm də media sahəsindəki qələbəmizlə adını tarixə qızıl hərflərlə yazıb.

Jurnalistika fakültəsinin dekan müavinləri Sevinc Əliyeva və Samir Mirzəyev bu cür tədbirlərin keçirilməsinin şanlı Zəfər tariximizin öyrənilməsi və sonrakı nəsillərə ötürülməsi baxımından əhəmiyyətini vurğulayıb, dünya hərb doktrinasına gətirdiyimiz yeniliklərin bu gün Azərbaycan üçün yeni reallıqlara səbəb olduğunu bildiriblər.

Fakültənin məzunları - Vətən müharibəsi iştirakçısı, "Azərbaycan" qəzetinin redaktoru Rəşad Baxşəliyev və lokal antiterror tədbirlərinin iştirakçısı Osman Hüseynov keçdikləri döyüş yolundan danışıb, xatirələrini bölüşüblər.

Sonra tələbələr tarixi Zəfərlə bağlı təəssüratlarını və onları maraqlandıran sualları səsləndiriblər.

# Kənan Məmmədovun xatirəsi yad edilib

***Oktyabrın 24-də Filologiya fakültəsində "BDU könüllüləri" və Tələbə Gənclər Təşkilatının birgə təşəbbüsü ilə fakültənin məzunu, Vətən müharibəsi şəhidi Kənan Məmmədovun xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.*** Tədbirdə fakültənin professor-müəllim heyəti, tələbələr, şəhidin ailə üzvləri və yaxınları iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Filologiya fakültəsinin dekan müavini Anar Fərəcov xalqımızın müasir qəhrəmanlıq salnaməsinə çevrilmiş 44 günlük Vətən müharibəsində və 2023-cü ilin sentyabr ayında Qarabağda aparılan uğurlu lokal antiterror əməliyyatları nəticəsində canlarından keçmiş gənclərimizin göstərdikləri şücaətdən söz açıb. Bildirib ki, fakültənin məzunu, Murovdağ istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmış Kənan Məmmədov müəllimlərinin yaddaşında məsuliyyətli, dərslərinə ciddi yanaşan və mehriban bir tələbə portreti yaratmağı bacarıb. Onun əziz xatirəsi həmişə ehtiramla yad olunacaq.

Tədbir zamanı Filologiya fakültəsi üzrə "BDU könüllüləri" təşkilatının təşəbbüsü ilə Kənan Məmmədovun xatirəsinə həsr edilmiş esse müsabiqəsinin nəticələri də elan olunub, qalib gələn tələbələr mükafatlandırılıb.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun göstərdiyi qəhrəmanlığın gələcək nəsillər üçün böyük vətənpərvərlik məktəbi olduğunu diqqətə çatdırıb. Bildirib ki, esse müsabiqəsinə təqdim olunmuş yazılarda tələbələrin toxunduqları məsələlər, yaradıcı fikirlər müasir gəncliyin milli ruhda yetişməsindən xəbər verir.

Sonda Kənan Məmmədovun xatirəsinə həsr edilmiş videoçarx nümayiş olunub, Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müəllimi Ramiyə İsgəndərzadə və I kurs tələbəsi Hümbət Bədəlovun vətənpərvərlik mövzusunda yazdıqları şeirləri, I kurs tələbəsi Aysu Türkelin Kənan Məmmədov haqqında hekayəsi və "BDU könüllüləri" təşkilatının nəzdində fəaliyyət göstərən "Lin-Orph" klubunun ifa etdiyi mahnılar dinlənilib.

# BDU-nun prorektoru beynəlxalq konfransda iştirak edib

***Oktyabrın 23-də Türkiyənin Qars şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib.***

Qars Qafqaz Universiteti, Azərbaycanın Türkiyədəki səfirliyi, Qarsdakı Baş Konsulluğu, respublikamızın Elm və Təhsil Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Elgər Elm və Təhsil Mərkəzi, Əskişəhər Azərbaycanlılar Dərnəyi, Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası, İğdır Azərbaycan evinin təşkilatçılığı ilə keçirilən "Heydər Əliyev və Türkiyə" adlı multidisiplinar beynəlxalq elmi konfransa 12 ölkədən 100-dən çox elm adamı qatılıb.

Dövlət müstəqilliyimizin 32-ci ildönümünə təsadüf edən tədbir Azərbaycan və Türkiyənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Qars Qafqaz Universitetinin rektoru Hüsnü Kapu və Azərbaycanın



Qarsdakı baş konsulu Nuru Quliyevin giriş nitqləri ilə başlanan konfransın plenar iclasında tədbirin təşkilat komitəsinin sədri İlkin Qulusoy, Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil üzrə müşaviri Nəcibə Nəsibova, Elm və Təhsil Nazirliyinin təmsilçisi Müjdat Həsənov, Əskişəhər Azərbaycanlıları Dərnəyinin sədri Cavid Aydın çıxış ediblər.

BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov da konfransda təbrik nitqi ilə çıxış edib. Hüseyn Məmmədov çıxışında Ulu Öndər Heydər Əliyevin Türkiyə-Azərbaycan qardaşlığının möhkəmlənməsində müstəsna rolundan bəhs edib, bu dostluğun dünya ölkələri üçün nümunə olduğunu bildirib. O, konfransın gənclərin inkişafına kömək edəcəyinə və iki qardaş ölkənin ali təhsil müəssisələri arasında əlaqələrin genişlənməsinə töhfə verəcəyinə əminliyini bildirib.

# Türkiyənin Ege Universitetinin professoru Fizika fakültəsində mühazirə deyib

***Oktyabrın 30-da BDU-da Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Elm Festivalı çərçivəsində ustad mühazirələri davam edir.***

Türkiyənin Ege Universitetinin Fizika kafedrasının müdiri, professor Mustafa Tepe BDU-nun Fizika fakültəsində "İfratkeçiricilik və YBCO əsasında nazik təbəqələrin sensor tətbiqləri" mövzusunda çıxış edib. Professor Mustafa Tepe əvvəlcə aşağı temperaturlu ifratkeçiricilər, onların kəşfi və müxtəlif sahələrdə tətbiqi barəsində məlumat verib.

O, Meyesner effekti və ifratkeçiricilərin faza diaqramı haqqında maraqlı məlumatlar təqdim edib, Yitrium və Bismut əsaslı yuxarı temperaturlu ifratkeçiricilərin sintezi, onlar əsasında nazik təbəqələrin alınması haqqında danışıb. Türkiyəli professor belə nazik təbəqələrin əsasən sensor qismində müxtəlif yüksək həssaslı tibbi cihazlarda tətbiq olunduğu, eləcə də ifratkeçiricilərin sintezi və tətbiqi sahəsindəki yeni nailiyyətlər barədə məlumat verib, iştirakçıların suallarını cavablandırıb.

Daha sonra Mustafa Tepe Ege Universitetində tədrisin və elmi tədqiqatların təşkili, universitetin əldə etdiyi nailiyyətlər barədə danışıb. Seminarın sonunda BDU-nun Fizika fakültəsi ilə Ege Universitetinin Fənn fakültəsinin Fizika kafedrası arasında tədris və elmi tədqiqatlar sahəsində birgə əməkdaşlıq məsələləri müzakirə olunub.

# Milli Aerokosmik Agentliyin Ekologiya İnstitutunun direktoru BDU tələbələrinə ustad dərsi keçib

***Oktyabrın 30-da Milli Aerokosmik Agentliyin Ekologiya İnstitutunun direktoru, professor Bəhram Əliyev Ekologiya və torpaqşünaslıq fakültəsində "Ekologiyanın müasir problemləri və onların həlli yolları" mövzusunda ustad dərsi keçib.***

Ustad dərsində dünyanı və respublikamızı narahat edən əsas ekoloji problemlər, onların yaranma səbəbləri və həlli yollarından danışılıb. Həmçinin müasir ekologiyanın strukturu, qlobal iqlim dəyişikliyinə antropogen amillərin təsiri, torpağın deqradasiyası və çirklənməsi, səhralaşma və onun səbəbləri, Azərbaycanın su ehtiyatlarından səmərəli istifadə yollarına dair konseptual təkliflər, ərzaq təhlükəsizliyi və Azərbaycanda bu probleminin həlli yolları, ekocoğrafi idarəetmə proseslərinin əsas xüsusiyyətləri, sistemli yanaşmanın üstünlükləri, atmosfer, hidrosfer və litosferə antropogen təsirlər, ətraf mühitin bioloji çirklənməsi, elektromaqnit sahəsinin və şüalanmanın canlı orqanizimlərə təsiri, kosmik fəaliyyətlərdən çirklənmə, su mühitində çirkləndiricilərin bərpasının normalaşdırılması, neftlə çirklənmə, ekoloji təhlükəsizlik və idarəetmə, ölkənin əsas ekoloji problemləri, ətraf mühitin ekoloji monitorinqinin konsepsiyası, ekoloji menecmentliyin səmərəliliyi və ekoloji audit barədə geniş məruzə edilib.

Sonra tələbə və magistrantların qeyd olunan aktual istiqamətlər üzrə sualları cavablandırılıb. Ustad dərsinin sonunda professor Bəhram Əliyevin həmmüəllifi olduğu "Osnovı ekoloqiçeskix problem v Azerbaydjane i puti ix reşeniya" dərs vəsaitinin təqdimatı edilib.

# BDU-nun kafedra müdiri Ankara Sosial Elmlər Universitetində səfərdə olub

***Oktyabrın 30-da Sosial elmlər və psixologiya fakültəsinin Psixologiya kafedrasının müdiri, dosent, psixologiya üzrə fəlsəfə doktoru Səxavət Əliyeva Türkiyə Respublikasının Ankara Sosial Elmlər Universitetində səfərdə olub.***

Səfər zamanı Səxavət Əliyeva Universitetin rektoru, professor Musa Kazım Arıcan ilə görüşüb. Görüşdə hər iki universitetin Psixologiya kafedraları arasında gələcək əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

Görüşdən sonra kafedra müdiri Ankara Sosial Elmlər Universitetinin Sosial və humanitar elmlər fakültəsinin Psixologiya kafedrasında magistratura və bakalavriatura səviyyələrində keçirilən dərslərin metodları ilə yaxından tanış olub.

# BDU Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş kitab sərgisində təmsil olunur

***Oktyabrın 26-da BDU ADA Universitetində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq kitab sərgi-yarmarkasında təmsil olunur.***

Oktyabrın 25-də açılışı olan tədbirin əsas məqsədi Azərbaycandan və dünyanın müxtəlif məkanlarından olan yazıçıları, nəşriyyatları, kitabxanaları və oxucuları bir araya gətirərək elmin, təhsilin, ədəbiyyatın təntənəsini qeyd etmək və fikir mübadiləsi aparmaqla Ulu Öndər Heydər Əliyev irsini dərin hörmətlə yad etməkdir.

Sərgi-yarmarkada BDU-nun Elmi Kitabxanasının stendində Ümummilli Lider Heydər Əliyevin həyatının müxtəlif dövrlərini, xidməti fəaliyyətini, sovet dövründə və müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi illərdə gördüyü işləri, keçirdiyi görüşləri, ölkəmizin regionlarına və xaricə səfərlərini, həmçinin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli sərkərdəliyi, Ordumuzun rəşadəti, xalqımızın birliyi nəticəsində şanlı qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsindən bəhs edən 100-ə yaxın nəşr nümayiş olunur.

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş kitab sərgisi oktyabrın 27-nə kimi davam edəcək.

# Türk Dünyası Jurnalistlər Federasiyanın nümayəndə heyəti ilə görüş

***Oktyabrın 25-də BDU-nun rektoru Elçin Babayev Türk Dünyası Jurnalistlər Federasiyanın rəhbəri Menderes Dəmirin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Görüşdə oktyabrın 26-da BDU-da keçiriləcək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə və Türkiyə Cümhuriyyətinin 100-cü ildönümünə həsr olunmuş III Türk Dünyası Media və Sənət Simpoziumunun açılış mərasiminə hazırlıq işləri müzakirə edilib. Simpoziumda türkdilli dövlətlərin media və mədəniyyət sahələrində tanınmış xadimləri iştirak edəcəklər. Simpoziumun açılış mərasimindən sonra Türk Dünyası Jurnalistlər Federasiyasının təşkilatçılığı ilə Ankarada keçirilən "VIII Türk Dünyası Sənədli Film Festivalı"nda Azərbaycandan mükafat qazanan filmlərin nümayişi keçiriləcək. "Doqquz ölkə, doqquz şəhər, bir festival" şüarı altında keçirilən festivalda mükafata layiq görülən filmlərin dünyanın doqquz ölkəsində nümayişi planlaşdırılır. İlk nümayiş məhz Azərbaycanda və onun ən böyük, qədim ali təhsil müəssisəsi olan BDU-da keçiriləcək.

Simpozium iştirakçıları panel müzakirələrdə ümumtürk mədəniyyətinin təbliği, media sahəsində ortaq layihələr, türkdilli dövlətlərdə media birliyinin önəmi kimi mövzulara dair müzakirələr aparacaq, həmçinin BDU-nun Jurnalistika fakültəsinin tələbələri üçün ustad dərsləri keçəcəklər.

# Türkiyəli telejurnalistlər praktik seminar keçiriblər

***Oktyabrın 26-da III Beynəlxalq Türk Dünyası Kommunikasiya (Media) və İncəsənət Simpoziumunun iştirakçıları olan TRT-nin keçmiş əməkdaşı Hayri Çölaşan və rejissor-prodüser Esin Özalp Öztürk Jurnalistika fakültəsinin Tədris teleradio studiyasının qonağı olublar.***

Qonaqlar studiya ilə yaxından tanış olub və BDU TV-yə müsahibə veriblər. Onlar eyni zamanda studiyanın auditoriyasında tələbələrə sənədli filmin necə hazırlanması, rejissor işinin özəllikləri barədə praktik seminar keçiriblər. İnteraktiv formada keçirilən seminarda maraqlı müzakirələr aparılıb.

# BDU rektoru qəbul imtahanlarında ən yüksək nəticə göstərən tələbələrlə görüşüb

*Oktyabrın 26-da BDU-nun rektoru Elçin Babayev 2023-2024-cü tədris ili üzrə qəbul imtahanlarında 670-dən yuxarı bal toplayan BDU tələbələri Nuranə Payızova, Kübra Həsənzadə, Zəhra Hüseynova, Aysu Rəcəbova və Səmayə Abbasquliyeva ilə görüşüb.*



Rektor tələbələri qəbul imtahanlarında qazandıqları yüksək nəticələrə görə təbrik edib, onlara uğurlar arzulayıb. Elçin Babayev diqqətə çatdırıb ki, son 3 ildə BDU-da Riyaziyyat müəllimliyi ixtisasına qəbul üzrə yüksək bal Hüquq fakültəsinin ən yüksək balı ilə demək olar ki, bərabərləşib. Bu, çox sevindirici haldır: “Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazandığımız böyük qələbədən sonra doğma Qarabağımızda və ölkəmizin hər yerində yüksəkixtisaslı mütəxəssislərə böyük ehtiyac var. Sizin bu missiyanı şərəflə yerinə yetirəcəyinizə, ölkəmizi layiqincə təmsil edəcəyinizə əminəm”.

Rektor tələbələrə tək tədrisdə deyil, BDU-nun sosial və ictimai həyatında da aktiv iştirak etməyi tövsiyə edib.

# AZƏRTAC-ın təcrübə proqramında iştirak edən BDU tələbələri təltif ediliblər

*Oktyabrın 18-də Jurnalistika fakültəsinin Azərbaycan Dövlət İnformasiya Agentliyində (AZƏRTAC) üç aylıq təcrübə proqramında iştirak edən tələbələrinə sertifikatlar təqdim olunub.*

Jurnalistika fakültəsinin I kurs tələbələri AZƏRTAC-ın yeni binasında yaradılan şəraitlə tanış olub, Ümummilli Lider Heydər Əliyevin, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mətbuatla bağlı tədbirlərdə iştirakını, yerli və xarici mediaya müsahibələrini, Müzəffər Ali Baş Komandanımızın Vətən müharibəsi dövründə xalqa müraciətlərini, işğaldan azad olunmuş bölgələrə səfərlərini əks etdirən fotostendlərə baxıblar.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev tələbələrlə görüşdə Agentliyin tarixi və fəaliyyət istiqamətləri barədə məlumat verib.



Bildirilib ki, AZƏRTAC ictimai-siyasi və iqtisadi mövzularda, habelə elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ətraf mühit və digər sahələrlə bağlı 8 dildə - Azərbaycan, ingilis, rus, fransız, alman, ərəb, Çin və ispan dillərində fasiləsiz olaraq informasiya yayır. Bir əsrdən artıq yaşı olan Agentlik zəngin jurnalistika ənənələrinə və təcrübəsinə malikdir. Sonda tələbələrə sertifikatları təqdim edən İdarə Heyətinin sədri onlara təhsildə və gələcək fəaliyyətlərində uğurlar diləyib. Görüşdə BDU-nun Jurnalistika fakültəsinin dekan müavini Samir Mirzəyev iştirak edib.

# Tələbələr üçün infosessiya: “Bulud texnologiyası”

*Oktyabrın 23-də BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun təşkilatçılığı ilə tələbələr üçün “Bulud texnologiyası” mövzusunda infosessiya keçirilib. İnfosessiyanın təlimçisi bulud texnologiyaları üzrə mütəxəssis İzmir Sadıqov olub.*

BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun baş mütəxəssisi İlkin Şərifov öncə tələbələri sektorun fəaliyyəti ilə tanış edib. Bildirib ki, tələbələrə karyeralarının düzgün qurulmasına kömək etmək, bu sahədə daha səriştəli olmağa yönləndirmək sektorun əsas fəaliyyət istiqamətidir.

Təlimçi İzmir Sadıqov isə vurğulayıb ki, “bulud texnologiyası” müəyyən resurslara (hesablama resurslarına, proqram və məlumatlara) uzaq məsafədən müraciət etmək üçün rahat interfeysdən istifadə etməyə imkan verir. Bu halda istifadəçi kompüteri şəbəkəyə qoşulmuş adi terminal rolunu oynayır. Bu texnologiyanın köməyilə istifadəçinin məlumatları bulud sistemlərində saxlanılır, emal edilir, brauzerlərin vasitəsilə emal proqramlarının işə salınması və nəticələrə baxılması təmin edilir.

“Bulud texnologiyası”na dair bir çox anlayışlar təlimçi tərəfindən ətraflı təhlil edilib və tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

# BDU tələbələri Hərbi Qənimətlər Parkında

*Ziyarət zamanı tələbələr Vətən müharibəsində Azərbaycan Ordusunun hərbi qənimət kimi ələ keçirdiyi texnika, döyüş sursatı və digər eksponatlarla tanış olublar*

*Oktyabrın 31-də Biologiya fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Günü ərəfəsində Hərbi Qənimətlər Parkı ziyarət edilib.* Ziyarət zamanı tələbələr Vətən müharibəsində Azərbaycan Ordusunun hərbi qənimət kimi ələ keçirdiyi texnika, döyüş sursatı və digər eksponatlarla tanış olublar.

Qeyd olunub ki, kompleksdə 30 il torpaqlarımızı işğal altında saxlayan, Qarabağın maddi-mənəvi dəyərlərini talayan, məhv edən təcavüzkar Ermənistana məxsus döyüş texnikasının qüdrətli Azərbaycan Ordusu tərəfindən darmadağın edilmə nişanələri öz əksini tapıb. Kompleksdə həmçinin, Ermənistan Silahlı Qüvvələrinə məxsus KUB, OSA zenit raket kompleksləri, 150-dək ağır texnika, T-72 tankları, piyadaların döyüş maşınları, 2S1 özüyeriyən artilleriya qurğusu və digər eksponatlar yer alıb. Park Azərbaycan Ordusunun gücünü, tarixi Qələbəni bizə yaşadan şəhid və qazilərimizin bəxş etdiyi qüruru gələcək nəsillərə çatdırmaq üçün dəyərli bir nümunədir.

Ekskursiya tələbələrdə böyük təəssürat yaradıb, onlara qürurlu anlar yaşadıb.

# BDU-da Tələbə Gənclər Təşkilatı barəsində məlumatlandırma tədbiri

*Oktyabrın 23-də BDU-da Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) təşkilatçılığı ilə “TGT nədir?” layihəsi çərçivəsində I kurs tələbələri üçün məlumatlandırma tədbiri keçirilib.*

BDU-nun Tələbə Gənclər Təşkilatının (TGT) sədri Ələkbər Həsənov Universitetin TGT komandasının tərkibində fəaliyyət göstərən klublar, onların məqsəd və vəzifələri barədə söz açıb. Bildirib ki, TGT tələbə-gənclərin Universitetin və ölkənin ictimai həyatına daha fəal qoşulması, əmək fəaliyyətinə hazırlanması, təhsilalanlarla ideoloji işin gücləndirilməsi, onlarda elmə böyük həvəs oyadılması məqsədilə tədbirlər həyata keçirir.

ATGTİ-nin üzvlərlə iş üzrə meneceri Rüfət Rüstəmov və klublarla iş üzrə meneceri Aqil Quliyev təşkilatın fəaliyyəti, həyata keçirdiyi proqram və layihələri, klubları haqqında tələbələrə məlumat verib, şəbəkələşmə prosesində klubların işinin vacibliyini vurğulayıblar.

# DOST Agentliyinin əməkdaşları BDU tələbələrini keys menecmenti ilə bağlı məlumatlandırıblar

*Oktyabrın 23-də DOST Agentliyinin əməkdaşları Bakı Dövlət Universitetinin (BDU) Sosial elmlər və psixologiya fakültəsinin Sosial iş ixtisasında təhsil alan tələbələri üçün "Keyslər üzərində iş" mövsuzunda təlim keçiriblər.*

Agentliyin sosial xidmət məsələləri üzrə sosial agenti Gülqədəm Fərmanlı və aparıcı mütəxəssisi Rəsul Dadaşovun keçdiyi təlim zamanı keys menecmentinin sosial işdə yeri, xüsusiyyətləri və ona verilən tələblərdən bəhs edilib, vahid keys nümunələri tələbələrə əyani vəsaitlərlə təqdim olunub. Tələbələr keys menecmenti işində zəruri olan bacarıq və vərdişlər haqqında ətraflı məlumatlandırılıb.

Təlim tələbələrin suallarının cavablandırılması ilə yekunlaşıb.

# BDU tələbələrinə Bakı Zooloji Parkında mühazirə keçirilib

*Oktyabrın 23-də Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbələrinə "Biomüxtəlifliyin qorunması" fənninin mühazirə və məşğələ dərsləri Bakı Zooloji Parkında innovativ tədris metodları ilə keçirilib.*

Parkın lektoriyasında mühazirə dərsində iştirak edən tələbələrə sürünənlər sinfinin bəzi nümayəndələri ilə əyani şəkildə tanış olmaq imkanı yaradılıb. Sonra tələbələr zooloji parkın ərazisində ekskursiyaya çıxaraq, Azərbaycan və digər ölkələrin unikal fauna nümunələri ilə tanış olublar. Eyni zamanda onlar Azərbaycanın "Qırmızı kitab"ına daxil olmuş, nəsli kəsilmək üzrə olan növlərin mühafizəsi, reintroduksiya proqramı haqqında məlumat əldə ediblər.

Qeyd edək ki, Bakı Zooloji Parkı 1928-ci ildən fəaliyyət göstərib. 2017-ci ildə "Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq" İctimai Birliyinin (IDEA) təşəbbüsü ilə zooloji parkda əsaslı yenidənqurma işləri başlayıb və 2021-ci ildə parkın açılışı olub. Yenidənqurma işlərindən sonra zooparkın ərazisi 2,25 hektardan 4,25 hektara çatdırılıb. Hazırda zooloji parkda 125 növ heyvan saxlanılır. Onlardan 22 növü “Qırmızı kitab”a daxil edilib. Həmçinin zooparkın akvaterrariumunda 62 növ heyvan saxlanılır. Parkda nəsli kəsilməkdə olan bir çox nadir heyvan növlərinin canlı genofondunun saxlanılması təmin edilir və çoxaldılaraq təbiətə buraxılır.

# BDU-da Türkiyə Cümhuriyyətinin 100-cü ildönümünə həsr olunmuş tədbir

***Oktyabrın 30-da Şərqşünaslıq fakültəsinin Türk filologiyası kafedrasının təşkilatçılığı ilə Türkiyə Cümhuriyyətinin 100-cü ildönümünə həsr olunmuş “Ey yüksələn nəsil, istiqbal sizindir!” adlı tədbir keçirilib.***

Tədbirin moderatoru, Türk filologiyası kafedrasının dosenti Nurlanə Mustafayeva 100 illik yubileyini qeyd etdiyimiz Türkiyə Cümhuriyyətinin bütün türk xalqlarının, eləcə də müsəlman Şərqinin çoxəsrlik tarixində dönüş yaratmış böyük hadisə olduğunu bildirib. O, Türkiyə Cümhuriyyətinin bir əsrlik dövr ərzində böyük inkişaf yolu qət etdiyini, sosial-iqtisadi və siyasi inkişafa nail olduğunu, modern ordu qurulduğunu, ölkənin hərtərəfli güclənib, regional və beynəlxalq məsələlərdə söz sahibinə çevrildiyini qeyd edib.



Şərqşünaslıq fakültəsinin dekanı, dosent Aydan Xəndan Ulu Öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” şüarının daim öz təsdiqini tapdığını, Azərbaycan və Türkiyənin qırılmaz tellərlə bir-birinə bağlı olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, Cümhuriyyətin 100-cü ildönümünün bayram kimi qeyd edilməsi bütün Türk dünyası üçün mühüm hadisədir. Aydan Xəndan həmçinin onu da bildirib ki, BDU-nun təhsil və ictimai həyatında fərqlənən 5 tələbə Türkiyə Cümhuriyyətinin qurulmasının 100 illik yubiley tədbirlərində iştirak etmək üçün Ankaraya dəvət olunub.

Bakı Yunus Əmrə İnstitutunun direktoru Selcuk Karakılıc Azərbaycan və Türkiyənin bütün səviyyələrdə bir-birlərini dəstəklədiklərini, gələcəkdə BDU ilə əməkdaşlığın daha da inkişaf etdiriləcəyini bildirib.

Türk filologiyası kafedrasının professoru, Milli Məclisin üzvü Jalə Əliyeva Türkiyə Cumhuriyyətinin qurulmasının tarixi ilə bağlı faktlara toxunaraq, iki qardaş ölkə arasında olan münasibətlərin inkişafında Mustafa Kamal Atatürkün və Ümumilli Lider Heydər Əliyevin müstəsna xidmətlərindən bəhs edib.

Türk filologiyası kafedrasının müdiri, professor Rüfət Rüstəmov, həmin kafedranın dosenti Bənövşə Hacıyeva cümhuriyyətin qurulmasında tarixi şəxsiyyətlərin rolundan, Türk Dövlətləri Təşkilatının yaranması və güclənməsində Azərbaycan və Türkiyənin gördüyü işlərdən söz açıblar.

Daha sonra tədbir tələbələrin çıxışları və bədii hissə ilə davam edib.

# BDU əməkdaşları Yunanıstanın Afina Milli Texniki Universitetində müzakirələr aparıblar

***BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının əməkdaşları Mustafa Muradov və Orxan Güləhmədov oktyabrın 23-25-də Yunanıstan Respublikasının Afina Milli Texniki Universitetində “Elm və Texnologiyada Avropa Əməkdaşlığı proqramının CA19118 qrant layihə iştirakçılarının 3-cü toplantısında 2023-cü il ərzində görülən işlər haqqında müzakirələr aparıblar.***

Müxtəlif COST ölkələrindən (Almaniya, Fransa, Makedoniya, Yunanıstan, Türkiyə, Bolqarıstan, Polşa, Çexiya və s.) olan nümayəndələrin iştirak etdiyi toplantıda karbon nanomaterialları, onların sensor texnologiyalarında istifadəsi, gələcək prioritetlər və istiqamətlər barəsində aparıcı mütəxəssislərin məruzələri dinlənilib. Həmçinin, toplantı çərçivəsində Afina Milli Texniki Universitetinin laboratoriyaları ilə tanışlıq keçirilib. BDU-nun əməkdaşları müxtəlif ölkələrin nümayəndələri ilə elmi-tədqiqat əməkdaşlığın genişləndirilməsi və yeni birgə layihələrin hazırlanması barədə ətraflı müzakirələr aparıblar. Tədbirdə “Erasmus+CBHE” proqramı çərçivəsində yeni layihənin hazırlanması barədə razılığa gəlinib.

# BDU, “LU-MUN Holding” və İstanbul Universiteti ortaq layihəyə başlayıb

***Oktyabrın 23-də BDU, “LU-MUN Holding” və İstanbul Universiteti “universitet-özəl sənaye sektoru” işbirliyi modeli çərçivəsində “Kür çayı və Xəzər dənizi suyunun abiotik amillərinin akvakultura şəraitində yetişdirilən nərəkimilərin rifahına təsirinin müqayisəli tədqiqi” adlı ortaq elmi layihəyə başlayıb.***

Tədqiqat layihəsinin əsas məqsədi akvakulturada, duzlu və ya şirin suda yetişən nərə balıqlarının böyüməsinin və qida dəyərinin hansı mühitdə daha yüksək olmasını müəyyənləşdirməkdir. Layihədə iki fərqli mühit - seçilmiş tədqiqat növü üçün təbii yaşayış mühiti olan Xəzər dənizi və Kür çayı müqayisə edilir.

Layihə çərçivəsində BDU-ya səfər edən İstanbul Universitetinin Su elmləri fakültəsinin Su təsərrüfatı və xəstəlikləri bölməsinin əməkdaşı Çiğdem Ürkü ilə BDU rəhbərliyi və “LU-MUN Holding” əməkdaşları arasında görüş keçirilib. Görüşdə layihə üzrə həyata keçirilən işlər müzakirə edilib.

BDU-nun mütəxəssisləri Çiğdem Ürkü ilə birlikdə Neftçalada “Azərbaycan Balıq Təsərrüfatı” MMC-nin idarə etdiyi Yenikənd Nərə Balıqçılıq Təsərrüfatına da səfər ediblər. Səfər zamanı götürülən müvafiq nümunələr İstanbul Universitetində analizlərə cəlb ediləcək.

Qeyd edək ki, tədqiqatın nəticələri duzlu və ya şirin su mühitinin nərə balıqlarının yetişdirilməsi üçün uyğun olub-olmadığını müəyyən etməkdə, həmçinin müxtəlif şəraitlərdə balıqların inkişaf göstəricilərini qiymətləndirməkdə mühüm rol oynayacaq.

# BDU tələbələri insan resursları strategiyası barədə məlumatlandırılıb

***Oktyabrın 26-da Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin təşkilatçılığı, “Hazel” və “Big education” şirkətlərinin tərəfdaşlığı ilə insan resursları sahəsində ixtisaslaşmış “Talent Staff and Business Solutions” şirkətinin rəhbəri Sevda Quliyeva və Milli Məclisin deputatı Naqif Həmzəyevin iştirakı ilə “Gənclərin inkişafı və karyera“ mövzusunda tələbələrlə görüş keçirilib.***

Görüşdə tələbələrin seçdiyi ixtisasdan asılı olaraq düzgün peşə seçimi, işə qəbul zamanı diqqət yetirilməli nüanslar, müsahibənin etik qaydaları, karyera planlaması, şirkətlərin insan resursları siyasəti, strategiyası barədə bilik və təcrübələr tələbələrlə bölüşülüb. Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi altında təhsil, gənclərin inkişafı sahələrində həyata keçirilən məqsədyönlü siyasətin ölkəmizə qazandırdığı uğurlardan danışılıb.

# Tarix fakültəsində dəyirmi masa: “100-cü ilində Türkiyə Cümhuriyyəti: dünəni, bu günü, sabahı”

***Oktyabrın 30-da Tarix fakültəsində “100-cü ilində Türkiyə Cümhuriyyəti: dünəni, bu günü, sabahı” mövzusunda dəyirmi masa keçirilib.***

Tədbirdə Tarix fakültəsinin əməkdaşları ilə bərabər, dəvətli qonaq qismində Bursa Uludağ Universitetinin professoru Mehmet Yüce, Avrasiya Jurnalistlər Assosiasiyasının rəhbəri, “Devri-Alem” sənədli proqramının prodüseri İsmail Kahraman, AMEA Qafqazşünaslıq İnstitutunun elmi işçisi Fərahilə Babayeva, Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor Sevinc Əliyeva iştirak ediblər.

Tədbiri Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov açdıqdan sonra Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib, ölkələrimizin müstəqilliyi yolunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Türkiyənin milli istiqlal müharibəsinə həsr edilmiş video nümayiş etdirilib. Daha sonra fakültədə nəşr olunan, Ali Attestasiya Komissiyasının nüfuzlu elmi nəşrləri siyahısına daxil edilmiş “Tarix və onun problemləri” elmi, nəzəri, metodik jurnalın (https://aak.gov.az/single/426) Türkiyə Cümhuriyyətinin 100 illik yubileyinə həsr etdiyi 2023-cü il tarixli 3-cü sayı tədqim olunub. Professor İbrahim Zeynalov “Tarix və onun problemləri” jurnalının nəşri tarixindən, respublika elmi ictimaiyyəti üçün əhəmiyyətindən danışıb, jurnalın təsisçisi və baş redaktoru, Türk xalqları tarixi kafedrasının müdiri, professor Əsməd Muxtarovaya və yaradıcı heyətə təşəkkürünü bildirib.

Tədbirdə BDU-nun professoru Qabil Əliyev “Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Paşa” mövzusunda məruzə edib. Məruzədən sonra qonaqlardan professor Mehmet Yüce, İsmail Kahraman və professor Sevinc Əliyeva, BDU-nun dosentləri Səidə Əli qızı və Sevinc Ruintən Türkiyə-Azərbaycan qardaşlığının tarixi kökləri, mövcud durumu və gələcəyi ilə bağlı fikirlərini bildiriblər.

# “Türkiyə Cümhuriyyəti – 100” adlı kitab sərgisi

***Oktyabrın 30-da BDU-nun Elmi Kitabxanasında Türkiyə Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi münasibətilə “Türkiyə Cümhuriyyəti – 100” adlı kitab sərgisi təşkil olunub.***

Sərgidə türk xalqının qəhrəmanlıq, şücaət və fəxarət dolu tarixi, Türkiyənin dövlət siyasəti, ölkələrimizin mədəni əməkdaşlığı, diplomatik əlaqələri, qardaş ölkənin mədəniyyət və incəsənətindən bəhs edən 100-ə yaxın kitab nümayiş olunur. Sərgidə türk tarixinə adlarını qızıl hərflərlə yazmış dünya şöhrətli şəxsiyyətlər – Mustafa Kamal Atatürk və Ulu Öndər Heydər Əliyevin dövlət quruculuğu, müdrik siyasəti haqqında olan, həmçinin iki liderin müstəqillik, türk qardaşlığı, dostluğu və həmrəyliyi mövzusunda söylədikləri dəyərli fikirləri özündə əks etdirən kitablar oxucuların böyük marağına səbəb olub.

Türkiyə Cümhuriyyəti ilə bağlanan ikitərəfli müqavilələr, beynəlxalq aləmdə iki dövlətin birgə səylərinin bariz nümunəsi olan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri haqqında nəşrlərin də nümayiş olunduğu sərgi həftənin sonuna qədər ziyarətçilərin üzünə açıq olacaq.

# BDU tələbələri köçəri quşların miqrasiyasını müşahidə ediblər

***Oktyabrın 16-da Ekologiya və torpaqşünaslıq fakültəsinin Ekologiya ixtisası üzrə təhsil alan tələbələri Ümumdünya Köçəri Quşlar Günü münasibətilə Beşbarmaq dar boğazında monitorinq ediblər. Monitorinq zamanı 24 növ quşun müşahidəsi aparılıb, bunlardan 4-ü Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilən quş növləri olub.***



Ümumdünya Köçəri Quşlar Günü 2006-cı ildən beynəlxalq səviyyədə məlumatlandırma kampaniyası və ekoloji bayram hesab edilir. Ümumdünya Köçəri Quşlar Günü ildə iki dəfə - mayın və oktyabrın ikinci şənbə günü qeyd edilir. "Birding Azerbaijan və Birdwatching Azerbaijan"ın tərəfdaşlığı və "Ornithological Society of the Middle East"in maliyyə dəstəyi ilə artıq bir neçə ildir ki, yerli və xarici mütəxəssislərin, quş müşahidəçilərinin iştirakı ilə Beşbarmaq dar boğazında köç edən quşların payız monitorinqi və sayımı aparılır. Beşbarmaq dar boğazı quşların köç yolu kimi Avropanın ən önəmli miqrasiya koridorlarından biridir.

Quşların sayımı sentyabrın əvvəlindən dekabrın əvvəlinə qədər üç ay ərzində gündəlik aparılır və nəticələr köç edən quşların beynəlxalq məlumat bazası olan trektellen.org saytına əlavə edilir. Hər il 2 milyondan artıq, 300-dən çox növ quş bu koridordan istifadə edərək şimala yuvalama və cənuba qışlama yerlərinə köç edir.

Qeyd edək ki, Azərbaycan quşların ornitofaunası baxımından olduqca zəngindir və bütün Avrasiyada ən böyük miqrasiya yollarından biri məhz buradan keçir.

# BDU tələbələri Xalq şairi Səməd Vurğunun Ev Muzeyində

***Oktyabrın 16-da BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin bir qrup tələbəsi Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə Xalq şairi Səməd Vurğunun Ev Muzeyini ziyarət ediblər. Ziyarət zamanı Ev Muzeyinin əməkdaşları tərəfindən tələbələrə görkəmli şair, ictimai xadim, akademik Səməd Vurğunun həyatı və yaradıcılığı haqqında ətraflı məlumat verilib.*** Bildirilib ki, Xalq şairi Səməd Vurğunun Ev Muzeyi 1975-ci il oktyabr ayının 6-da Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə açılıb. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyev Səməd Vurğunun irsinə hər zaman hörmətlə yanaşıb, onu yüksək qiymətləndirib. Hələ sovet dövründə Ümummilli Lider Heydər Əliyev böyük şairin 70 illik yubileyinin ümumittifaq səviyyəsində qeyd olunmasına nail olub. Müstəqillik dövründə də Səməd Vurğun irsinin təbliği istiqamətində Ümummilli Lider Heydər Əliyev fəaliyyətini davam etdirib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də Səməd Vurğunun ədəbi-bədii irsini hər zaman yüksək dəyərləndirib, şairin 100 illik yubileyinin geniş şəkildə qeyd olunması ilə bağlı 6 fevral 2006-cı il tarixli Sərəncam imzalayıb.



Sonra tələbələr Ev Muzeyində şairin şəxsi əşyaları, nadir əlyazmaları, məktubları, həyatını, müxtəlif ölkələrə səfərlərini, ədəbi-bədii və elmi fəaliyyətini əks etdirən fotolar, diplomlar və digər eksponatlarla tanış olublar. Muzeylə tanışlıq tələbələrdə böyük təəssürat yaradıb.

# BDU tələbələri ilə "YARAT" Müasir İncəsənət Mərkəzinin nümayəndələrinin görüşü

***Oktyabrın 17-də BDU-nun Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə "YARAT" Müasir İncəsənət Mərkəzinin nümayəndələri tələbələrlə görüşüblər.***

Mərkəzin əməkdaşları Leyla Məmmədzadə, Zəhra Məmmədova və Mina Abbasova təqdimatla çıxış edərək tələbələrə həyata keçirlən yerli və beynəlxalq sərgilər, müasir incəsənətin əsas komponentlərini özündə əks etdirən mədəni layihələr barədə məlumat veriblər.

Qeyd olunub ki, YARAT sərgilərin, təhsil proqramları və festivalların təşkil olunması vasitəsilə öz missiyasını həyata keçirir. Mərkəz Azərbaycanda müasir incəsənəti inkişaf etdirmək, ölkədə bu sahədə kolleksiyaçıların sayını artırmaq, biznes və qeyri-biznes şəbəkəsini genişləndirmək, müasir incəsənət pərəstişkarlarını bir araya toplamaq məqsədilə fəaliyyət göstərir.

# AMEA-nın Mərkəzi Elmi Kitabxanası BDU-ya 49 adda biblioqrafik göstərici hədiyyə edib

***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanası (MEK) BDU-nun Elmi Kitabxanasına 49 adda biblioqrafik göstərici hədiyyə edib.*** AMEA Rəyasət Heyətinin qərarı ilə MEK tərəfindən tərtib olunan bu göstəricilər müxtəlif elm sahələri üzrə alimlərin, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti haqqında biblioqrafik informasiya daşıyır. "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasında nəşr olunan bu biblioqrafik resurslar BDU-nun professor-müəllim heyəti, elmi-tədqiqat işi aparan alim və mütəxəssisləri, həmçinin tələbələri üçün əvəzsiz qaynaq rolunu oynayacaq.



# BDU və Dövlət Məşğulluq Agentliyinin birgə təşkilatçılığı ilə "Gələcəyə hazır ol!" mövzusunda infosessiya

***Oktyabrın 11-də BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun və Dövlət Məşğulluq Agentliyinin (DMA) birgə təşkilatçılığı ilə "Gələcəyə hazır ol!" mövzusunda infosessiya keçirilib.***

Tədbiri giriş sözü ilə açan BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun baş mütəxəssisi İlkin Şərifov sektorun fəaliyyətinin tələbələrin əmək bazarına uğurlu adaptasiyasının təmin edilməsi, onlara düzgün karyera quruculuğu üçün istiqamət verilməsi olduğunu qeyd edib.

DMA-nın Karyera planlaması şöbəsinin müdiri Əli Qurbanlı isə tələbələri uğurlu karyera qurmağın yolları, sərt və yumşaq bacarıqların fərqləndirilməsi, yeni bacarıqların qazanılması üsulları ilə bağlı məlumatlandırıb. Əli Qurbanlı bildirib ki, karyerada müvəffəqiyyət qazanmaq üçün qurulan plan bəzi xüsusiyyətləri (özünü yaxşı tanımaq, imkanları hərtərəfli araşdırmaq, özünə peşəkar məqsədlər seçmək, konkret fəaliyyət planını hazırlamaq, davamlı olaraq gedişatı izləmək) özündə birləşdirməlidir. Məhz qeyd edilən xüsusiyyətlər karyeranın uğurunu təmin edir.

İnfosessiyada iştirakçıların mövzu ətrafında çoxsaylı sualları cavablandırılıb.

# Biologiya fakültəsində təlim: "Magistr dissertasiya işinin tərtibi və akademik yazı"

***Oktyabrın 17-də Biologiya fakültəsində "Magistr dissertasiya işinin tərtibi və akademik yazı" adlı təlim keçirilib.***

Fakültənin dekanı Afət Məmmədova və elmi işlər üzrə dekan müavini Pərvin Zülfüqarova magistrantlara dissertasiya işinin hazırlanması və elmi - tədqiqat işlərinin aparılması ilə bağlı tövsiyələr veriblər.

Biologiya fakültəsinin dosenti Sevinc Hümbətova magistrantlara magistrlik dissertasiya işinin hazırlanması, tədqiqatlar üzrə problem qoyuluşu və həlli yolları, elmi ədəbiyyatlarla işləmək, elmi məqalələrin yazılması qaydalarını izah edib. Tələbələr dissertasiya işinin yazılma mərhələləri və ardıcıllığına, ixtisasın spesifikliyini əks etdirən material və metodikanın tətbiqinə, işin texniki tərtibat qaydalarına dair titul səhifəsindən ədəbiyyat siyahısınadək diqqət edilməli məqamlar haqqında slaydlarla tanış olublar. Konkret misallar üzərində ayrı-ayrı sualların izahı magistrlərin nəzərinə çatdırılıb.

Bununla yanaşı, 2 illik təhsil dövründə magistrlərin hazırlayacaqları hesabatlar, onların təqdimatına dair qaydalar, təhvil veriləcək referat və işin aprobasiyasını əks etdirəcək elmi publikasiya öhdəliyi də müzakirə edilib. Plagiarizmə yol verməmək, mənbələrə doğru istinad və internet resurslarından istifadə qaydaları da diqqətə çatdırılıb.

Sonda magistrantların sualları cavablandırılıb.

# BDU-nun SABAH qruplarının tələbəsi BMT-nin qərargahında təhsil səfərində iştirak edib

***BDU-nun SABAH qruplarının Hüquqşünaslıq ixtisası üzrə IV kurs tələbəsi Zübeyir Bağırzadə BMT-nin İsveçrənin Cenevrə şəhərində yerləşən qərargahında təhsil səfərində iştirak edib.***

Təhsil səfərinin məqsədi BMT-nin insan hüquqları mexanizmlərinin işi ilə tanış olmaq, xüsusilə beynəlxalq qurumun qadın hüquqları və gender bərabərliyi sahəsində fəaliyyətini öyrənməkdir.

# Fizika fakültəsində Beynəlxalq Müəllimlər Günü qeyd olunub



***Fizika fakültəsinin Tələbə Elmi Cəmiyyətinin təşəbbüsü ilə 5 oktyabr - Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş tədbir keçirilib.***

Tədbirdə fakültə rəhbərliyi, müəllim və tələbələr, Nəzəri fizika kafedrasının müəllimi olmuş, uzun müddət ABŞ-da çalışmış nəzəriyyəçi fizik Vaqif Mustafayev, Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunun direktoru Sədiyar Rəhimov iştirak ediblər.

Tələbə Elmi Cəmiyyətinin üzvləri fakültə müəllimləri haqqında hazırladıqları videoçarxı təqdim edib, onlar haqqında ürək sözlərini söyləyiblər. Sonra Fizika fakültəsinin III kurs tələbəsi Fatimə Əhmədova “Holoqrafiya” mövzusunda məruzə ilə çıxış edib.

# BDU əməkdaşı Fulbrayt Səfər Təqaüd Proqramının qalibi olub



***BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Mikrobiologiya və virusologiya elmi-tədqiqat laboratoriyasının böyük elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru Aygün İsrayılova ABŞ-ın Dövlət Departamenti və Beynəlxalq Təhsil İnstitutunun əməkdaşlığı ilə həyata keçirilən 2022-2023-cü tədris ili üçün Fulbrayt Səfər Təqaüd Proqramının (The Fulbright Visiting Scholar Program) Azərbaycan üzrə qalibi olub.*** O, proqram çərçivəsində ABŞ-ın Emori Universitetinin İnsan Sağlamlığının Öyrənilməsi Mərkəzində öz tədqiqat işlərini yerinə yetirib.

Aygün İsrayılova müxtəlif bitki ekstratlarının patogen bakteriya olan Burkholderia cinsinin ayrı-ayrı ştammlarına qarşı aktivliyini, həmçinin bitki ekstraktlarından aktiv molekulların ayrılmasını, müxtəlif təbii və sintetik birləşmələrin sitotoksik və virulentlik aktivliyini öyrənib. Eyni zamanda müxtəlif tip hüceyrə xətləri (Hek293, HaCaT, HuH7.0, TZMBL və s.) ilə işləmə prinsipləri, onların yetişdirilməsi və aktiv molekulların onlara təsir üsulları, spektroskopiya və konfokal mikroskopiya kimi biologiya elmi sahəsinin müasir metodlarını ətraflı araşdırıb.

O, olduğu universitetdə biologiya təhsili, istifadə olunan proqram və kurikulum modelləri ilə də yaxından tanış olub, bir neçə mühazirə dərsində iştirak edib. Səfər proqramı çərçivəsində Aygün İsrayılova beynəlxalq seminar və konfransda çıxış etməklə yanaşı, Emori Universitetində təşkil olunan “Human and planetary Health, SEB-SOE 2023” konfrasının təşkilat komitəsinin üzvü olub.

Aygün İsrayılova ABŞ-da ezamiyyətdə olduğu müddətdə biologiya sahəsində nüfuzlu alimlər Cassandra L.Quave, Woo Shin, Guy Benian, Hiroshi Kadota və başqaları ilə biologiyanın müxtəlif sahələrində elmi əməkdaşlıqla bağlı müzakirələr aparıb.

# FHN Akademiyasının kitabxanasının əməkdaşları BDU-da



***Oktyabrın 13-də Fövqəladə Hallar Nazirliyinin Akademiyasının kitabxanasının əməkdaşları BDU-nun Elmi Kitabxanasında qonaq olublar.*** Oxucuların informasiya ehtiyatlarından istifadəsinin keyfiyyətini daha da artırmaq məqsədilə BDU-nun Elmi Kitabxanasının çoxillik təcrübəsindən yararlanmaq məqsədi daşıyan görüşdə elektron resurslara çıxış imkanlarının genişləndirilməsi, kitab mübadiləsinin həyata keçirilməsi, birgə tədbirlərin təşkili və s. məsələlər üzrə əməkdaşlıqla bağlı mövzular müzakirə olunub.

Elmi Kitabxananın direktoru Nigar İsmayılova kitabxananın yaranma tarixi, keçdiyi inkişaf yolu və perspektivləri haqqında qonaqları məlumatlandırıb. Kitabxananın zəngin fondu, oxucu kontingenti, metodik mərkəz kimi fəaliyyəti, yerli və xarici əlaqələri, üzv olduğu beynəlxalq təşkilatlar, burada fəaliyyət göstərən Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu haqqında bəhs edib.

Akademiyanın Ümumi Kitabxanasının rəisi Şəlalə Həziyeva rəhbərlik etdiyi qurumun fondunun həcmi, resurs çeşidi barədə məlumat verib. Qeyd edib ki, 2013-cü ildən elektron kitabxanası da fəaliyyət göstərən Akademiyanın kitabxanası özündə müasir yenilikləri əks etdirən ən yeni elektron avadanlıqlarla təchiz olunub, elektron kataloq sistemi, internet resurslarına sərbəst çıxış, elektron kitablara əlyetərlik imkanları yaradılıb.

Görüşdə qonaqların sualları cavablandırılıb və Elmi Kitabxana ilə gələcək əməkdaşlığın istiqamətləri müəyyənləşdirilib.

Sonda qonaqlar Elmi Kitabxananın fondları və oxu zallarını ziyarət edib, burdakı iş prosesi və qiymətli, nadir nüsxələr, əlyazmalar ilə əyani şəkildə tanış olublar.

# “Beynəlxalq Müəllimlər Günü” adlı kitab sərgisi



***Ölkəmizdə 1993-cü ildən qeyd edilən Beynəlxalq Müəllimlər Günü həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramıdır. Bu münasibətlə oktyabrın 5-də BDU-nun Elmi Kitabxanasında ”Beynəlxalq Müəllimlər Günü” adlı kitab sərgisi təşkil edilib. Sərgidə yer alan 40-a yaxın kitab arasında Azərbaycan müəllimlərinin qurultaylarına həsr olunmuş kitablar, o cümlədən “Müəllimlərin treninqi”, “Ən şərəfli peşədir müəllimlik”, “Səriştəli müəllim hazırlığının problemləri”, “Müdrik müəllimlərimiz” seriyalı nəşrlər və s. oxucular tərəfindən böyük maraqla qarşılanır.***

Sərgidə həmçinin BDU-nun görkəmli alimlərinin müəllifi olduqları elmi əsərlər, dərslik və dərs vəsaitləri də nümayiş etdirilir.

Gənclərdə müəllimlik peşəsinə marağın artırılmasını təbliğ edən sərgi həftənin sonuna qədər ziyarətçilərin üzünə açıq olacaq.

# “Azerfon” MMC-nin İctimaiyyətlə əlaqələr və korporativ ünsiyyət şöbəsinin direktoru ilə görüş

***Oktyabrın 17-də Jurnalistika fakültəsində “Azerfon” MMC-nin (“Nar” ticarət nişanı) İctimaiyyətlə əlaqələr və korporativ ünsiyyət şöbəsinin direktoru Əziz Axundov ilə görüş keçirilib.***

Əziz Axundov ictimaiyyətlə əlaqələr, korporativ sosial məsuliyyət sahələrində 15 ildən artıq təcrübəyə malikdir. O, yaxşı PR mütəxəssisi olmaq üçün önəmli olan faktorları, ictimaiyyətlə əlaqələr və rəqəmsal marketintqin incəliklərini tələbələrlə bölüşüb, şirkətin və özünün bu istiqamətdəki təcrübəsini diqqətə çatdırıb.

Sonda qonaq tələbələri maraqlandıran sualları cavablandırıb.

# “Hüquqşünas masası”

***Oktyabrın 30-da Ədliyyə Akademiyası və SABAH Mərkəzinin əməkdaşlığı çərçivəsində BDU SABAH qruplarının Hüquqşünaslıq ixtisasında təhsil alan tələbələr üçün “Əşya hüquqlarının nəzəri və praktiki problemləri” mövzusunda “Hüquqşünas masası” keçirilib. Tədbirdə BDU-nun SABAH qruplarının Hüquqşünaslıq ixtisasında təhsil alan 150 tələbəsi iştirak edib.*** BDU-nun Mülki proses və kommersiya hüququ kafedrasının dosenti Elçin Xələfovun moderatorluğu ilə keçirilən tədbirdə Bakı şəhər Xətai rayon məhkəməsinin hakimi, dosent Samirə Eyvazova, BDU-nun Mülki hüquq kafedrasının müdiri, dosent Şükür Yusifov və Ədliyyə Akademiyasının Mülki hüquq və mülki proses kafedrasının baş müəllimi Günel Mustafayeva öz məruzələri ilə çıxış ediblər. Məruzələrdə mülki hüququn ən böyük sahələrindən biri olan əşya hüququnun mahiyyətinə, əsas xüsusiyyətlərinə toxunulub, yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ və yaşayış binasının tərkib hissəsi mülkiyyətçisinin ailə üzvləri və digər şəxslər tərəfindən istifadə hüququna dair Konstitusiya Məhkəməsinin qərarları barədə geniş məlumat verilib.

# Koreya Qabaqcıl Elm və Texnologiya İnstitutunun alimi BDU tələbələri ilə görüşüb

*Oktyabrın 4-də Koreya Qabaqcıl Elm və Texnologiya İnstitutunun (KAIST) fəlsəfə doktoru Kyungin Kang Şərqşünaslıq fakültəsinin tələbələri ilə görüşüb.*



Görüşdə BDU-nun rektoru Elçin Babayev, Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan, BDU-da fəaliyyət göstərən Sei Jong İnstitutunun əməkdaşı Kim Donghyun və tələbələr iştirak ediblər.

Qonaq tələbələrlə Koreya dilində söhbət aparıb, onların bu ölkəyə olan maraqlarını, BDU-da Koreya dilinin, koreyaşünaslığın tədrisini yüksək qiymətləndirib. Eyni zamanda Bakıya səfəri və BDU ilə bağlı təəssüratlarını bölüşüb. Kyungin Kang tələbələrə gələcəkdə təhsillərini Koreyanın ali təhsil müəssisələrində davam etdirməyi təklif edib.

Görüş tələbələrin suallarının cavablandırılması ilə davam edib.

# BDU-da nanokompozitlərin alınması, tədqiqi və tətbiqi üzrə tədqiqatlar davam edir

BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının əməkdaşları Mustafa Muradov, Lalə Qəhrəmanlı, Qönçə Eyvazova, Məhəmməd Bağırov, Sevinc Məmmədyarova və Günel Əliyevanın həmmüəllifi olduqları "GO/PVS nanokompozitlərində GO konsentrasiyasının dəyişməsi və termik işləmənin onların struktur, elektrik və optik xassələrinə təsirinin tədqiqi" (Investigating the effect of thermal annealing and changing the concentration of GO in GO/PVA nanocomposites on their structural, electrical, and optical properties) adlı məqalə SCOPUS və "Web of Science" bazalarında indekslənən (WoS IF: 2.2) "ChemEngineering" jurnalında dərc olunub:

Məqalədə GO/PVS-in müxtəlif konsentrasiyalarında əldə olunan nanokompozit materialların quruluşu, fiziki-kimyəvi xassələri və termik davamlılığı araşdırılıb və onların müqayisəli təhlili aparılıb.

# Tanınmış sosioloq İnqilab Şahbazov BDU tələbələrinə ustad dərsi keçib

*Oktyabrın 10-da Sosial elmlər və psixologiya fakültəsinin Sosial iş kafedrasının dəvəti ilə tanınmış sosioloq İnqilab Şahbazov tərəfindən tələbələr üçün ustad dərsi keçirilib.*

Hazırda ADA Universitetində sosiologiya müəllimi kimi çalışan İnqilab Şahbazov Böyük Britaniyanın Kembric Universitetində "MPhil in Criminology" ixtisası üzrə magistratura təhsili alıb. O, "Tədqiqat metodları" kitabının müəllifidir və 8 ildən artıq tədqiqatçılıq təcrübəsinə malikdir.

Ustad dərsində tələbələrə həyata keçirdikləri tədqiqat nəticələrini təhlil etmək, məqalə formasında hazırlamaq qaydaları praktik nümunə əsasında izah olunub. Elmi məqalənin yazılması şərtləri, yerli və xarici elmi jurnallarda məqalə çapı üçün müraciət prosedurları ilə bağlı məlumatlar verilib. Dərs prosesi zamanı tələbələrin sualları cavablandırılıb, mentor tərəfindən müvafiq tövsiyələr verilib.

# BDU-da hüceyrələrdə metabolik aktivliyin ölçülməsinə dair elmi seminar

*Oktyabrın 13-də Biologiya fakültəsinin Biofizika və biokimya kafedrasının müəllimi Nigar Hüseynovanın hüceyrələrin metabolik aktivliyini təyin etmək üçün istifadə edilən kolorimetrik test - MTT ilə bağlı elmi seminarı keçirilib.*

Məruzəçi qeyd edib ki, aktiv dərman maddələri, kosmetik vasitələr, gigiyenik məhsullar, ekoloji kimyəvi maddələr, ağır metallar bir çox fərqli mexanizmlərlə hüceyrəyə sitotoksiki təsir edərək hüceyrələrin qismən apaptozu, nekrozu və ya autofagiyasına səbəb olur. Bu zaman təsiredici preparatların sitotoksikiliyini təyin etmək üçün müxtəlif metodlardan (boyama metodları, kolorimetrik metodlar, fluorometrik metodlar və s.) istifadə edilərək hüceyrələrin canlılıq faizi müəyyənləşdirilir.

Kolorimetrik üsullar hüceyrələrdə metabolik aktivliyi təyin etmək üçün biokimyəvi markerin ölçülməsinə əsaslanır. Hüceyrə canlılığı spektrofotometrik üsulla təyin edilir. Suda həll olmayan formazan kristalları müəyyən həlledicilər (DMSO-dimetil sulfoksid) vasitəsilə həll olunur. MTT testinin prinsipi canlı hüceyrələrdə mitoxondrial funksiyanın göstəricisi olan MTT-nin formazan kristallarına çevrilməsinə əsaslanır. MTT testi zamanı canlı hüceyrələrdə mövcud olan NAD(F)H-dan asılı oksidoreduktazalar (dehidrogenazalar) 370 C-də tetrazol duzlarını suda həll olmayan bənövşəyi rəngli formazan kristallarına qədər reduksiya edir.

Sonda məruzəçi iştirakçıların suallarını cavablandırıb.

# BDU-nun doktorantı Türkiyənin Qazi Universitetində tədqiqatlar aparıb



*BDU-nun Nanomaterialların kimyəvi fizikası kafedrasının I kurs doktorantı Məhəmməd Bağırov Avropa Birliyi tərəfindən maliyyələşdirilən Elm və Texnologiyada Avropa Əməkdaşlığı (European Cooperation in Science and Technology (COST)) proqramının "Fotovoltaika üçün yeni qeyri-üzvi halkogenidlərin tədqiqi və beynəlxalq əməkdaşlıq" (CA21148) adlı layihəsi üzrə Qısamüddətli Elmi Missiya (Short-term Scientific Mission (STSM)) qrant müsabiqəsinin qalibi kimi 24-30 sentyabr tarixlərində Türkiyənin Qazi Universitetində tədqiqatlar aparıb.*

Layihə üzrə Məhəmməd Bağırov tərəfindən BDU-nun Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasında sintez olunan GO və GO əsaslı nanokompozitlər (tədqiqat mövzusu: "AgNWs/GO əsaslı kompozitlərin hazırlanması və onların H2S buxarında sulfidləşmə prosesi") Qazi Universitetinin FOTONİK Tətbiqetmə ve Araşdırma Mərkəzində tədqiq olunub, spektroskopik analizlər və Şotki strukturlar yaradılaraq elektrik ölçmələri aparılıb. Sintez edilmiş ikiölçülü quruluşların və nanokompozitlərin strukturu, elektrik və optik xassələri müxtəlif analiz üsulları ilə tədqiq edilib. Alınmış nəticələr həmin mərkəzin elmi işçiləri ilə müzakirə olunub və gələcəkdə birgə elmi məqalələrin hazırlanması nəzərdə tutulub.

Məhəmməd Bağırov səfər müddətində Qazi Universitetinin müxtəlif tədqiqat laboratoriyaları ilə tanış olub, əməkdaşlarla maraqlı diskussiyalarda iştirak edib, həmçinin, Nanoaraşdırmalar ETL-in elmi istiqamətləri və BDU haqqında iştirakçılara məlumat verib.

# Kimya və Biologiya fakültələrində çexiyalı professorlarla görüş

*Biologiya və Kimya fakültələrində Çexiya Respublikasının Charles Universitetinin Elmlər fakültəsinin əməkdaşları ilə görüşlər keçirilib.*

Charles Universitetinin Elmlər fakültəsinin dekanı, professor Jiri Zima, dekan müavini, professor İvan Nemec, Qeyri-üzvi kimya İnstitutunun direktor müavini Jiri Plocek, Qeyri-üzvi kimya kafedrasının müdiri, professor Petr Stepnicka, Zoologiya kafedrasının assistant professoru, ERASMUS koordinatoru Vera Opatovanın iştirakı ilə keçirilən görüşlərdə qarşılıqlı əməkdaşlıq haqqında məsələlər, magistratura mərhələsində "Yüksək molekullu birləşmələr kimyası" ixtisaslaşmasında ikili diplom proqramı, elmi tədqiqat sahəsində qrant layihələri və "Erasmus+" proqramı çərçivəsində tələbə-müəllim mübadiləsi ilə bağlı fikir mübadiləsi aparılıb.

# BDU-nun dosenti Bolqarıstanda beynəlxalq konfransda məruzə edib

*Oktyabrın 10-da Jurnalistika fakültəsinin elmi işlər üzrə dekan müavini, dosent Sevinc Əliyeva Bolqarıstanın Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin Azərbaycan dili və mədəniyyəti mərkəzinin 10 illik yubileyi münasibətilə keçirilən "Azərbaycan – Avropa və Asiyanın kəsişməsi" adlı Beynəlxalq elmi konfransda məruzə edib.*



"Azərbaycan dilçiliyində ədəbi dillə dialektlərin qarşılıqlı əlaqəsinin elmi-nəzəri prinsipləri" adlı məruzəsində Sevinc Əliyeva ədəbi dilin formalaşmasında dialektlərin, ictimai-tarixi amillərin rolunu vurğulayıb. Dialektlərin ədəbi dilin lüğət tərkibini zənginləşdirən əsas mənbələrdən olduğunu nümunələrlə diqqətə çatdırıb.

Konfransda həmçinin Azərbaycanın Bolqarıstandakı fövqəladə və səlahiyyətli səfiri Hüseyn Hüseynov, Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin rəhbəri, professor Sevinc Əliyeva, Bakı Slavyan Universitetinin prorektoru Nailə Xəndan, Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin Azərbaycan dili və mədəniyyəti mərkəzinin direktoru Sofiya Şiqaeva-Mitreskaya, Türkologiya və altayşünaslıq kafedrasının müdiri, professor İrina Sarıvanova çıxışlarında Azərbaycan dilinin zənginliyindən danışıb, bolqar dili ilə müqayisəli təhlilini aparıblar.

# Zəhirəddin Məhəmməd Baburun 540 illik yubileyinə həsr olunmuş elmi seminar



***Oktyabrın 18-də Filologiya fakültəsinin Türkologiya kafedrasının nəzdində Türkoloji araşdırmalar elmi-tədqiqat laboratoriyası tərəfindən böyük türk hökmdarı və dövlət xadimi, ümumtürk ədəbiyyatının görkəmli nümayəndəsi Qazi Zəhirəddin Məhəmməd Baburun 540 illik yubileyinə həsr olunmuş elmi seminar keçirilib.***

Seminarda laboratoriya müdiri, professor Ramiz Əskər "Dünya fenomeni Zəhirəddin Məhəmməd Babur: şəxsiyyəti və sənəti" adlı məruzə ilə çıxış edib. Məruzəçi bildirib ki, Qazi Zəhirəddin Məhəmməd Baburun (1483-1530) "Baburnamə" əsəri türk və islam ədəbiyyatında memuar janrında yazılmış ilk əsərdir. Müəllif burada öz keşməkeşli həyatını qələmə alıb, Mərkəzi Asiya, Əfqanıstan və Hindistanın tarixinə, mədəniyyətinə, etnoqrafiyasına, flora və faunasına dair qiymətli məlumatlar verib.

Baburun irsinin öyrənilməsinə toxunan natiq qeyd edib ki, "Baburnamə"nin ilk tam tərcüməsi tanınmış ingilis alimi Annet Susanna Beveric tərəfindən 1905-ci ildə həyata keçirilib. "Baburnamə" 1948-ci ildə Daşkənddə iki cild halında nəşr edilib, 1959-cu ildə isə Baburun seçilmiş əsərləri işıq üzü görüb, 1956-1966-cı illərdə üçcildliyi çap olunub. Tanınmış baburşünas Parsa Şəmsiyev 1960-cı ildə bir neçə nüsxə əsasında "Baburnamə"nin elmi-tənqidi mətnini hazırlayıb. Ümumiyyətlə, kitab 30-dan çox xarici dilə çevrilib. Azərbaycanda 2011-ci ildə ayrı-ayrılıqda Ramiz Əskər və Füzuli Bayat tərəfindən dilimizə tərcümə olunub.

Ramiz Əskər Zəhirəddin Məhəmməd Baburun 540 illik yubileyinin dünya səviyyəsində qeyd olunması ilə bağlı keçirilən tədbirlərdən də söz açıb.

Sonda məruzəçi seminar iştirakçılarının suallarını cavablandırıb. Seminar müzakirələrlə yekunlaşıb.

# "Paşa Bank" BDU-da "İstifadəçi araşdırması" mövzusunda infosessiya keçirib

***Oktyabrın 18-də "Paşa Bank" BDU-nun Karyera və məzunlarla əlaqə sektoru, Tələbə Həmkarlar İttifaqı Komitəsi ilə birgə universitet tələbələrinin əmək bazarına hazırlığını yüksəltmək üçün növbəti təlim keçirib.***

Təlimdə BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun baş mütəxəssisi İlkin Şərifov sektorun fəaliyyəti haqqında məlumat verib. Bildirib ki, sektorun əsas fəaliyyəti tələbələrə gələcək karyera quruculuğunda yardım etməkdir.

Sonra "Paşa Bank"ın əməkdaşı Təhminə Misirli "İstifadəçi araşdırması" mövzusunda danışıb. Təlimçi bildirib ki, "istifadəçi araşdırması" həyata keçirilərkən müsahibələr zamanı hədəflənən istifadəçilərin məhsul və ya xidmətin dizaynı, digər xüsusiyyətləri ilə bağlı istəkləri nəzərə alınmalıdır. Bu zaman kəmiyyət, keyfiyyət göstəriciləri, həmin göstəricilərin təhlili metodları mühüm əhəmiyyət kəsb edir. Təhminə Misirli vurğulayıb ki, uğurlu "istifadəçi araşdırması" uğurlu məhsulun yaradılması və inkişafı üçün ilkin zəmindir.

İnfosessiyanın sonunda iştirakçıların mövzu ilə bağlı sualları cavablandırılıb.

# İrlandiyanın Kollec Kork Universitetinin professoru BDU-da ustad dərsi keçib

***Oktyabrın 18-də Sosial elmlər və psixologiya fakültəsində İrlandiyanın Kollec Kork Universitetinin Sosiologiya və kriminologiya kafedrasının professoru Amin Şərifinin ingilis dilində ustad dərsi keçirilib.***

Ustad dərsində mədəni sosiologiyanın bir sıra aktual məsələləri ətrafında müzakirələr aparılıb. Professor Amin Şərifi mədəniyyətin müxtəlif elementlərinin (dil, dəyərlər, ənənələr, din və s.) cəmiyyətin inkişafındakı rolunu izah edib. Bildirib ki, dil və digər dəyərlər müxtəlif cəmiyyətlərin inteqrasiyasına və ya parçalanmasına yol aça bilər. Hazırda dünyada 7000-dən çox dil mövcud olsa da, Yer kürəsinin əhalisi onlardan yalnız 23-ündə danışır, 40%-dən çox dil yox olmaq ərəfəsindədir. Dəyərlər və ənənələr cəmiyyətdə insanların birgəyaşayışının məhsulu olsa da, spesifikliyi və universallığı ilə fərqlənir. Hər bir fərdin, qrupun, cəmiyyətin, sivilizasiyanın öz dəyər və ənənələri var. Mədəni qloballaşma, maddi və mənəvi mədəniyyətlər arasında fərqlər barədə məlumat verən alim cəmiyyətdəki normaların, əxlaq, davranış qaydalarının qorunub saxlanılmasının vacibliyini qeyd edib.

Professor Amin Şərifi interaktiv formada keçirilən dərs zamanı tələbələrin suallarına cavab verməklə yanaşı, onları problem ətrafında müzakirələrə cəlb edib, maraqlı diskussiyalar aparıb. Sonda professor Amin Şərifiyə Sosiologiya kafedrasının müəllimlərinin yazdığı dərsliklər hədiyyə olunub.

# BDU-nun Psixoloji yardım sektoru I kurs tələbələri üçün təlimlər keçirib

***Oktyabrın 30-da BDU-nun Psixoloji yardım sektoru I kurs tələbələrinə "Tələbələrin adaptasiyası" mövzusunda silsilə təlimlər keçirib.***

Məqsəd universitet həyatına uyğunlaşma dövründə çətinlik çəkən I kurs tələbələrini bu mövzuda maarifləndirmək və problemlərdən çıxış yollarını təlimçi ilə birgə interaktiv müəyyən etməkdir.

Təlimlərin ilkin mərhələsində tələbələr empatiya quraraq tanışlıq çalışması yerinə yetiriblər. Təlimin növbəti hissəsində yeni mühitə adaptasiya prosesi izah olunub. Bu mövzuda tələbələrlə müxtəlif testlər işlənilib, qısametrajlı videoçarx izlənilib. Təlimin sonunda tələbələr iki qrupa bölünərək komanda şəklində mövzuya aid çalışmalar yerinə yetiriblər.

# Maarifləndirmə tədbiri - "Sağlam gənclər-sağlam gələcək"

***Oktyabrın 20-də "BDU könüllüləri" təşkilatının Biologiya fakültəsinin nəzdində fəaliyyət göstərən "Avisenna" klubunun təşkilatçılığı ilə "Sağlam gənclər - sağlam gələcək" mövzusunda maarifləndirmə tədbiri keçirilib.***

"Avisenna" klubunun rəhbəri Emil Vəliyev bildirib ki, bu cür tədbirlərin keçirilməsində məqsəd gənc nəslin sağlam vətəndaş, yararlı bir fərd kimi yetişməsinə töhfə verməkdir.

Respublika QİÇS-lə Mübarizə Mərkəzinin həkim-infeksionisti Zəminə Paşayeva iştirakçılara İnsanın İmmunçatışmazlığı Virusu (İİV) və Qazanılmış İmmun Çatışmazlığı Sindromu (QİÇS) xəstəliklərinə yoluxma yolları, onun profilaktikası, müayinəsi və müalicəsi haqqında ətraflı məlumat verib.

Biologiya fakültəsinin dekanı Afət Məmmədova narkomaniya və digər zərərli vərdişlərlə mübarizədə daha səmərəli nəticələrə nail olmaq, gəncləri həmin sosial bəladan qorumaq, onlarda sağlam həyat tərzinə marağı artırmaq üçün maarifləndirmə işlərini daim diqqət mərkəzində saxlamağın vacibliyini vurğulayıb.

Tədbirin ikinci hissəsində iştirakçılara QİÇS-lə bağlı broşurlar, bukletlər paylanılıb və Respublika QİÇS-lə Mübarizə Mərkəzinin əməkdaşları tərəfindən tələbələr üçün ödənişsiz müayinə keçirilib.

# BDU tələbələri Şuşada fauna və floraya baxış keçirib, təqdimat hazırlayıblar

***Oktyabrın 30-da Biologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının bir qrup üzvü Şuşa şəhərinə səfər edib.***

Səfər zamanı tələbələr Şuşanın flora və faunasını yaxından müşahidə edərək, materiallar toplayıb, fotoşəkillər çəkiblər. Onlar ərazidə müxtəlif kol cinsləri, fındıq, alça, göyəm, əzgil, itburnu, ağcaqayın, Şərq fıstığı, Qafqaz vələsi, İberiya palıdı bitkilərindən nümunələr götürüblər. Səfər müddətində əldə edilmiş məlumatlara və ədəbiyyat materiallarına əsasən, Şuşanın fauna və florasının erməni işğalından əvvəlki və sonrakı vəziyyəti müqayisəli təhlil edilməklə təqdimat hazırlanıb.

Məruzəçilər təqdimatda ermənilərin Qarabağda törətdikləri ekoterrora dair fotoları da yerləşdiriblər.

# "Mənəvi dəyərlərimizdən gələcəyə baxış" adlı tədbir

***Oktyabrın 25-də Şərqşünaslıq fakültəsində "BDU könüllüləri" təşkilatının təşəbbüsü ilə "Mənəvi dəyərlərimizdən gələcəyə baxış" adlı tədbir keçirilib.***

Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Şərqşünaslıq fakültəsinin dekan müavini Şahin Yusifli hər bir milləti dünyada tanıdan, digər xalqlardan fərqləndirən ən önəmli xüsusiyyətlərin onun adət-ənənələri, mənəvi dəyərlər sistemi olduğunu bildirib. Qeyd edib ki, tolerantlığı ilə fərqlənən Azərbaycan əsrlər boyu yaşadığı ənənələrə bu gün də sadiqdir. Hələ ötən əsrin 60-cı illərində Azərbaycanda siyasi hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev xalqın milli heysiyyətini gücləndirmək, onu öz şanlı keçmişinə, soykökünə qaytarmaq, habelə zəngin bədii irsini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün ardıcıl tədbirlər həyata keçirib. Ümummilli Liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlməsi gənc müstəqil dövlətimizin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın – azərbaycançılığın təşəkkülü və inkişafına mühüm təsir göstərib. Bugünkü Azərbaycan həmin sağlam təməllər üzərində inkişaf edir.

Tədbir tələbələrin hazırladığı bədii hissə ilə davam edib.

# BDU könüllüləri Şirvanşahlar Saray Kompleksini ziyarət ediblər



***Oktyabrın 17-də "BDU Könüllüləri" təşkilatının Sosial elmlər və psixologiya fakültəsi üzrə üzvləri Şirvanşahlar Saray Kompleksi muzey-qoruğunu ziyarət ediblər.***

Ekskursiya zamanı tələbələrə abidənin tarixi, memarlıq xüsusiyyətləri, saray həyatı və burada yaşamış hökmdarlar haqqında geniş məlumat verilib. Dövlət tərəfindən mühafizə olunan Şirvanşahlar sarayı - kompleksi 1964-cü ildən muzey-qoruq statusu alıb. Muzeyin eksponatları içərisində bəzək əşyaları, arxeoloji tapıntılar, saxsı qablar, müxtəlif rəsmlər, milli geyimlər və XVIII-XX əsrlərə aid olan çoxlu sayda məişət avadanlığı sərgilənir.

# Dövlət Məşğulluq Agentliyi BDU tələbələri üçün infosessiya keçirib

***Oktyabrın 17-də BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun və Dövlət Məşğulluq Agentliyinin (DMA) Mərkəzi karyera filialının birgə təşkilatçılığı ilə tələbələr üçün infosessiya keçirilib.***

İnfosessiyanın keçirilməsində məqsəd tələbələri karyera quruculuğu, əmək bazarının tələbləri ilə tanış etmək, onları bu istiqamətdə maarifləndirməkdir.

DMA-nın Mərkəzi karyera filialının əməkdaşı, karyera məsləhətçisi Mikayıl Tağıyev tələbələri müsahibədə iştirak üsulları, CV və istək məktubunun hazırlanması qaydaları, iş axtarışı, əmək bazarının araşdırılması, karyera planlaması, yumşaq və texniki bacarıqlara yiyələnmək yolları, könüllülük proqramlarına qoşulmaq və başqa mövzular haqqında məlumatlandırıb. Sonda tələbələrin sualları cavablandırılıb.

# Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu Jurnalistika fakültəsinin tələbələrinə mühazirə oxuyub



***Oktyabrın 18-də Milli Məclisin deputatı, siyasi elmlər doktoru Elşad Mirbəşiroğlu Jurnalistika fakültəsinin tələbələri ilə görüşüb.***

Fakültənin dekanı, filologiya elmləri doktoru Vüqar Əliyev qonağı təqdim edərək görüşün əhəmiyyətini vurğulayıb.

"Media və siyasət" fənninin qonağı olan millət vəkili 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü ilə əlaqədar tələbələrə mühazirə oxuyub.

O, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənədin - Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsindən, şanlı günün tarixindən danışıb.

Elşad Mirbəşiroğlu qeyd edib ki, 44 günlük Vətən müharibəsi və bir günlük lokal antiterror tədbirlərindən sonra bu əlamətdar tarixi gün yeni əhəmiyyət kəsb edib. Regionda baş verən hadisələrə diqqət çəkən qonaq bütün bu münaqişələr fonunda Azərbaycanın milli maraqlara söykənən uğurlu və dayanıqlı xarici siyasətinin effektivliyinə diqqət çəkib. Elşad Mirbəşiroğlu Ermənistanın Azərbaycana qarşı informasiya müharibəsi apardığını vurğulayaraq, gənclərin, xüsusilə də tələbə-jurnalistlərin üzərinə böyük vəzifə düşdüyünü bildirib.

Fakültə rəhbərliyi və professor-müəllim heyətinin də iştirak etdiyi görüşün sonunda millət vəkili tələbələrin çoxsaylı suallarını cavablandırıb.

# BDU-da nanokompozit təbəqələrin hazırlanması və istifadəsinə dair elmi seminar keçirilib

***Oktyabrın 20-də Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasında növbəti elmi seminar keçirilib.***

Seminarda laboratoriyanın kiçik elmi işçisi və Fizika fakültəsinin III kurs doktorantı Orxan Güləhmədov "Davamlı enerji texnologiyaları və sensor sistemləri üçün neylon və dəmir oksidi nanohissəcikləri əsaslı nanokompozit təbəqələrin hazırlanması və onların triboelektrik nanogeneratorlarda (TENG) istifadəsi" adlı məruzə ilə çıxış edib.

Orxan Güləhmədov seminar iştirakçılarına TENG-in fiziki mexanizmləri, sensor texnologiyalarında tətbiq imkanları, üstünlükləri, neylon və dəmir oksidi nanohissəcikləri əsaslı nanokompozit təbəqələrin sprey örtük metodu ilə alınması, xarici sabit maqnit sahəsinin təsir prinsipləri, bele materialların tətbiq xüsusiyyətləri haqqında ətraflı məlumat verib.

Sonda məruzəçi sualları cavablandırıb və gələcək tədqiqatlar üçün təkliflərini bildirib.

# DAAD BDU tələbələri üçün məlumatlandırma tədbiri



***Oktyabrın 16-da "BDU Könüllüləri" təşkilatı tərəfindən Alman Akademik Mübadilə Xidmətinin (DAAD) tələbələr üçün məlumat tədbiri keçirilib.***

Görüşdə DAAD-ın Tbilisidəki regional ofisinin rəhbəri Gebhard Reul və regional ofisin Azərbaycan üzrə koordinatoru Sevər Qarayeva tələbələrə Almaniyada təhsil və tədqiqat imkanları barədə ətraflı məlumat verib.

Görüş iştirakçıları DAAD-ın təqaüd proqramları barədə məlumatlandırılıblar. Bildirilib ki, 1950-ci ildə yaradılan DAAD təqaüdlərini indiyədək 1 milyondan çox insan qazanıb və təhsilini Almaniyada davam etdirib. Azərbaycan Almaniyada DAAD təqaüdləri ilə təhsil almaq sayına görə dünyada ikinci yerdədir.

Daha sonra qonaqlar BDU tələbələrinin suallarını cavablandırıblar.

# BDU-nun 10 tələbəsi Prezident təqaüdünə layiq görülüb

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2022/2023-cü tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.***

Sərəncama əsasən, 2023/2024-cü tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş 102 tələbəyə Prezident təqaüdü verilir.

Prezident təqaüdünə layiq görülən gənclərdən 10-u BDU-nun tələbəsidir.

*Onların siyahısını təqdim edirik:*

1.Həsənzadə Kübra Maqsud qızı
2. Payızova Nuranə Elşən qızı
3. Hüseynova Zəhra Mahir qızı
4. Abbasquliyeva Səmayə İsmayıl qızı
5. Rəcəbova Aysu Yusif qızı
6. Nurulu Mahir Vidadi oğlu
7. Zeynalov Kamran Natik oğlu
8. Tağıyeva Zöhrə Müşvüq qızı
9. Süleymanov Mirzə Elman oğlu
10. Məmmədova Fatimə Saleh qızı

Yüksək etimada layiq görülən BDU tələbələrini təbrik edir, onlara uğurlar arzulayırıq!

# 2023/2024-cü tədris ilində BDU-ya 159 əcnəbi tələbə qəbul olunub

***Bakı Dövlət Universitetinə 2023/2024-cü tədris ilində 159 əcnəbi tələbə qəbul edilib. Bunlardan 66-sı hazırlıq sektoruna, 7-si doktoranturа, qalanları isə bakalavriat və magistratura səviyyələrinə daxil olub. 18 nəfər isə Hökumətlərarası Təqaüd Proqramı ilə BDU-da təhsil almaq haqqı qazanıb.***

11 ölkəni (Amerika Birləşmiş Ştatları, Çin Xalq Respublikası, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Rusiya, Tacikistan, Türkiyə, Türkmənistan, Ukrayna) təmsil edən əcnəbi tələbələr əsasən psixologiya, hüquqşünaslıq, beynəlxalq münasibətlər, kompüter elmləri, dövlət və ictimai münasibətlər, iqtisadiyyat, jurnalistika, informasiya təhlükəsizliyi, təhsildə sosial-psixoloji xidmət ixtisaslarına üstünlük veriblər.

Qeyd edək ki, əcnəbi vətəndaşların qəbulu və ölkəmizdə təhsil alan əcnəbi tələbələrin məlumatlarının toplanması aidiyyəti elektron resurslar (portal.edu.az və atis.edu.az) vasitəsilə aparılır.

# BDU-nun SABAH qruplarının tələbələrinin Qobustan palçıq vulkanlarına infosessiyası



***Oktyabrın 6-da BDU-nun SABAH Mərkəzi tərəfindən SABAH qruplarının Coğrafiya müəllimliyi ixtisasının tələbələri üçün Qobustan Dövlət Tarixi-Bədii Qoruğuna və Çeyildağ palçıq vulkanına infosessiya təşkil olunub.***

Fiziki coğrafiya kafedrasının müəllimləri Rəşad Sədullayev və Aruz Mikayılovun rəhbərliyi ilə baş tutan infosessiya zamanı tələbələrə palçıq vulkanizmi və onun geoturizm potensialı barədə ətraflı məlumat verilib.

Tələbələr palçıq vulkanları üzərində morfometrik ölçmə işləri aparıb, püskürülən palçığın neft və qaz maddələri ilə əlaqəsini təhlil ediblər. Eyni zamanda əraziyə xas olan gilli suxur və yarımsəhra bitkilərindən nümunələr götürüblər.

İnfosessiyanın məqsədi Azərbaycan ərazisində yayılmış palçıq vulkanlarında müşahidələr aparmaq, onların fəaliyyətini izləmək, faydaları ilə tanış olmaqdır.

# Hüquq fakültəsinin tələbələri Ali Məhkəmədə



***Oktyabrın 9-da Hüquq fakültəsinin tələbələri növbəti "Açıq qapı" günü münasibətilə Azərbaycan Respublikasının Ali Məhkəməsində oldular.***

Tələbələr Ali Məhkəmənin inzibati binası ilə tanış olub, məhkəmə iclas zallarını, Plenum zalını, məhkəmənin kitabxanasını və Məhkəmə tarixi muzeyini ziyarət ediblər.

Tanışlıq çərçivəsində Ali Məhkəmənin Cinayət kollegiyasının hakimi Rəşad Abdulov tələbələrə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları, məhkəmələrin dövlət quruluşunda yeri və rolu, qanunvericilik və təcrübə barədə fikirlərini çatdırıb. Tələbələri maraqlandıran suallar cavablandırılıb.

Sonda tələbələr təəssüratlarını bölüşüb və xatirə fotosu çəkdiriblər.

# BDU tələbələri tütün məmulatlarının sağlamlığa zərəri barədə məlumatlandırılıb

***Oktyabrın 9-da BDU-nun Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə "Tütün məmulatlarının sağlamlığa zərəri" mövzusunda maarifləndirici tədbir keçirilib.***

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) nəzdində 17 saylı şəhər poliklinikasının həkimi Həmidə Ələfsərova ölkəmizdə gənclərə göstərilən dövlət qayğısından, vətəndaşların sağlamlığının qorunması istiqamətində həyata keçirilən məqsədyönlü işlərdən, tütün məmulatlarının, siqaretin və spirtli içkinin insan sağlamlığına vurduğu zərərdən, ictimai yerlərdə siqaretdən istifadə ilə bağlı qoyulan məhdudiyyətlərdən bəhs edib.

Tədbirdə çıxış edənlər siqaretin zərəri, onlardan istifadənin qlobal miqyasda yaratdığı təhlükə haqqında məlumat verib, gəncləri neqativ vərdişlərdən uzaq durmağa çağırıblar.

Sonra mövzu ətrafında müzakirələr aparılıb, tələbələrin təklif və tövsiyələri dinlənilib.

# Azərbaycan Beynəlxalq Bankı tələbələr üçün bilik sessiyası keçirib

***Oktyabrın 9-da BDU-nun Karyera və məzunlarla əlaqə sektoru və Azərbaycan Beynəlxalq Bankının (ABB) birgə təşkilatçılığı ilə tələbələr üçün növbəti dəfə bilik sessiyası keçirilib.***

BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun baş mütəxəssisi İlkin Şərifov iştirakçıları sektorun fəaliyyəti ilə tanış edərək, tələbələrin əmək bazarı ilə tanışlığının prioritet istiqamət olduğunu bildirib. İlk sessiya ABB-nin İnsan resurslarının idarə edilməsi departamentinin əməkdaşı, biznes tərəfdaşı Aytən Səfərli tərəfindən "Uğurlu CV hazırlamaq və müsahibəyə hazırlıq" mövzusunda keçirib. Təlimdə tələbələrə uğurlu CV hazırlanması üsulları izah edilib, bu sahədə ən çox yol verilən nöqsanlar və onların aradan qaldırılması yolları haqqında məlumatlandırma aparılıb. Sonra Aytən Səfərli müsahibəyə hazırlaşmanın metodları ilə tələbələri tanış edib. Bildirib ki, müsahibə zamanı bütün bilik və bacarıqların maksimum dərəcədə ifadəsi vacibdir.

Növbəti sessiya ABB-nin "Agile" ofisinin rəhbəri Həsən Eminov tərəfindən "Agile yanaşma" mövzusunda keçirilib. Həsən Eminov "agile" idarəetməsinin mahiyyəti, onun müsbət cəhətləri haqqında ətraflı məlumat verərək, onun ənənəvi idarəetmə ilə oxşar və fərqli cəhətlərini izah edib.

Sonda BDU tələbələrinin əmək bazarına adaptasiyasını yaxşılaşdırmaq məqsədilə ABB tərəfindən təcrübə mübadiləsi sessiyalarının keçirilməsi, təcrübə proqramlarının təşkili məsələləri də müzakirə olunub.

# Tələbələr üçün karyera quruculuğuna dair konsultasiyalar təşkil edilib

***Oktyabrın 5-də BDU-nun Karyera və məzunlarla əlaqə sektoru, Tələbə Gənclər Təşkilatı və Dövlət Məşğulluq Agentliyinin Mərkəzi karyera filialının birgə təşkilatçılığı ilə tələbələr üçün karyera quruculuğu istiqamətində fərdi konsultasiyalar təşkil olunub.***

Konsultasiyaların keçirilməsində məqsəd tələbələri əmək bazarının tələbləri ilə tanış etmək, onları bu istiqamətdə maarifləndirməkdir. Layihə tələbələr tərəfindən maraqla qarşılanıb. Konsultasiyanın gedişində tələbələrin mövzu ətrafında sualları ətraflı cavablandırılıb, layihənin mütəmadi olaraq həyata keçirilməsi planlaşdırılıb.

Konsultasiyada düzgün karyera planlaması, əmək bazarının tələbləri və araşdırılması, iş axtarışı, rezüme və istək məktubunun hazırlanması, müsahibəyə hazırlıq kimi mövzular müzakirə edilib.

# "Gənc istedadlar" liseyinin müəllimləri təltif olunublar

***Bakı Dövlət Universitetinin nəzdindəki "Gənc istedadlar" liseyinin müəllimləri 5 oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə təltif olunublar.***

Elm və təhsil naziri Emin Əmrullayevin 02 oktyabr 2023-cü il tarixli əmri ilə təhsilin inkişafındakı xidmətlərinə, gənc nəslin təlim-tərbiyəsi sahəsində yüksək nailiyyətlər əldə etdiklərinə görə liseyin müəllimləri Aqşin Abdullayev və Zəminə Əliyeva "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanına, Gülşən Əliyeva isə "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Fəxri Fərmanı"na layiq görülüblər.

Müəllimlərimizi təbrik edirik!

# Astrofizika kafedrası: Oktyabrın 28-də 2023-ci ilin ikinci Ay tutulması baş verib

***Oktyabrın 28-də 2023-ci ilin ikinci Ay tutulması baş verib.***

Fizika fakültəsinin Astrofizika kafedrasının məlumatına görə, bu, qismən Ay tutulması olub.

Bakı vaxtı ilə saat 22:01:44-də yarımkölgəli, saat 23:35:18-də qismən tutulma başlayıb. Tutulmanın maksimumu oktyabrın 29-u saat 00:14:00-da baş verib. Saat 00:52:37-də qismən tutulma, saat 02:26:19-da yarımkölgəli tutulma sona çatıb.

2023-cü ilin ikinci qismən Ay tutulmasını Avropa, Asiya, Avstraliya, Afrika, Şimali Amerika, Cənubi Amerikanın Şimal-Şərq hissəsi, Sakit okean, Atlantik, Hind okeanları, Arktika və Antarktidada müşahidə etmək mümkün olub. Tutulma hadisəsi Azərbaycan ərazisində də müşahidə olunub.

# Tarix fakültəsinin I kurs tələbələri Heydər Əliyev Muzeyini ziyarət ediblər

***Oktyabrın 10-da Tarix fakültəsinin I kurs tələbələri BDU-nun Heydər Əliyev Muzeyini ziyarət ediblər. Heydər Əliyev muzeyinin mütəxəssisi Afət Seyidbəyova muzey haqqında tələbələrə məlumat verib.*** Qeyd edib ki, BDU-nun Heydər Əliyev muzeyi 1997-ci ildə Ulu Öndərin şəxsi razılığı ilə yaradılıb və fəaliyyətə başlayıb. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar BDU-nun tədbirlər planı çərçivəsində muzey ən müasir standartlar nəzərə alınmaqla əsaslı şəkildə yenidən qurulub. Muzeyin sol tərəfində BDU-nun dünyaşöhrətli məzunu və fəxri doktoru olan böyük şəxsiyyətin həyatının müxtəlif dövrlərini əks etdirən fotoşəkil və sənədlər nümayiş olunur. Monitorda isə "elektron muzey" formatında Ümummilli Liderin həyatı və zəngin fəaliyyətinə dair məlumatlar təqdim edilir. Muzeyin bir bölməsində Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü, müstəqilliyə doğru böyük dönüş və milli oyanışın başlanması tarixi – 1969-1982-ci illəri ehtiva edən fotoşəkillər əks olunub. Digər bölmə isə müdrik dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü, müstəqil Azərbaycan dövlətinin qurucusu və banisi kimi fəaliyyətini əks etdirir. Muzeyin sağ hissəsi Ulu Öndərin BDU ilə bağlı fəaliyyətini, universitetə doğma, əziz münasibətini əks etdirir.

# BDU-da III Beynəlxalq Türk Dünyası Kommunikasiya (Media) və İncəsənət Simpoziumunun açılış mərasimi

***Oktyabrın 26-da BDU-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyi və qardaş Türkiyə Cümhuriyyətinin 100-cü ildönümünə həsr olunmuş III Beynəlxalq Türk Dünyası Kommunikasiya (Media) və İncəsənət Simpoziumunun açılış mərasimi keçirilib.***





Tədbirdən əvvəl simpozium çərçivəsində qrafik dizayn sərgisinə baxış keçirilib.

BDU-nun rektoru Elçin Babayev tədbiri giriş nitqi ilə açaraq 2023-cü ilin Türk dünyası və Azərbaycan üçün əlamətdar olduğunu deyib: "Bu il Azərbaycanın və Türk dünyasının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə Vətəninə, xalqına bağlı olan dünya miqyaslı siyasi xadim, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyini böyük sevgi və ehtiramla qeyd edirik. Böyük Mustafa Kamal Atatürk "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Ulu Öndər Heydər Əliyev isə "Biz bir millət, iki dövlətik" deyirdi. Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun gücü məhz türk dünyasının bu iki dahi oğlunun düsturuna əsaslanır. Hazırda bütün türk dövlətləri bu düsturun nə qədər uzaqgörən mahiyyət daşıdığının fərqinə varır, onun ətrafında birləşir. Ortaq dil, ortaq tarix, ortaq mədəni irs, ortaq maraqlara malik Türk dünyası birlikdə daha güclüdür. 2023-cü il bütün Türk dünyası üçün ikiqat bayramdır. Qardaş Türkiyə Cümhuriyyəti qurulmasının 100-cü ildönümünü qeyd edir. Güclü Türkiyə güclü Azərbaycan, güclü Türk dünyası deməkdir. Ona görə də bu bayram özünü türk hesab edən hər kəsin bayramıdır".

Rektor diqqətə çatdırıb ki, bu iki əlamətdar hadisəni Vətən müharibəsində qazandığımız şanlı Zəfər daha da gözəlləşdirir, rövnəqləndirir: "Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuz 2020-ci ildə 44 günlük Vətən müharibəsi və bu il sentyabrın 19-da cəmi 24 saat bələ çəkməyən lokal antiterror tədbirləri nəticəsində Qarabağdakı seperatçı rejimi birdəfəlik məhv etdi, ölkəmizin suverenliyi bərpa olundu. Hazırda Xankəndidə, Əsgəranda, Xocalıda, Ağdərədə də üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Türk dünyasının birliyi hazırda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində geniş miqyas alan bərpa-quruculuq işlərində də özünü parlaq şəkildə büruzə verir. Türkiyə şirkətləri ilk gündən bu prosesdə fəal iştirak edirlər. Eyni zamanda, Qazaxıstan Prezidentinin təşəbbüsü ilə işğaldan azad edilmiş Füzuli şəhərində qazax xalqının böyük oğlu Kurmanqazi adına Uşaq Yaradıcılıq Mərkəzinin, Özbəkistan Prezidentinin təşəbbüsü ilə məktəb tikintisinin həyata keçirilməsi birliyimizin təcəssümüdür. Artıq azad Qarabağımız Türk dünyasının birləşmə nöqtəsinə - çoxsaylı siyasi, iqtisadi, mədəni tədbirlərin keçirilmə məkanına çevrilir. Əziz Şuşamız 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib. Şuşada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumu, türk dövlətlərinin uşaq rəqs qruplarının iştirakı ilə "Heydər Əliyev – türk dünyası birliyinin böyük carçısı" adlı beynəlxalq uşaq rəqs festivalı, III "Korkut Ata" Türk Dünyası Film Festivalı kimi mötəbər tədbirlərin keçirilməsi bu istiqamətdə birgə səylərimizin bariz göstəriciləridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Türk Dövlətləri Təşkilatının hər sahədə güclənməsi üçün atdıqları addımların bu gün nəticəsini görürük. Xüsusilə Vətən müharibəsindən sonra reallıqların dünyaya çatdırılmasında türk mediasının nə qədər önəmli olduğunu gördük. Bütün bunlar türk dövlətlərinin siyasi, iqtisadi, sosial, hərbi, elm, təhsil sahələri ilə yanaşı, media və mədəniyyət sahələrində də daimi əməkdaşlıq etməsini, ortaq layihələr həyata keçirməsini zəruri edir".

BDU rektoru bildirib ki, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi, "Birgə Media Platforması" çərçivəsində Azərbaycan-Türkiyə ikitərəfli əlaqələrini və əməkdaşlığını media və kommunikasiya sahəsində gücləndirməklə strateji media ortaqlığının yaradılması Azərbaycan və Türkiyə, eləcə də digər qardaş türk dövlətləri üçün yol xəritəsidir: "Məhz beynəlxalq arenada rast gələnən dezinformasiyalara qarşı birgə mübarizə aparılması, dünya ictimaiyyətinin düzgün məlumatlandırılması, televiziya və kino sahəsində ortaq işlərin həyata keçirilməsi, müxtəlif media təmsilçiləri ilə tərəfdaşlığın qurulması artıq günün tələbinə çevrilib. Ortaq dəyərlərimizin təbliği baxımından bu gün keçirilən III Beynəlxalq Türk Dünyası Kommunikasiya (Media) və İncəsənət Simpoziumunun da bu böyük missiyaya töhfə verəcəyinə inanıram".

Türk Dünyası Jurnalistlər Federasiyasının sədri Menderes Demir isə qeyd edib ki, türk dövlətləri böyük bir ailədir. Bu ailənin həmişə güclü olması üçün türkdilli dövlətlərin mətbuat, mədəniyyət xadimlərinin, alimlərinin üzərinə böyük vəzifə düşür. Menderes Dəmir bu istiqamətdə birgə layihələr həyata keçirməyin, ortaq dəyərlərin təbliğinin önəmini vurğulayıb.

Daha sonra Özbəkistan Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin İnsan hüquqları və mədəniyyət kafedrasının müdiri, professor Nazire Taşpolatova, Qazaxıstan Avrasiya Universitetinin Jurnalistika fakültəsinin dekanı, professor Kairat Omirbayulya, Şimali Kipr Türk Cümhuriyyətinin Lekfe Avropa Universitetinin Kommunikasiya fakültəsinin dekanı, professor Elif Asude Tuncay çıxış edərək konfransın işinə uğurlar arzulayıblar.

Tədbirdə BDU və Türk Dünyası Jurnalistlər Federasiyası arasında əməkdaşlıq protokolu imzalanıb.

Simpoziumun açılış mərasimindən sonra Türk Dünyası Jurnalistlər Federasiyasının fəaliyyətinə və III Beynəlxalq Türk Dünyası Kommunikasiya (Media) və İncəsənət Simpoziumunun gedişinə həsr olunmuş videoçarxlar nümayiş olunub. Daha sonra Türk Dünyası Jurnalistlər Federasiyasının təşkilatçılığı ilə Ankarada keçirilən "VIII Türk Dünyası Sənədli Film Festivalı"nda Baş mükafatı qazanan rejissor Vaqif Mustafayevin "Fikrət Əmirov" filmi nümayiş olunub. "Doqquz ölkə, doqquz şəhər, bir festival" şüarı altında keçirilən festivalda mükafata layiq görülən filmlərin dünyanın doqquz ölkəsində nümayiş etdirilməsi planlaşdırılır. Filmin ilk nümayişi isə BDU-da keçirilib.

# Çinin Anhui Universitetinin nümayəndə heyəti BDU-da

***Oktyabrın 23-də Çin Xalq Respublikasının (ÇXR) Anhui Universitetinin vitse-prezidenti Jou Feinin rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***

Nümayəndə heyəti ilə görüş zamanı BDU-nun rektoru Elçin Babayev qonaqlara Universitetin tədris, elmi fəaliyyəti, beynəlxalq əlaqələri ilə bağlı məlumat verib, iki universitet arasında əməkdaşlıq münasibətlərinin inkişaf etdirilərək yeni müstəviyə keçirilməsinin vacibliyini vurğulayıb. Rektor həmçinin BDU ilə Anhui Universiteti arasında bakalavriatura səviyyəsində Çin filologiyası ixtisası üzrə ikili diplom proqramının yaxın zamanlarda imzalanması və gələcəkdə bu proqramın üçlü diplom proqramına çevrilməsi imkanları haqqında danışıb. Elçin Babayev ortaq mədəni tədbirlərin, forumların, elmi konfransların keçirilməsinin, birgə elmi qrantlara müraciət edilməsinin vacibliyini qeyd edib.

Çin Xalq Respublikasının (ÇXR) Anhui Universitetinin vitse-prezidenti Jou Fei səmimi qarşılanmaya görə təşəkkürünü bildirib, BDU rektorunu Anhui Universitetinə səfərə dəvət edib. O, BDU-nun nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun qazandığı uğurlardan danışıb və Anhui Universiteti haqqında ətraflı məlumat verib. Jou Fei Anhui Universitetinin 130-dan çox region və ölkə ilə beynəlxalq səviyyədə əməkdaşlıq etdiyini vurğulayıb.



**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 31.10.2023

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08